Xalqın qəzeti!

# Xalq qəzeti

№ 113 (31082) 1 iyul 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Birinci Türkoloji Qurultayın 100 illik yubileyi Türk dövlətlərinin qardaşlıq bayramına çevrilib



**Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinə dair ötən ilin oktyabrında Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü zamanı irəli sürdüyüm təşəbbüsün bu gün reallaşması məmnunluq doğurur.**

**Türk Dünyası Həftəsi müxtəlif formatda silsilə tədbirləri ilə parlaq tarixi-mənəvi irsimizin yaşadılmasına, öyrənilməsinə və təbliğinə töhfələr verəcək, mədəni həyatımızın əlamətdar hadisələri sırasında özünəməxsus layiqli yer tutacaq və yaddaşlarda silinməz iz qoyacaqdır.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Azərbaycanda rəqəmsal keçid sürətli mərhələyə daxil olur




Səhifə ⇨ 7

## Dövlətin aqrar sığorta dəstəyi genişlənir




Səhifə ⇨ 7

## Ərazi iddiaları münaqişələr üçün “hüquqi əsas” ola bilər

### *Ermənistanda konstitusiya islahatı regionda etimad mühitinin formalaşmasının əsas şərtidir*

**Azərbaycan və Ermənistan arasında sülhün əldə olunması üçün rəsmi Bakının irəli sürdüyü əsas şərtlərdən biri Ermənistan konstitusiyasının mətnində dəyişiklik edilməsidir. Bakı İrəvandan Əsas Qanunun preambulasından Azərbaycanın ərazi bütövlüyünə qarşı aşkar iddiaları ehtiva edən Müstəqillik Bəyannaməsinə istinadın çıxarılmasını tələb edir. Lakin həmin tələb erməni ictimai-siyasi dairələrində, həmçinin Qərbin müəyyən hissəsində fövqəladə hal, hətta beynəlxalq diplomatik etiket qaydalarından kənar davranış kimi qələmə verilir. Halbuki beynəlxalq hüquq və Avropa dövlətlərinin müasir siyasi tarixi fərqli reallığı ortaya qoyur.**




Hüquq elmində və beynəlxalq münasibətlər nəzəriyyəsində konstitusiyanın dövlətin ali qanunvericilik aktı olması aksiomdur. Konstitusiya dövlətin bütün daxili və xarici öhdəliklərinin hüquqi çərçivəsini müəyyənləşdirir. Hər hansı beynəlxalq müqavilə, hətta sülh sazişi belə, Əsas Qanuna zidd olduğu təqdirdə hüquqi qüvvədən məhrum edilə bilər. Ermənistanın hüquq sistemində də konstitusiya məhkəməsi beynəlxalq müqavilələrin qanuna uyğunluğunu yoxlayır. Əgər Ermənistanın Əsas Qanununun preambulasında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar saxlanılarsa, gələcəkdə imzalanacaq hər hansı sülh sazişi asanlıqla qüvvədən düşmüş elan oluna bilər. Çünki konstitusiya normaları sülh sazişinin müddəalarından üstün tutulur. Həmin ziddiyyət gələcək revanşizm üçün hüquqi zəmin yaradır.

*(ardı 4-cü səhifədə)*

## Zəmilərdən 1,6 milyon tondan çox taxıl yığılıb



Səhifə ⇧ 7

## Milli Məclisin növbəti iclası



Səhifə ⇨ 3

## Azərbaycan mərkəzli yeni tərəfdaşlıq

*Orta Dəhliz daha geniş əməkdaşlıq əlaqələri formalaşdırır*



**Geosiyasi və iqtisadi proseslərin sürətlə dəyişdiyi bir dövrdə Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında əməkdaşlıq yeni strateji məzmun qazanır. Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Qazaxıstana rəsmi səfəri və Astana ilə Tbilisi arasında imzalanan strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə bu tendensiyanın nəticəsidir. Sənəd yalnız 2 ölkə arasında münasibətlərin yeni mərhələyə yüksəldiyini göstərmir, həm də Orta Dəhliz boyunca formalaşan yeni iqtisadi və nəqliyyat arxitekturasının əhəmiyyətini təsdiqləyir.**

*(ardı 3-cü səhifədə)*

## Moskvanın “ixrac gülləsi” hədəfə çatmadı



Səhifə ⇨ 4

## İrəvanda müxalifətin konsolidasiyası



Səhifə ⇨ 5

## Ermənistan vətəndaşlarının şikayətləri üzrə apellyasiya məhkəməsi davam etdirilib



Səhifə ⇨ 5

## Beyləqanda torpağın yeni dövranı



Səhifə ⇨ 8

# Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” 2001-ci il 30 iyun tarixli 518 nömrəli, “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının emblemi haqqında Əsasnamənin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının embleminin təsvirinin təsdiq edilməsi barədə” 2002-ci il 11 mart tarixli 676 nömrəli, “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi Şurası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2009-cu il 22 may tarixli 96 nömrəli və “Azərbaycan Respublikasının daxili qoşunları haqqında” Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 303-VIIQ nömrəli Qanununun tətbiqi barədə” 2025-ci il 25 dekabr tarixli 558 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 416 (Cild I); 2024, № 5 (I kitab), maddələr 521, 529, № 12 (II kitab), maddə 1369; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 14 aprel tarixli 642 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.3-cü bəndin ikinci abzasından “tədris,” sözü çıxarılsın;

1.2. 3.1-ci bənd üzrə:

1.2.1. 3.1.23-cü yarımbənddə “və sayı” sözləri “, ali hərbi rütbəli vəzifələrin siyahısı və ümumi say tərkibi” sözləri ilə əvəz edilsin;

1.2.2. 3.1.25-ci yarımbəndə ikinci halda “fövqəladə” sözündən sonra “vəziyyətin, habelə sosial xarakterli fövqəladə mühit rejiminin tətbiqinə səbəb olmuş” sözləri əlavə edilsin;

1.3. 5.3-cü bənd üzrə:

1.3.1. 5.3.7-ci yarımbəndə “vəzifələrinin” sözündən sonra “(ali hərbi və ali xüsusi rütbəli vəzifələr istisna olmaqla)” sözləri əlavə edilsin;

1.3.2. aşağıdakı məzmunda 5.3.11-2-ci yarımbənd əlavə edilsin:

“5.3.11-2. daxili qoşunların hərbi hissələrinin daimi yerləşdiyi ərazilərdən kənarda fəaliyyətinə dair qərar verir;”;

1.3.3. 5.3.13-cü yarımbənddə “heyət rütbələrinin” sözləri “xüsusi rütbələrin” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 mart tarixli 676 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 126 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının emblemi haqqında Əsasnamə”nin 2-ci və 4-cü hissələrində “tədris mərkəzinin” sözləri “xüsusi təyinatlı təhsil müəssisələrinin” sözləri ilə əvəz edilsin.

**3.** “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi Şurası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 may tarixli 96 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 328 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. preambulada “Daxili qoşunların statusu” sözləri “Azərbaycan Respublikasının daxili qoşunları” sözləri ilə, “12-ci” sözləri “6.1.7-ci” sözləri ilə əvəz edilsin;

3.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi Şurası haqqında Əsasnamə”nin 1-ci hissəsində “Daxili qoşunların statusu” sözləri “Azərbaycan Respublikasının daxili qoşunları” sözləri ilə əvəz edilsin.

**4.** “Azərbaycan Respublikasının daxili qoşunları haqqında” Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 303-VIIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 dekabr tarixli 558 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 12 (I kitab), maddə 1149) 1.8-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.8.1-ci yarımbənddə “və 6.1.8-ci” sözləri “, 6.1.8-ci və 6.1.13-cü” sözləri ilə əvəz edilsin;

4.2. 1.8.3-cü yarımbənddə “6.1.11 – 6.1.22-ci” sözləri “6.1.11-ci, 6.1.12-ci və 6.1.14–6.1.22-ci” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 30 iyun 2026-cı il**

# Venesuela Bolivar Respublikasının Prezidenti vəzifəsini icra edən Zati-aliləri xanım Delsi Rodriqesə

**Zati-aliləri!**

Venesuelada baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Venesuela xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 30 iyun 2026-cı il**

# Xarici İşlər Nazirliyi xəbər verir



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru Katrin Bomberger ilə görüşüb.**

Görüş zamanı Azərbaycan ilə ICMP arasında əməkdaşlıq gündəliyi, münaqişədənsonrakı dövrdə itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi istiqamətində həyata keçirilən fəaliyyət, habelə bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyəti müzakirə olunub.

Nazir Ceyhun Bayramov Ermənistanın hərbi təcavüzü nəticəsində təxminən 4 minə yaxın azərbaycanlının taleyinin bu günədək naməlum qaldığını diqqətə çatdıraraq, itkin düşmüş şəxslər məsələsinin Azərbaycan üçün prioritet humanitar istiqamətlərdən biri olduğunu vurğulayıb.

Görüşdə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə ICMP arasında formalaşmış faydalı tərəfdaşlıq yüksək qiymətləndirilərək, bu əməkdaşlığın itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi, identifikasiya imkanlarının gücləndirilməsi və beynəlxalq təcrübənin tətbiqi baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb.

Nazir Ceyhun Bayramov Azərbaycan tərəfinin 44 günlük Vətən müharibəsindən sonra humanitar öhdəliklərinə sadiq qalaraq, mürəkkəb təhlükəsizlik şəraitinə və mina təhlükəsinə baxmayaraq, genişmiqyaslı axtarış işləri həyata keçirdiyini, aşkarlanmış 2 mindən artıq erməni hərbçisinin cəsədini qarşı tərəfə təhvil verdiyini diqqətə çatdırıb.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran regional məsələlər və ICMP-nin digər ölkələrdə fəaliyyət istiqamətləri barədə fikir mübadiləsi aparıblar.

*

**İyunun 30-da xarici işlər naziri Ceyhun Bayramov ilə Qazaxıstanın xarici işlər naziri Yermek Koşerbayev arasında telefon danışığı olub.**




Telefon danışığı zamanı Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlıq münasibətlərinin gündəliyində duran məsələlər, ikitərəfli və çoxtərəfli əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə olunub. Nazirlər beynəlxalq və regional təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq və qarşılıqlı dəstəyin əhəmiyyətini vurğulayaraq, çoxtərəfli platformalarda əlaqələndirilmiş fəaliyyətin bundan sonra da davam etdirilməsinin vacibliyini qeyd ediblər.

Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə sədrliyi çərçivəsində həyata keçirilən tədbirlər və qarşıdakı təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Azərbaycanda keçirilən Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsində Qazaxıstanın yüksək səviyyədə təmsil olunmasını məmnunluqla qeyd edib.

***XQ***

# “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Esvatini Krallığının İnformasiya, Kommunikasiyalar və Texnologiya Nazirliyi arasında dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl mexanizminin yaradılması sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu”nun təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2026-cı il mayın 19-da Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Esvatini Krallığının İnformasiya, Kommunikasiyalar və Texnologiya Nazirliyi arasında dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl mexanizminin yaradılması sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Esvatini Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 30 iyun 2026-cı il**

# “Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 avqust tarixli 491 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi, Fərmanının və bəzi sərəncamlarının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 23 fevral tarixli 604 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

“Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 405 (Cild I); 2026, № 2, maddə 123; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 aprel tarixli 648 nömrəli Fərmanı) I hissəsinin on birinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda on ikinci abzas əlavə edilsin:

“Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi tərəfindən mühafizə olunan şəxslərin və qorunan strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış fəaliyyətini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti həyata keçirir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 30 iyun 2026-cı il**

# Azərbaycanda rəqəmsal keçidin hədəfləri




**Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı Daimi Komitəsinin iyunun 25-28-də Monqolustanın paytaxtı Ulan-Batorda keçirilən 45-ci iclasının “Rəqəmsal dövrdə Asiya transformasiyası: süni intellektin yaratdığı çağırışlar” mövzusuna həsr olunmuş xüsusi sessiyasında videoformatda iştirak edib.**

YAP Sədrinin müavini bildirib ki, Azərbaycan rəqəmsal transformasiyanı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edib, elektron xidmətlərin və süni intellekt texnologiyalarının tətbiqini genişləndirir. Prezident İlham Əliyevin təsdiqlədiyi “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası” ölkədə süni intellekt ekosisteminin inkişafı, innovasiyaların təşviqi, elmi tədqiqatların genişləndirilməsi və yüksəkixtisaslı kadrların hazırlanmasını nəzərdə tutur.

T.Budaqov diqqətə çatdırıb ki, süni intellekt və rəqəmsal transformasiya siyasi partiyalar qarşısında da yeni vəzifələr müəyyən edir. Yeni Azərbaycan Partiyası da süni intellektin tətbiqi imkanlarını öyrənir və bu istiqamətdə müzakirələrin genişləndirilməsinə xüsusi önəm verir.

***XQ***

# Bakıda “Təmiz idman uğrunda” forumu



**İyunun 30-da Bakıda Gənclər və İdman Nazirliyi, Milli Antidopinq Agentliyi (AMADA) və Azərbaycan İdman Akademiyasının (ASA) təşkilatçılığı, UNESCO-nun İdmanda dopinqə qarşı Beynəlxalq Konvensiyasının tərəfdaşlığı ilə “Təmiz idman uğrunda” forumu keçirilib.**

“İdmanda dürüstlük, ədalətli oyun və dopinqlə mübarizə” şüarı ilə keçirilən forumun açılış mərasimində UNESCO-nun İdmanda dopinqə qarşı Beynəlxalq Konvensiyasına Tərəflər Konfransının 10-cu Sessiyasının (COP10) sədri, gənclər və idman naziri Fərid Qayıbov, UNESCO-nun sosial siyasət və inklüzivlik üzrə direktoru Qustavo Merino, İdmanda dopinqə qarşı Beynəlxalq Konvensiyanın icraçı katibi, Türkiyənin gənclər və idman nazirinin müavini, COP10 Bürosunun məruzəçisi Safa Koçoğlu Gürsoy və ASA-nın rektoru Fuad Hacıyev çıxış ediblər.

Tədbirin əsas məqsədi təmiz idman prinsiplərinin təşviqi, ədalətli rəqabət mühitinin qorunması, idmançıların sağlamlığının və hüquqlarının müdafiəsi, eləcə də antidopinq sahəsində maarifləndirmənin gücləndirilməsidir. Bununla yanaşı, idman mühitində məsuliyyətli yanaşmanın formalaşdırılması və təmiz idman dəyərlərinin geniş şəkildə təbliği tədbirin əsas məqsədlərindəndir.

Forum işini “Qlobal antidopinq sisteminin iş prinsipləri: WADA, UNESCO Konvensiyası və beynəlxalq əməkdaşlıq mexanizmləri” adlı sessiya ilə davam etdirib.

***XQ***

# Milli Məclisin növbəti iclası

## *Bəzi qanunlarda tələb və qadağalar sərtləşdirilir*

**İyunun 30-da Milli Məclisin növbədənkənar sessiyasının plenar iclası keçirildi. Gündəliyə 14 məsələ daxil edilmişdi. İlk olaraq "Metrik Konvensiya"ya qoşulmaq haqqında qanun layihəsi müzakirəyə çıxarıldı. Layihəyə əsasən, 1875-ci il mayın 20-də Parisdə imzalanmış "Metrik Konvensiya"ya ölkəmiz də qoşulur. Sözügedən konvensiya ölçü vahidlərinin beynəlxalq səviyyədə vahidləşdirilməsi məqsədilə qəbul edilmiş əsas beynəlxalq müqavilələrdən biridir.**

Sənəd əsasında Beynəlxalq Ölçülər və Çəkilər Bürosu yaradılıb və hazırda dünyada ölçmələrin dəqiqliyinin, vahid standartların və Beynəlxalq Vahidlər Sisteminin tətbiqinin əsas hüquqi bazasını təşkil edir. "Metrik Konvensiya"ya qoşulmaq haqqında qanun layihəsi səsverməyə çıxarılaraq bir oxunuşda qəbul edildi.

Sonra "2025-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi III oxunuşa çıxarıldı. Maliyyə naziri Sahil Babayev layihə ətrafında çıxış etdi. Nazir büdcədə yaranmış profisiti belə əsaslandırdı: "Ötən il büdcənin gəlirləri 39 milyard 184,6 milyon manat təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 5,4 faiz, proqnozdan isə 2,2 faiz çoxdur. Büdcənin xərcləri isə 38 milyard 604,6 milyon manat olub ki, bu da illik müqayisədə 2,4 faiz çox, proqnozdan isə 6,8 faiz azdır.

İl ərzində büdcənin profisiti 580 milyon manat və yaxud ÜDM-in 0,45 faizini təşkil edib. Profisitin yaranmasına səbəb büdcəyə daxilolmalar üzrə proqnozun artıqlaması ilə təmin edilməsi, eləcə də büdcə təşkilatlarının öz xərclərini proqnozdan 2 milyard 803 milyon manat az icra etməsi ilə bağlı olub".

*

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda edilmiş dəyişikliklərlə bağlı qanun layihəsi müzakirəyə çıxarıldı. Layihəyə əsasən, 16 yaşı tamam olmamış şəxslərin platformada fərdi rəqəmsal hesablarının yaradılmasına yol verilmir. Platforma provayderləri tərəfindən dövlət qurumlarına bu barədə tələb olunan məlumatların vaxtında verilməməsinə və ya sorğuların 5 iş günü ərzində cavablandırılmamasına görə vəzifəli şəxslər 6 000 – 8 000 manat, hüquqi şəxslər isə 15 000 – 30 000 manatadək cərimələnəcək.

Bununla yanaşı, platformalarda təhlükəsizlik tədbirlərinin, o cümlədən yaşın yoxlanılması üçün texniki üsulların tətbiq edilməməsinə, azyaşlıların fərdi




məlumatlarının reklam və kommersiya məqsədilə istifadəsinə, həmçinin zərərli məzmunların 24 saat ərzində silinməməsinə görə daha ağır sanksiyalar müəyyən edilib. Bu növ qayda pozuntularına görə vəzifəli şəxsləri 8 000 – 9 000 manat, hüquqi şəxsləri isə 35 000 – 40 000 manatadək cərimə gözləyir. Eyni xətalar bir il ərzində təkrar törədildiyi halda hüquqi şəxslər üçün cərimənin məbləği 50 000 manata qədər yüksələ bilər. Layihə səsvermələrdən sonra üçüncü oxunuşda qəbul edildi. Yeni qanun dərc edildiyi gündən 12 ay sonra qüvvəyə minəcək.

"Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanuna təklif edilən dəyişikliklər layihəsi də son oxunuşda qəbul edildi. Yeni layihəyə əsasən, məcburi köçkünlərlə bağlı sosial dəstək mexanizmləri mərhələli şəkildə yeni modelə keçirilir. Hazırda əvvəlki yaşayış yerlərinə qayıtmaq üçün şəraitin yarandığı vaxtdan hesablanan 3 illik sosial müdafiə müddəti, yeni qaydaya görə, şəxslərin məcburi köçkün statusunu rəsmən itirdikləri gündən etibarən tətbiq olunacaq. Dəyişikliklərlə həmçinin məcburi köçkünlərin müstəqil şəkildə müvəqqəti məskunlaşması zamanı başqalarının hüquqları pozulduğu halda, onların mütləq "eyni yaşayış məntəqəsi daxilində" köçürülməsi şərti ləğv edilir. Bundan sonra icra qurumları onlara birbaşa başqa yaşayış sahəsi təklif edəcəklər.

*

İkinci oxunuşa təqdim edilən "Normativ hüquqi aktlar haqqında", "Dövlət qulluğu haqqında" və "Media haqqında", "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "İctimai iştirakçılıq haqqında" və "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" və "Ümumi təhsil haqqında" qanun layihələrində ilk oxunuşda səsləndirilmiş fikirlər təsdiqləndi və son oxunuşa göndərilmək üçün müzakirəyə çıxarılaraq qəbul edildi.

"Psixiatriya yardımı haqqında" qanuna təklif edilən dəyişikliklərə əsasən, psixi sağlamlıq və müalicədən imtina ilə bağlı məlumatların vahid elektron sağlamlıq kartı sistemində saxlanılması və sistem vasitəsilə əldə edilməsi nəzərdə tutulur. Eyni zamanda, psixi pozuntu vəziyyətində olan şəxsin özünün və ya ətrafındakıların təhlükəsizliyini qorumaq məqsədilə, onun və ya qanuni nümayəndəsinin razılığı olmadan da psixiatriya müayinəsinin aparılmasına dair yeni hüquqi mexanizmlər yaradılır.

Dəyişikliklərlə, həmçinin məhkəmə qərarınadək qeyri-könüllü psixiatriya stasionarına yerləşdirilmə barədə qərar qəbul edildikdə, həmin şəxsin yaxın qohumlarının, qanuni nümayəndələrinin, prokurorun və aidiyyəti vəzifəli şəxslərin dərhal məlumatlandırılması tələbi qoyulur. Bundan başqa, tibbi xarakterli məcburi tədbirlərə cəlb edilmiş və təhlükə yaradan şəxslərin digər pasiyentlərdən təcrid olunaraq müalicə edilməsi, eləcə də məcburi hospitalizasiya zamanı təhlükəsizlik tədbirlərinin gücləndirilməsi ilə bağlı qanuna yeni müddəalar əlavə edilir.

Qanun layihəsinin müzakirəsi zamanı çıxış edən İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirdi ki, dəyişiklik siyasi məqsəd daşımır və cəmiyyətin təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Onun sözlərinə görə, ağır psixi böhran keçirən, özünə və ya ətrafındakılara təhlükə yaradan şəxslərlə bağlı dövlətin müdaxilə etməməsi məsuliyyətdən yayınmaq anlamına gələ bilər: "Psixi pozuntunun olub-olmamasını yalnız həkim-psixiatr müəyyən edir, qeyri-könüllü hospitalizasiya isə məhkəmənin qərarı ilə həyata keçirilə bilər. Ümumiyyətlə, oxşar mexanizmlər Böyük Britaniya və Fransa kimi demokratik ölkələrin qanunvericiliyində də mövcuddur. Həmin ölkələrdə təcili hallarda inzibati orqanların təşəbbüsü ilə psixiatriya müayinəsi başlanıla bilər, lakin yekun tibbi qərarı müstəqil həkimlər verir". Qanun layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi.

*

Onlayn qumar oyunlarının təşkili və keçirilməsinə görə cəzaların sərtləşdirilməsini nəzərdə tutan Cinayət Məcəlləsinə dəyişiklik layihəsi müzakirəyə çıxarıldı. Yeni layihəyə əsasən, qumar oyunlarının internet, mobil tətbiqlər və sosial şəbəkələr üzərindən virtual formada təşkili, həmçinin bu prosesə azyaşlıların cəlb edilməsi və xeyli miqdarda gəlir əldə olunması hallarına görə cinayət məsuliyyəti gücləndirilir. Cari qanunvericilikdə 10-15 min manat olan sabit cərimə əvəzinə, bundan sonra qanunsuz fəaliyyətdən əldə edilmiş gəlirin iki mislinədək cərimə tətbiq olunacaq, eləcə də 2 ildən 4 ilədək azadlığın məhdudlaşdırılması və ya azadlıqdan məhrumetmə cəzası veriləcək.

Əməlin mütəşəkkil dəstə tərəfindən törədilməsi və külli miqdarda gəlir gətirməsi halında isə cəza müddəti 3 ildən 5 ilədək azadlıqdan məhrumetmə ilə əvəzlənəcək. Layihədə, həmçinin qumar oyunlarının təşkili, keçirilməsi və ya qumarxana saxlanılması əməllərinin təkrar törədilməsinə görə də sanksiyalar ağırlaşdırılır. Mövcud qanundakı 4 ildən 8 ilədək azadlıqdan məhrumetmə cəzasının alt və üst həddi dəyişdirilərək, bu növ cinayətlərə görə birbaşa 5 ildən 8 ilədək müddətə həbs cəzasının verilməsi təklif olunur.

Bununla da parlamentin plenar iclası sona çatdı.

***Tacir SADIQOV***
***XQ***

# Azərbaycan mərkəzli yeni tərəfdaşlıq





*(əvvəli 1-ci səhifədə)*

İlk baxışdan bu, Qazaxıstan və Gürcüstan arasında ikitərəfli münasibətlərin inkişafı kimi görünə bilər. Lakin prosesə daha geniş bucaqdan yanaşdıqda aydın olur ki, söhbət təkcə Astana ilə Tbilisi arasında əməkdaşlıqdan getmir. Bu strateji yaxınlaşmanın əsasını Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) təşkil edir. Həmin marşrutun mərkəzi halqası isə Azərbaycandır.

Çindən Avropaya uzanan Orta Dəhliz son illər qlobal tədarük zəncirlərinin şaxələndirilməsində mühüm alternativə çevrilib. Bu marşrutun səmərəli fəaliyyəti Azərbaycanın yaratdığı müasir nəqliyyat infrastrukturu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu və ölkənin tranzit-logistika imkanları sayəsində mümkün olur. Məhz buna görə də Astana ilə Tbilisi arasında formalaşan strateji tərəfdaşlıq dolayısı ilə Azərbaycanın Avrasiyanın əsas nəqliyyat və logistika qovşaqlarından biri kimi mövqeyini möhkəmləndirir.

Orta Dəhliz, sadəcə, nəqliyyat xətti deyil, yeni geoiqtisadi platforma kimi qiymətləndirilir. Bu platformanın bünövrəsi isə Azərbaycandır. Çünki Qazaxıstandan Xəzər vasitəsilə daşınan yüklər ilk olaraq Azərbaycanın limanlarına çatır, daha sonra Bakı–Tbilisi–Qars dəmir yolu və digər nəqliyyat infrastrukturu vasitəsilə Gürcüstan limanlarına, oradan isə Avropaya yönləndirilir. Başqa sözlə, Orta Dəhlizin fasiləsiz fəaliyyəti Azərbaycanın yaratdığı müasir nəqliyyat infrastrukturu və tranzit imkanları olmadan mümkün deyil.

Məhz buna görə də Tokayev və Kobaxidze arasında danışıqlarda Orta Dəhliz ön plana çıxıb. Tərəflər yükdaşımaların artırılması, vahid tarif siyasətinin tətbiqi, logistika proseslərinin rəqəmsallaşdırılması və əlavə yük axınlarının cəlb olunması istiqamətində əməkdaşlığın genişləndirilməsini razılaşdırıblar. Bu, vacib amildir. Çünki müxtəlif ölkələrin nəqliyyat və logistika sistemlərinin uzlaşdırılması daşımaların səmərəliliyini artırır, marşrutun rəqabət qabiliyyətini gücləndirir və daha sabit qiymət mühiti formalaşdırır. Hazırda əsas çağırışlardan biri tranzit xərclərində ölkələr üzrə fərqli yanaşmaların yaratdığı dəyişkənlikdir ki, bu da Orta Dəhlizin cəlbediciliyinə təsir göstərir. Buna görə vahid və koordinasiya olunmuş tarif mexanizmi, şəffaf tranzit ödənişləri və qiymət sabitliyi əsas prioritetlərdir. Bakı dəfələrlə bu istiqamətdə açıqlamalar verib. Bildirib ki, marşrutun effektivliyi onun keçdiyi ölkələrin vahid sistem kimi fəaliyyət göstərməsindən birbaşa asılıdır. Bu da onu göstərir ki, Orta Dəhliz yalnız infrastruktur layihəsi deyil, regional iqtisadi inteqrasiyanın əsas sütunlarından biridir. Son 5 ildə yükdaşımaların 3 dəfədən çox artması və 2029-cu ilədək ildə 3 min konteyner qatarı hədəfi bu marşrutun strateji əhəmiyyətini təsdiqləyir.

Bu hədəflərin reallaşması isə Azərbaycanın həyata keçirdiyi genişmiqyaslı nəqliyyat və logistika layihələri ilə bağlıdır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının genişləndirilməsi, Bakı–Tbilisi–Qars dəmir yolunun tam gücü ilə işləməsi, rəqəmsal gömrük sistemlərinin tətbiqi və tranzit prosedurlarının sadələşdirilməsi Azərbaycanın regionun əsas logistika mərkəzlərindən birinə çevrilməsini təmin edib. Nəticədə Qazaxıstanın ixrac yüklərinin Avropa bazarlarına çıxışında Azərbaycan əsas tranzit ölkələrdən biri kimi strateji rol oynayır.

Qazaxıstanın Gürcüstandakı səfiri Malik Murzalinin açıqlamaları da bunu təsdiqləyir. Onun sözlərinə görə, Qazaxıstan və Gürcüstanı yaxınlaşdıran əsas amil Orta Dəhlizdir. Lakin bu marşrutun xəritəsinə nəzər saldıqda görünür ki, tərəfdaşlığın praktiki reallaşması Azərbaycanın tranzit imkanlarından birbaşa asılıdır. Bu baxımdan Astana ilə Tbilisi arasında strateji tərəfdaşlığın möhkəmlənməsi dolayısı ilə Azərbaycanın regional nəqliyyat sistemindəki mövqeyini də gücləndirir.

Siyasi baxımdan da proses diqqət çəkir. Son ilyarım ərzində Tokayev və Kobaxidze 5 dəfə görüşüblər. Bu intensiv dialoq Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında yeni əməkdaşlıq modelinin formalaşdığını göstərir. Həmin modelin mərkəzində isə Azərbaycan yerləşir. Çünki həm enerji, həm də nəqliyyat marşrutları baxımından regionun əsas bağlantı nöqtəsi məhz Azərbaycandır.

İqtisadi əməkdaşlığın genişləndirilməsi də danışıqların əsas istiqamətlərindəndir. Qarşılıqlı investisiyaların artırılması, ticarət dövriyyəsinin genişləndirilməsi və yeni bazarlara çıxış imkanları müzakirə edilib. Qazaxıstan Gürcüstan iqtisadiyyatına yarım milyard dollardan artıq sərmayə yatırıb, Gürcüstanın Qazaxıstana investisiyaları isə son bir ildə rekord həddə artıb və 312 milyon dollara yüksəlib. Bununla yanaşı, enerji əməkdaşlığı da inkişaf edir. Tokayev Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri vasitəsilə Qazaxıstan neftinin nəqlinin artırılacağını bəyan edib. Bu isə bir daha göstərir ki, regionun enerji təhlükəsizliyi məsələsində də Azərbaycanın infrastrukturu əsas rol oynayır.

Qazaxıstanın Batumi Neft Terminalına və limanına sahib olması, Poti limanında multimodal terminal layihəsində iştirakı, Anakliya limanına maraq göstərməsi də eyni strategiyanın tərkib hissəsidir. Lakin bütün bu layihələr yalnız Azərbaycanın nəqliyyat şəbəkəsi ilə inteqrasiya olunduğu halda tam iqtisadi səmərə verir.

İrakli Kobaxidzenin Qazaxıstana rəsmi səfəri zamanı turizm, informasiya texnologiyaları, rəqəmsal idarəetmə və süni intellekt sahələrində əməkdaşlığa dair memorandumların imzalanması göstərir ki, strateji tərəfdaşlıq yalnız tranzit və ticarətlə məhdudlaşmır. Bununla belə, bütün bu əməkdaşlığın iqtisadi əsasını regional bağlantılar təşkil edir.

Mövzu ilə bağlı **siyasi şərhçi Mübariz Göyüşlü** XQ-yə bildirdi ki, mövcud geosiyasi durumda Avropa İttifaqının, Mərkəzi Asiya ölkələri və Çin kimi iri iqtisadi aktorların Orta Dəhlizə marağının artması Azərbaycanın rolunu daha da aktuallaşdırır: "Bakı artıq yalnız tranzit ölkəsi deyil, müxtəlif regionları birləşdirən logistika,



enerji və ticarət platformasının koordinasiya mərkəzidir. Gürcüstan və Qazaxıstan arasında imzalanan strateji tərəfdaşlıq sənədi də bu reallığın növbəti təsdiqidir".

Şərhçinin sözlərinə görə, Astana və Tbilisi arasında formalaşan yeni münasibətlər modeli yalnız ikitərəfli əməkdaşlıq nümunəsi deyil: "Bu, Azərbaycanın təşəbbüsü və iştirakı ilə inkişaf edən Orta Dəhlizin ətrafında formalaşan regional inteqrasiya sisteminin növbəti mərhələsidir. Məhz Azərbaycanın yaratdığı nəqliyyat, logistika və enerji infrastrukturu Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında strateji tərəfdaşlıqların real iqtisadi məzmun qazanmasına imkan verir. Bu amil isə ölkəmizin Avrasiyanın yeni geosiyasi xəritəsində aparıcı tranzit və əlaqələndirici dövlət kimi mövqeyini daha da möhkəmləndirir".

***P.ƏFƏNDİYEV***
***XQ***

# Ərazi iddiaları münaqişələr üçün "hüquqi əsas" ola bilər

*(əvvəli 1-ci səhifədə)*

Ermənistan konstitusiyasının daxili ziddiyyətlərini anlamaq üçün onun preambula hissəsinə nəzər salmaq lazımdır. Qüvvədə olan Əsas Qanunun preambulasında Ermənistan dövlətinin Müstəqillik Bəyannaməsində təsbit olunmuş ümummilli prinsiplərə sadiq qaldığı bəyan edilir. 1990-cı il avqustun 23-də qəbul edilmiş Müstəqillik Bəyannaməsində isə Qarabağın Ermənistana birləşdirilməsi barədə Ermənistan SSR Ali Sovetinin və DQMV Milli Şurasının müştərək qərarına istinad yer alır. Beləliklə, Ermənistanın mövcud konstitusiyası aşkar şəkildə Azərbaycan ərazisinə qarşı iddiaları rəsmi səviyyədə yaşadır. Həmin müddəa qonşu dövlətin suverenliyinə hörmət prinsipini tamamilə pozur. Azərbaycanın rəsmi mövqeyi isə ondan ibarətdir ki, Əsas Qanunda qonşu ölkəyə qarşı iddiaların saxlanılması sülh prosesinə ciddi maneədir. Sülh sarsılmaz hüquqi öhdəliklərlə möhkəmlənməlidir. Ermənistanın siyasi rəhbərliyinin konstitusiyanı dəyişmədən sülh sazişi imzalamaq cəhdləri etimad mühitinin formalaşmasına mane olur.

Qərb ritorikasında Bakının tələbini fövqəladə hal kimi təqdim edənlər, əslində, Avropa dövlətlərinin müasir tarixinə dərindən bələd olmayanlardır. Konstitusiyada yer alan ərazi iddialarının aradan qaldırılması sülh sazişinin imzalanması üçün əsas şərt kimi beynəlxalq diplomatik praktikada çoxdan sınaqdan çıxıb. Həmin yanaşma hazırkı Ermənistandan daha güclü demokratik ənənələrə sahib dövlətlər tərəfindən tətbiq olunub. Bunun ən bariz nümunəsi İrlandiya Respublikasının təcrübəsidir. Uzun illər İrlandiya Konstitusiyasının ikinci və üçüncü maddələrində bütün İrlandiya adası, o cümlədən Böyük Britaniyanın tərkib hissəsi sayılan Şimali İrlandiya üzərində aşkar ərazi iddiaları əksini tapırdı. Həmin konstitusion müddəalar sıradan bəyanat sayılmırdı. Məhz həmin maddələrə əsaslanaraq adanın qovuşması uğrunda silahlı mübarizəni qanuniləşdirən qruplar fəaliyyət göstərirdi. Həmin vəziyyət onilliklər ərzində minlərlə insanın həyatına son qoyan münaqişəyə rəvac verirdi.

*

1998-ci ildə bu qarşıdurmaya son qoymaq məqsədilə Belfast Sazişi imzalanarkən Londonun irəli sürdüyü əsas şərtlərdən başlıcası məhz həmin maddələrin dəyişdirilməsi tələbi idi. Böyük Britaniya rəsmi surətdə tələb edirdi ki, Dublin qonşusunun ərazisinə qarşı konstitusion iddialarına son qoysun. İrlandiya rəhbərliyi




və cəmiyyəti həmin tələbi milli ləyaqətin alçaldılması və ya diktə kimi qəbul etmədi. 1998-ci il mayın 22-də İrlandiyada keçirilən ümumxalq referendumunda seçicilərin 94 faizindən çoxu konstitusiyanın dəyişdirilməsinə səs verdi. Nəticədə ikinci və üçüncü maddələrdəki ərazi iddiaları ləğv olundu. Həmin müddəaların əvəzinə yalnız dinc vasitələrlə, Şimali İrlandiya əhalisinin əksəriyyətinin könüllü razılığı əsasında vahid dövlət qurmaq məqsədi təsbit edildi.

Eyni dərəcədə əhəmiyyətli digər nümunə Şimali Makedoniya dövlətinin təcrübəsidir. Keçmiş Yuqoslaviya dağıldıqdan sonra müstəqillik qazanan Makedoniya Respublikası qonşu Yunanıstan ilə ciddi diplomatik böhran yaşayırdı. Afina bəyan edirdi ki, müstəqil dövlətin adının sadəcə Makedoniya olması gələcəkdə Yunanıstanın şimal rayonlarına qarşı gizli ərazi iddialarının mövcudluğuna dəlalət edir. Həmçinin yunan tərəfi qonşusunun konstitusiyasında yer alan bəzi maddələrin irredentist xarakter daşıdığını iddia edirdi. Yunanıstanın təzyiqləri nəticəsində Makedoniya uzun illər beynəlxalq təşkilatlara üzv ola bilmədi, iqtisadi və siyasi blokada ilə üzləşdi. Münaqişənin həlli yalnız 2018-ci ildə imzalanan Prespa Sazişi sayəsində mümkün oldu. Sazişə əsasən, rəsmi Skopye Əsas Qanununda əsaslı dəyişikliklər aparmağa razılıq verdi. 2019-cu ilin əvvəlində ölkənin konstitusion adı Şimali Makedoniya Respublikası olaraq dəyişdirildi. Həmçinin konstitusiyanın preambulasından və digər maddələrindən qonşu dövlətlərin suverenliyinə təhlükə yarada biləcək tarixi və ərazi iddiası çıxarıldı.

Almaniyanın bütövləşməsi prosesində həyata keçirilən konstitusion düzəlişlər də beynəlxalq hüquq və sülh quruculuğunun ən diqqətçəkən hadisələrindəndir. Almaniya Federativ Respublikasının 1949-cu il Əsas Qanununun 23-cü maddəsi digər alman torpaqlarının federasiyaya daxil olmasına imkan verən hüquqi prosesi ehtiva edirdi. Lakin 1990-cı ildə Almaniyanın bütövləşməsi ərəfəsində beynəlxalq ictimaiyyət, xüsusən də Polşa, yeni yaranacaq böyük dövlətin gələcəkdə tarixi torpaqlar iddiası irəli sürəcəyindən ciddi narahatlıq keçirirdi. Polşa rəhbərliyi bəyan edirdi ki, Almaniya konstitusiyasında digər ərazilərin federasiyaya qoşulması mexanizminin qalması Şərqi Avropanın təhlükəsizliyinə təhdiddir. Almaniya rəsmi surətdə bildirdi ki, onun heç bir qonşu dövlətə qarşı ərazi iddiası yoxdur və gələcəkdə də olmayacaq. Həmin vədi hüquqi cəhətdən möhkəmləndirmək üçün rəsmi Bonn Əsas Qanunda köklü islahatlar etdi. Almaniyanın bütövləşməsinə dair müqavilə çərçivəsində preambula dəyişdirilərək alman xalqının bütövlüyünün tam başa çatdığı təsbit olundu.

Avropanın inkişaf etmiş dövlətlərinin sülh naminə konstitusiya dəyişikliklərinə getməsi göstərir ki, Azərbaycanın Ermənistandan konstitusiyasını dəyişmək tələbi tamamilə normal beynəlxalq praktikadır. Azərbaycan yeni presedent yaratmır, sadəcə, Avropanın dəfələrlə keçdiyi yolu təkrar edir. Lakin Ermənistanın daxili siyasi mühitində rəsmi Bakının tələbinə qarşı güclü müqavimət müşahidə olunur. Erməni müxalifəti və revanşistlər Əsas Qanunun dəyişdirilməsini milli ləyaqətin alçaldılması kimi təqdim etməyə çalışır. Həmin yanaşma Ermənistanın hələ də beynəlxalq hüquqi normalara və dövlətlərarası etimad mühitinə hazır olmadığını nümayiş etdirir. Ərazi iddiaları ehtiva edən konstitusiya normaları gələcək revanşizm üçün dayanıqlı hüquqi baza yaradır. Ermənistanın hazırkı siyasi rəhbərliyi sülh tərəfdarı olduğunu bəyan etsə də, konstitusiyanı dəyişməyə tələsməməsi sülh sazişinin gələcək taleyini şübhə altına salır.

Azərbaycanın diplomatik müstəvidə irəli sürdüyü qətiyyətli tələblər beynəlxalq hüququn aliliyinə əsaslanır. Sülh sazişinin dayanıqlı olması üçün Ermənistanın hüquq sistemindəki ərazi iddiaları tamamilə təmizlənməlidir. Bu addım atılmadan imzalanacaq hər hansı sənəd gələcək münaqişələrin qarşısını almağa qadir olmayacaq. Ermənistan cəmiyyəti və rəhbərliyi qarşılıqlı etimadın qurulması üçün konstitusiya islahatlarının qaçılmaz olduğunu anlamalıdır. Keçmişin stereotiplərindən və əsassız iddialardan imtina etmək regional tərəfdaşlığın və iqtisadi tərəqqinin yeganə yoludur.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Moskvanın "ixrac gülləsi" hədəfə çatmadı

## *Ermənistan iqtisadiyyatı qadağalara boyun əymir...*



**Rusiyanın ayrı-ayrı erməni ixracatçılarına qarşı tətbiq etdiyi müvəqqəti məhdudiyyətlər ölkənin ümumi makroiqtisadi göstəricilərinə ciddi təsir göstərməyib və Ermənistan iqtisadiyyatı yüksək fəallıq nümayiş etdirməkdə davam edir. Bu barədə Ermənistanın Baş naziri Nikol Paşinyan jurnalistlərlə söhbətində bildirib.**

Kremlin sanksiya və idxal qadağalarının, hətta indiyədək Rusiyaya yumurta və ya bu sahə üzrə digər məhsullar ixrac etməmiş Ermənistan quşçuluq şirkətlərinə də şamil edilməsi ilə bağlı sualı cavablandıran Paşinyan qeyd edib ki, belə müəssisələrin fəaliyyətində bu tədbirlər nəticəsində faktiki olaraq heç nə dəyişməyib. Onun sözlərinə görə, dövlət statistikası Ermənistan bazarının xarici təsirlərə qarşı dayanıqlılığını aydın şəkildə nümayiş etdirir: "Özünüz də görə bilərsiniz ki, cari ilin təkcə may ayında iqtisadi fəallıq göstəricisi 11 faiz təşkil edib, yanvar–may aralığı üzrə isə illik ifadədə 8 faizi ötüb. Təsir hər zaman mövcud olur, lakin rəqəmlər öz-özlüyündə danışır".

Qeyd edək ki, Rusiyanın Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidməti ("Rosselxoznadzor") 2026-cı il mayın 15-də daha əvvəl məhsullarının Rusiyaya tədarükü dayandırılmış bir sıra Ermənistan müəssisələrində yoxlamalar aparmaq niyyətində olduğunu açıqlayıb. Mayın 30-da isə "Rosselxoznadzor" mənşəyi və göndərişi Ermənistan olan təzə pomidor, xiyar, bibər, göyərti və çiyələyin Rusiyaya idxalına müvəqqəti məhdudiyyət tətbiq edib. Qurum bu siyasi qərarı "Ermənistan meyvə-tərəvəz məhsullarının Rusiyaya tədarükü zamanı pozuntuların artması və fitosanitar təhlükəsizliyin təmin edilməsi məqsədilə qəbul edildiyi" sözləri ilə pərdələyib.

Ancaq məhdudiyyətlər bununla da bitməyib. İyunun 2-dən etibarən "Rosselxoznadzor" ölkədən tumlu meyvələrin – albalı, gilas, ərik, gavalı, şaftalı, nektarin, eləcə də üzümün idxalını məhdudlaşdırıb. İyunun 3-dən isə bu siyahı daha da genişləndirilib. Ora alma, armud, badımcan, kartof və quru meyvələr əlavə edilib. Nəhayət, iyunun 11-də "Rosselxoznadzor" Ermənistandan gətirilən bütün karantin nəzarətinə aid məhsulların idxalını qadağan edib.

Ermənistanın kənd təsərrüfatı məhsulları ixracının 90 faizdən çoxu Rusiyanın payına düşdüyündən ölkədə bununla bağlı narahatlıqlar var idi. Mərkəzi Bankın sədri Martın Qalstyan iyunun 16-da jurnalistlərlə görüşündə bildirmişdi ki, ölkəsinin Rusiya ilə ümumi mal ixracı ÜDM-in təxminən 6 faizini təşkil edir. Lakin problemlər əsasən kənd təsərrüfatı məhsulları, eləcə də emal və qida sənayesinin məhdud sayda sahələrini əhatə edir. Buna görə də hadisələrin mənfi ssenari üzrə inkişaf edəcəyi təqdirdə, bu, ÜDM-in 2 faizə qədər azalmasına səbəb ola bilər. MB sədri qeyd etmişdi ki, bazarların şaxələndirilməsi mümkün olarsa və ixrac bundan zərər görməzsə, qeyd olunan təsirlər daha zəif olacaq: "Xüsusilə spirtli içkilər kimi əsas ixrac məhsullarında ixracın ümumi istehlakdakı payı yüksək olduğundan, Rusiyada qəbul edilən qərarlar bu sahəyə birbaşa təsir göstərir. Məhz buna görə tənzimləyici orqan ən pis ssenaridə ÜDM-ə təsirin maksimum 2 faiz ola biləcəyini bildirir".

*

Ancaq indi məlum olur ki, Rusiyanın son aylar Ermənistan məhsullarına tətbiq etdiyi ardıcıl məhdudiyyətlər Moskvanın gözlədiyi iqtisadi effekti verməyib. Ən azı indiyədək açıqlanan rəsmi makroiqtisadi göstəricilər belə deməyə əsas verir. Ermənistan iqtisadiyyatında ciddi geriləmə qeydə alınmayıb, iqtisadi fəallıq yüksək səviyyədə qalıb və hökumət də məhz bu rəqəmlərə istinad edərək məhdudiyyətlərin həlledici təsir göstərmədiyini bildirir.

Əslində, bu nəticə müəyyən mənada gözlənilməzdir. Çünki Rusiyanın tətbiq etdiyi məhdudiyyətlər tək-tək məhsulları deyil, Ermənistanın kənd təsərrüfatı ixracının böyük hissəsini əhatə edirdi. Balıq məhsullarından başlayan proses sonradan gül, pomidor, xiyar, bibər, göyərti, çiyələk, çəyirdəkli və tumlu meyvələr, kartof, quru meyvələr və nəhayət, bütün karantin nəzarətinə aid məhsulları əhatə etdi. Belə genişmiqyaslı addımların Ermənistan iqtisadiyyatına qısa müddətdə ciddi zərbə vuracağı gözlənilirdi. Lakin açıqlanan statistika fərqli mənzərə ortaya qoyur. May ayında iqtisadi fəallığın 11 faiz təşkil etməsi, ilin ilk beş ayında isə 8 faizi ötməsi göstərir ki, iqtisadi proseslər yalnız kənd təsərrüfatı ixracından asılı deyil. Bu, həm də onu göstərir ki, makroiqtisadi sabitlik tək bir sektorda yaranan çətinliklərlə dərhal pozulmur. Bu, o demək deyil ki, problemlər yoxdur. Əlbəttə, fermerlər, ixracatçılar və emal müəssisələri müəyyən çətinliklərlə üzləşirlər. Bəzi məhsulların satışında problemlər yaranıb, alternativ bazarların tapılması isə vaxt tələb edir. Ancaq bu çətinliklərin bütövlükdə iqtisadiyyatı böhran vəziyyətinə gətirdiyini söyləmək hələlik mümkün görünmür. Ermənistan Mərkəzi Bankının ÜDM-in 2 faizə qədər azala biləcəyi ilə bağlı proqnozu da potensial risk ssenarisidir. Yəni söhbət artıq baş vermiş nəticədən deyil, müəyyən şərtlər daxilində yarana biləcək ehtimaldan gedir.

Maraqlıdır ki, Rusiyanın iqtisadi təzyiq aləti kimi istifadə etdiyi məhdudiyyətlər əks effekt də yarada bilər. Çünki belə addımlar Ermənistanı yeni ixrac istiqamətləri axtarmağa, logistika marşrutlarını yenidən qurmağa və bazarlarını mərhələli şəkildə şaxələndirməyə sövq edir. Bu proses qısa müddətdə çətin və xərc tələb edən olsa da, uzunmüddətli perspektivdə bir bazardan asılılığın azalmasına xidmət edə bilər.

Bütün bunlar göstərir ki, iqtisadi təzyiq mexanizmlərinin effektivliyi həmişə gözlənildiyi qədər yüksək olmur. Xüsusilə də hədəf ölkə makroiqtisadi sabitliyi qoruyub saxlaya bilirsə və yaranan problemlərin sistem xarakteri almasının qarşısını alırsa. Hazırkı mərhələdə açıqlanan göstəricilər Rusiyanın tətbiq etdiyi məhdudiyyətlərin Ermənistan iqtisadiyyatını sarsıtmaq məqsədinə çatmadığını göstərir. Bu baxımdan, Moskvanın ixrac qadağaları siyasi mesaj vermiş olsa da, iqtisadi nəticələr baxımından gözlənilən effekti hələlik ortaya qoymayıb.



Ermənistan iqtisadiyyatında ciddi problemlərin yaranmayacağını **Avrasiya İnkişaf Bankının (AİB) analitik tədqiqatlar direktorluğunun rəhbəri Aleksey Kuznetsovun** "Sputnik Ermənistan"a verdiyi açıqlama da təsdiqləyir. Rusiyanın ixrac məhdudiyyətlərinin mümkün təsiri ilə bağlı agentliyin sualını cavablandırarkən Kuznetsov 2026-cı ildə Ermənistan iqtisadiyyatının artım tempi ilə bağlı proqnozun ciddi şəkildə yenidən nəzərdən keçirilməsinin gözlənilmədiyini bildirib.

AİB daha əvvəl 2026–2028-ci illər üçün hazırladığı makroiqtisadi proqnozda Ermənistan iqtisadiyyatının 2026-cı ildə 6 faiz artacağını, 2027–2028-ci illərdə isə artım tempinin 5,5 faiz səviyyəsində sabitləşəcəyini proqnozlaşdırmışdı. Mövcud vəziyyət fonunda bu qiymətləndirmələrin dəyişdirilib-dəyişdirilməyəcəyi ilə bağlı suala cavab verən Kuznetsov bildirib ki, son makroiqtisadi proqnoz cəmi bir-iki həftə əvvəl açıqlanıb: "Biz hər 6 aydan bir proqnozlarımızı dərc edirik və 2026-cı ildə Ermənistan iqtisadiyyatının artım tempi ilə bağlı ciddi dəyişiklik gözləmirik. Proqnozumuz təxminən 5,5 faizlik artımdır".

Onun sözlərinə görə, Ermənistan iqtisadiyyatı inkişafını davam etdirir və bu prosesə çoxsaylı daxili amillər təkan verir. "Buna görə də iqtisadiyyatda nəzərəçarpacaq və ciddi zəifləmə gözləmirik. Hazırkı baza proqnozumuzda da belə bir ssenari nəzərdə tutulmayıb. Əlbəttə, vəziyyəti daim izləyirik. Əgər dəyişiklik olarsa, bunu noyabrda açıqlayacağımız növbəti makroiqtisadi proqnozda mütləq əks etdirəcək və qiymətləndirəcəyik", – deyə o əlavə edib.

***Səxavət HƏMİD***
***XQ***

*Replika*

# Bu cəbhədən o biri cəbhəyə...

**Qarabağda biabırcasına uduzan işğalçını "qəhrəmana" çevirməklə "Rossiya 1" telekanalı nə demək istəyir?**




Sərlövhənin altındakı sualın cavabı Rusiyanın dövlət telekanalında – "Rossiya 1"də yayımlanan reportajın alt-motivində gizlənir. Ukraynada davam edən "xüsusi hərbi əməliyyat" Kremlin nəzarətində olan elektron mediaya yeni "yaradıclıq tapıntıları" verir. Bu günlərdə "Rossiya-1" federal telekanalında yayımlanan reportajda, bu sözün hərfi mənasında, hərbi cinayətkarlar "qəhrəman" obrazında tərənnüm edilir, onların timsalında üçüncü tərəfə siyasi mesaj göndərilir.

Biz "üçüncü tərəf" deyəndə Azərbaycanı, "qəhrəman" yazanda isə İkinci Qarabağ savaşında uduzmuş Ermənistan ordusunun bu gün Rusiya tərəfdən Ukraynaya qarşı vuruşan hayları nəzərdə tuturuq. Reportajda Cənub Qüvvələr Qrupunun tərkibində fəaliyyət göstərən bölmələrin "şücaətindən" bəhs edilir.

Süjetdə tamaşaçılar soyadı və milliyyəti açıqlanmayan "Maraqa" ləqəbli döyüşçü ilə tanış olurlar. Və bu zaman reportajın müəllifləri izləyicilərə çox mühüm "ipucu" verirlər: "Maraqa" ilk dəfə əlinə silahı Qarabağ müharibəsi zamanı, 14 yaşında alıb. Bu, olduqca önəmli detaldır. Yəni Azərbaycan ərazilərinin işğalında iştirak etmiş, hazırda Ukrayna torpaqlarını qəsb edən başqa bir işğalçı dövlətin ordusunun tərkibində döyüşən şəxsin erməni olduğuna şübhə yeri qalmır. Rusiyanın dövlət televiziyası "hərbi karyerasını" yad torpaqların işğalı əməliyyatlarında keçirmiş, başqa sözlə, "cəbhədən cəbhəyə" adlamış əsgəri düşünülmüş şəkildə romantik "qəhrəmana" çevirir.

Ardınca tamaşaçılara ikinci erməninin "qəhrəmanlığı" təqdim edilir. "Mühəndis" də hərbi "səyahətinə" Qarabağda, 30 il Ermənistanın işğalı altında olan Azərbaycan ərazisində başlayıb. Siması efir "dumanına" bürünsə də, ləhcəsi etnik mənşəyini büruzə verir. İstehkamçı "Mühəndis" deyir ki, o, "yaşayış binalarını minalardan təmizləyir, bununla da insanların təhlükəsizliyini bərpa edir".

"Rossiya 1"in bu məkrli reportajında güdülən məqsəd aydındır. Müəlliflər bir-birindən köklü şəkildə fərqlənən iki münaqişəni – keçmiş Ermənistan–Azərbaycan və indiki Rusiya–Ukrayna münaqişələrini "qəhrəman" hay əsgərlərinin cəbhə "şücaətləri" fonunda müqayisəyə cürət edirlər.

Reportajın ən maraqlı personajı isə Rusiya tərəfində döyüşdüyünə görə Ermənistan hakimiyyəti tərəfindən təqib edilən "Moska" ləqəbli döyüş mühəndisidir. Görün dövlət telekanalında kök salmış anti-Azərbaycan ideoloqları onu tamaşaçıya necə təqdim edirlər: "müttəfiqə sədaqətə görə cəzalandırılıb". "Moska" isə vətəndaşı olduğu Ermənistanın özünə qarşı "ədalətsizliyini" Ukraynaya qarşı vuruşmaqla "bərpa edirmiş". Məgər bu faktın özü Moskvanın xarici muzdluların Rusiya tərəfində hərbi əməliyyatlarda iştirakına haqq qazandırmaq cəhdi deyilmi? Bu muzdlu hayların mundirində "Artsax" rəmzləri əks etdirən yamaqların nümayişi isə birbaşa Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə qarşı yönəlmiş diplomatik jest sayıla bilər. Daha doğrusu, bu, efirdən məqsədyönlü şəkildə nümayiş etdirilən siyasi təxribatdır. Aydın məsələdir ki, bu reportaj təkcə daxili auditoriyada vətənpərvərlik hisslərini "gücləndirməyə" deyil, kənar müşahidəçilərə yönəlmiş birbaşa siyasi siqnaldır.

Bəli, Bakı birinci dəfə deyil Rusiyanın hökumətyönlü mediasında aşkar qərəzli və təxribat xarakterli informasiyalarla qarşılaşır. Konkret bu halda isə məntiqli sual yaranır: "Rusiyanın dövlət kanalı bu reportajı yayımlamaqda hansı məqsədi güdür?" Yəqin "Rossiya-1" telekanalının siyasi cəhətdən yetkin rəhbərliyi bu tip xəbərlərin rəsmi Moskvanın siyasi xəttinə zidd olduğunu başa düşməmiş deyillər. Axı onların Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzinin bu yaxınlarda dediyi "Moskva Bakı ilə əlaqələrin bütün spektrinin daha da inkişafına əsaslı şəkildə sadiqdir" – kimi açıqlamasından da xəbərləri var. Əslində, süjet xətti və məzmunu Kremlin Bakıya yönəlik siyasəti ilə daban-dabana zidd reportajı efirə buraxanlar barədə müvafiq ölçü götürmək Rusiya rəsmilərinin öhdəsinə düşür. Bu zaman Moskva isteblişmenti Azərbaycanın bu cür siyasi təxribatlara cavab vermək hüququnu özündə saxladığı amilini də unutmamalıdır. Rəsmi Bakının cavabı isə bundan daha kəskin və tutarlı ola bilər.

Sonda isə oxucularımıza onu xatırlatmaq istəyirik ki, "Rossiya 1"in "qəhrəmana" çevirməyə çalışdığı həmin istehkamçı haylar Zəfərimizlə başa çatan İkinci Qarabağ müharibəsində 10 mindən çox fərarisi olan bir ordunun əsgərləridir...

***İmran BƏDİRXANLI***
***XQ***

# İrəvanda müxalifətin konsolidasiyası

## *Guya, proses gedir, əslində, durum bir atalar sözümüzdə deyildiyi kimidir*

**Müxalifətin konsolidasiyası, vahid əks düşərgənin formalaşdırılması. 7 iyun parlament seçkilərindən sonra Ermənistanda bu mövzu ciddi müzakirə olunmaqdadır. Əlbəttə, müzakirəni aparan elə əks cinahın özüdür. Görəsən, məsələ niyə seçkiyədək gündəmə gəlmirdi? Yazımızda həm bu suala cavab verəcək, həm də mövzuya dair bəzi məqamlara aydınlıq gətirəcəyik.**



Bəli, müxalifətin konsolidasiyası məsələsi 7 iyun parlament seçkilərinədək gündəmdə deyildi. Səbəb bəllidir. Ölkənin ikinci prezidenti Robert Koçaryan özünü siyasətçi kimi yüksək tutur və hesab edirdi ki, kimlərləsə eyni cəbhədə dayanmaq reputasiyasına ziyandır.

İkincisi, R.Koçaryan Rusiyanın aparıcı dairələrinin iş adamı, "Güclü Ermənistan" blokunun rəhbəri Samvel Karapetyanın üzərinə siyasi sərmayə yatırdığını gördü və Kremlin himayəsindən kənar qalmasından qeyzləndi. Niyə də kənar qalmasın? Axı Şimalda yaxşı bilirlər ki, erməni cəmiyyətinin R.Koçaryandan, yumşaq desək, zəhləsi gedir. Ona görə parlament seçkiləri zamanı oyun sırf S.Karapetyana fokuslanaraq oynanıldı.

Digər tərəfdən, sadə məntiq var. Bir halda ki, ruspərəst Karapetyan seçicilərə pul paylayaraq onların səslərini almağı düşünürdü, uğur qazanmağın başqa formulu yox idi, o zaman üzdə olan fiqur da məhz Samvel olmalı idi. Koçaryan da elə bu qənaətə gəlmiş və müxalifətin konsolidasiyasından zamanında söz açmamışdı. Belədə ortaya başqa sual çıxır: Robert nə üçün məsələ barədə seçkidən sonra danışdı? İlk baxışdan elə təəssürat yaranır ki, Koçaryan prosesdə Baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş sazişi" Partiyasının qalib gəlməsi ilə qəbullanıb, müxalif cəbhənin birlik olmadan qələbə qazanmasının mümkünsüzlüyünü dərk edib. Xeyr, tam da belə deyil. Koçaryan müxalifətin birliyi ideyası ilə sırf əsəbləşdiyi üçün razılaşıb. Yəni o, fikirləri ilə təxminən belə deyib: Üzərinə siyasi sərmayə yatırdığınız Karapetyan heç nəyə yaramadı, mənə fokuslansaydınız, vəziyyət başqa cür olardı.

Əlbəttə, Koçaryan Rusiyanın yenidən ona nəzərən oyun qurmayacağını anladığı üçün də müxalifətin konsolidasiyası ideyasını möhkəmləndirir, subliminal şəkildə Paşinyan iqtidarının yenilməzliyi ritorikasını gücləndirir. Yəni mən yoxamsa, kimsə olmasın, lap Paşinyan başda dayansın. Məsələ isə həm də ondadır ki, 7 iyun seçkiləri, həqiqətən, hay hakim komandasının güclü olduğunu göstərdi. Nə qədər dildə etiraz etsələr də, erməni müxalifətinin təmsilçiləri bütövlükdə reallığın fərqindədirlər. Bu səbəbdən, daha doğrusu, başqa variant tapılmadığından, mövcud kəsimdən hamı konsolidasiya məsələsini dəstəklədiyini deyir. Elə S.Karapetyan da. Hətta o, görüntü yaradaraq vurğulayır ki, vahid müxalifət cəbhəsinin formalaşdırılması prosesi artıq müəyyən reaksiyalar doğurub: "Lakin hələ ilkin mərhələdədir".

Görəsən, başqa mərhələ nə vaxt başlayır və ya başlaması üçün nə lazımdır? Suala cavab yoxdur, çünki bu barədə dərin düşünülmür, düşünülməsi mümkünsüzdür. Ayrı-ayrı siyasilər isə konsolidasiyanın vacibliyinə dair ümumi fikirlərlə kifayətlənirlər. S.Karapetyan da həmçinin. Hərçənd, o, birləşmə çağırışına yalnız Koçaryanınmı reaksiya verməsi barədə suala münasibət bildirərkən, özünü fərqli tərzdə aparıb. Sanki sözügedən çağırışa Robertdən başqa da qoşulmaq istəyənlər varmış. Əslində, Ermənistanda müxalifətin konsolidasiyanı real dəstəkləyən siyasi qüvvə istisnadır. Parlament seçkilərində iştirak edənləri gördük. Onların Paşinyan iqtidarına qarşı birlikdə, yaxud ayrılıqda köklənmələrinin heç bir fərqi yoxdur. Onsuz da loru dildə desək, içləri boşdur, xalq tərəfindən heç bir dəstəyə malik deyillər. Bunu Karapetyan da anlayır, Koçaryan da. Fikrimizi qüvvətləndirmək üçün bir anlıq təsəvvür edək ki, parlament seçkilərində çox cüzi səs toplayan hansısa partiya prosesə Samvelin, yaxud Robertin bloku ilə birləşmiş vəziyyətdə gedib. Bu iki şəxsin düşərgəsindəkilər razı olardılarmı ki, qoşulanlar mandata şərik çıxsınlar? Əlbəttə, bu, heç bir halda, mümkün deyildi, əksinə ziddiyyətlər yaradardı. Qoşulanların isə nə isə tələb etmələri qaçılmazdır.

Bəli, bütün bu səbəblərdən Ermənistanda siyasi konsolidasiya mümkünsüzdür. Yəqin elə buna görədir ki, Karapetyan mövzunun ciddilik fazasına mənasız siyasi manipulyasiya motivi qatmaqla məşğuldur. Məsələn, o deyib ki, hazırda müxalifətin birləşməsi haqqında Paşinyan da söz açır. "Bu barədə, hətta hazırkı baş nazir Nikol Paşinyan da, o cümlədən parlament tribunasından çıxış edərək fikirlər səsləndirib", – deyən Karapetyan əlavə edib ki, yaxın vaxtlarda Nikolun özü də müxalifətçi olacaq.

Göründüyü kimi, Samvel atmacaya güc verir. Elə Paşinyanın fikri də atmacalı olmuşdu. O, müxalif düşərgənin zəifliyini və rəhbərlik etdiyi partiya ilə mübarizə aparmasının mümkünsüzlüyünü izah edərkən, müxalifətin birləşməsinin vacibliyindən söz açmışdı. Təxminən belə: Hətta birlikdə üstümə gəlsəniz də, heç nəyə nail ola bilməyəcəksiniz.

Sonda onu da deyək ki, S.Karapetyan Ermənistanda müxalifətin birləşməsi təklifinə Koçaryanın cinahından başqa hansı siyasi qüvvənin reaksiya verməsinə dair sualı da cavablandıra bilməyib, guya, belə qüvvələrin çoxluğunu bildirib. Yəni Samvel, əslində, özünün siyasi konsprioloqiya bacarığını işə salaraq sualdan yayınıb və yalnız bunu deyib ki, "müxalifət liderlərinin ilk toplantısı hələ keçirilmədiyi üçün iştirakçıların tam siyahısı barədə danışmaq tezdir. İlk toplantı keçiriləndə bunu görəcəksiniz. Hələlik belə bir liderlər toplantısı olmayıb". Bir atalar misalımızda deyildiyi kimi, arım var ha, arım var, amma eşşək arısı.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ermənistan vətəndaşlarının şikayətləri üzrə apellyasiya məhkəməsi davam etdirilib



**İyunun 30-da Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.**





Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Əvvəlcə təqsirləndirilən şəxslər Madat Babayan və David Babayanın hər birinin hüquqlarını qoruyan iki vəkilindən birinin səhhətlərində yaranmış problemlərlə əlaqədar məhkəmə iclasında iştirak edə bilmədikləri qeyd olunub. Bu səbəbdən qanunvericiliyin tələblərinə uyğun olaraq onlara dövlət hesabına yeni müdafiəçilərin təyin edildiyi proses iştirakçılarının diqqətinə çatdırılıb.

Ardınca yeni təyin olunmuş müdafiəçilər məhkəmə prosesi iştirakçılarına təqdim olunub. Təqsirləndirilən şəxslər müdafiəçilərinə iştirakına etiraz etmədiklərini bildiriblər.

Bundan sonra məhkəmə çıxışları davam etdirilib.

Daha sonra təqsirləndirilən Davit İşxanyan məhkəməyə müraciət edərək məhkəmə iclaslarının protokolları ilə tanış olduqdan sonra hazırladığı qeydləri təqdim etmək istədiyini bildirib. Məhkəmə kollegiyasının sədri iclas protokolları ilə tanış olmağın onun prosessual hüququ olduğunu qeyd edib. Davit İşxanyana izah olunub ki, protokollara dair qeydləri Azərbaycan dilində təqdim edilmədiyi üçün onların tərcümə olunduqdan sonra məhkəməyə təqdim edilməsi zəruridir. Bildirilib ki, qeydlər şifahi deyil, yazılı formada və Azərbaycan dilində təqdim olunmalıdır. Qeydlər tərcümə olunduqdan sonra məhkəmə prosesində çəkişmə zamanı bərabərliyin təmini üçün ittiham tərəfinə də təqdim edilməlidir. Davit İşxanyan qeydlərinin tərcüməçiyə təqdim olunmasına şərait yaradılmasını xahiş edib. Məhkəməyə sədrlik edən bunun üçün ona müvafiq imkan yaradılacağını bildirib.

Daha sonra çıxış edən David Babayan yeni təyin olunmuş müdafiəçisi ilə tanış olmaq üçün şərait yaradılmasını xahiş edib.

Məhkəmə iclası müdafiə tərəfinin apellyasiya şikayətlərinin əsaslandırılması üzrə çıxışlarla davam etdirilib.

Təqsirləndirilən Davit Allahverdiyanın müdafiəçisi çıxış edərək hüquqlarını qoruduğu şəxs barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib. Davit Allahverdiyan müdafiəçisi tərəfindən verilən apellyasiya şikayətini müdafiə etdiyini və həmin şikayətdə göstərilən dəlillərlə razı olduğunu bildirib.

Sonra Melikset Paşayanın müdafiəçisi çıxış edib. O, təqsirləndirilən şəxs barəsində 2026-cı il 5 fevral tarixli ittiham hökmünün ləğv edilərək bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib. Çıxış edən M.Paşayan müdafiəçisinin səsləndirdiyi mövqeni dəstəklədiyini bildirib. O, özünü irəli sürülmüş ittiham üzrə təqsirli bilmədiyini qeyd edib.

Sonra təqsirləndirilən Davit İşxanyanın müdafiəçisi çıxış edib. Vəkil çıxışında D.İşxanyan barəsində 2026-cı il 5 fevral tarixli hökmün ləğv edilməsini və bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Ardınca təqsirləndirilən şəxslərin müdafiəçiləri ilə konfidensial görüşlərinin təmin edilməsi məqsədilə məhkəmə iclasında fasilə elan olunub.

Fasilədən sonra məhkəmə iclasında çıxışlar davam etdirilib. Çıxış edən təqsirləndirilən Davit İşxanyan əvvəlcə vəsatət verərək özü tərəfindən hazırlanmış apellyasiya şikayətinin və ərizəsinin dublikat nüsxələrinin cinayət işinin materiallarına əlavə olunmasını məhkəmədən xahiş edib. Ardınca bildirib ki, ona qarşı irəli sürülmüş ittihamla razı deyil.

Məhkəmənin növbəti iclası iyulun 3-də keçiriləcək.

***XQ***

*Beynəlxalq həyat*

# Aİ və NATO-nun Ankara sammitləri nələri üzə çıxarır?

## *Geosiyasi maraqlar fikir ayrılıqlarına üstün gələndə*



**Aİ-nin Rusiya ilə diplomatik və iqtisadi qarşıdurması və ABŞ-ın NATO daxilində uzunmüddətli siyasəti ilə bağlı qeyri-müəyyənlik fonunda Türkiyə qlobal Avropa təhlükəsizliyi üçün əvəzsiz tərəfdaş kimi ortaya çıxıb. Bunun bariz nümunəsi Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallasın başçılıq etdiyi nümayəndə heyətinin Ankaraya səfəridir.**

### Brüsselin mövqe uyğunlaşdırması

Türkiyə mətbuatının məlumatına görə, nümayəndə heyətinə bu ölkəyə dəfələrlə səfər etmiş Avropanın genişlənmə üzrə komissarı Marta Kos və daxili işlər və miqrasiyadan məsul komissar Maqnus Brunner daxildir. Heyət Ankarada xarici işlər naziri Hakan Fidan, xəzinə və maliyyə naziri Mehmet Şimşək, nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu ilə görüşürlər.

Aİ nümayəndə heyətinin Türkiyəyə səfərini təhlil edərkən ilk növbədə qeyd etməliyik ki, bu, NATO sammitindən əvvəl baş verir ki, bu da aydın əlaqəni ortaya qoyur. Həm də onu göstərir ki, Kallasın başçılıq etdiyi nümayəndə heyətinin Türkiyə paytaxtına səfərində məqsədlərindən biri Ukrayna, Qara dəniz regionu və Yaxın Şərqdəki vəziyyət də daxil olmaqla, Avropa İttifaqı üçün fundamental əhəmiyyət kəsb edən bir sıra təhlükəsizlik məsələlərində Brüssel və Ankaranın mövqelərini uyğunlaşdırmaqdır. Beləliklə, Kallasın budəfəki səfərinin əsas mövzusunun Brüssellə Ankara arasında strateji tərəfdaşlığın gücləndirilməsindən çox, Avropa İttifaqının özünün üzləşdiyi geosiyasi dilemmalardan ibarət olacağı güman edilir.

### Təl-Əviv NATO-nun Ankara sammitindən narahatdır




İsrail ABŞ Prezidenti Donald Trampın iyulun 7-8-də Ankarada keçiriləcək NATO sammitindən sonra Ankaraya F-35 qırıcılarının tədarükünü dəstəkləyə biləcəyindən narahatdır. Bu barədə "Euractiv" özəl mənbələrinə istinadla məlumat yayıb. Amerika lideri bundan əvvəl Türkiyəyə F-35-lərin mümkün tədarükü ilə bağlı suala cavabında NATO sammiti üçün səfərində Ankaranı sevindirə biləcəyini bildirmişdi. Mənbənin İsrailin təhlükəsizlik mənbələrinə istinadla verdiyi məlumata görə, F-35 proqramının bir sıra əsas komponentləri İsrail şirkətləri tərəfindən istehsal edilir və ya hazırlanır. Bu səbəbdən İsraildə bu texnologiyaların Türkiyə qırıcılarında istifadə olunması ehtimalı son dərəcə mənfi qarşılanır. İsrailin Yunanıstandakı səfiri Noam Kats Türkiyəyə F-35-lərin verilməsinin "arzuolunmaz" olduğunu deyib. İsrail Baş naziri Binyamin Netanyahu da F-35-lərin Ankaraya mümkün tədarükü ilə bağlı narahatlığını Vaşinqtonun diqqətinə çatdırmaq niyyətindədir.

### Doha görüşü "düyünə" düşüb



ABŞ Prezidenti Donald Trampın xüsusi nümayəndəsi Stiv Vitkoff ABŞ–İran danışıqlarında iştirak etmək məqsədilə Qətərin paytaxtı Dohaya yollanıb. Bu barədə CNN iki amerikalı rəsmiyə istinadla məlumat yayıb. Məlumatda Vitkoffu ABŞ prezidentinin kürəkəni Cared Kuşnerin müşayiət edib-etmədiyi barədə heç nə deyilmir. Tramp daha əvvəl ABŞ və İran nümayəndələri arasında danışıqların çərşənbə axşamı Dohada keçiriləcəyini bildirmişdi. Lakin İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqai Tehranın yaxın günlərdə ABŞ ilə hər hansı görüş keçirməyi planlaşdırmadığını açıqlayıb: "ABŞ ilə görüşün bir məqsədi olmalıdır. Əgər yekun razılaşma üzrə danışıqlara başlamaqdan söhbət gedirsə, bu, anlaşma memorandumunun bütün bəndləri yerinə yetirildikdən sonra mümkündür. Yaxın günlərdə mövcud prosesi qiymətləndirməli və yekun razılaşma üzrə danışıqlara nə vaxt başlayacağımıza qərar verməliyik".

### Tramp: Benzinin qiymətini aşağı salın!

ABŞ Prezidenti Donald Tramp ABŞ-da yanacaq satan şirkətlərdən benzinin qiymətini dərhal aşağı salmağı tələb edib. Bunu etməyəcəkləri təqdirdə onları ciddi nəticələrlə hədələyib. O, bu barədə özünün "Truth" hesabında yazıb. "Benzinin pərakəndə satıcıları qiymətləri dərhal aşağı salmalıdırlar! Neftin hazırda bir barelinin qiyməti 68 dollar olduğunu nəzərə alsaq, qiymətlər çox yüksəkdir", – Tramp bildirib.

### 2 SEPAH-çı öldürülüb




İranın Qərbi Kirmanşah əyalətində silahlı qrupun hücumu zamanı İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) iki hərbçisi həlak olub. Bu barədə rəsmi İRİB telekanalı məlumat yayıb. Məlumatda deyilir ki, hadisə Kirmanşah əyalətinin Pavə şəhərində qeydə alınıb. Çərşənbə axşamına keçən gecə baş verən silahlı hücum nəticəsində iki hərbi qulluqçu qətlə yetirilib, daha iki nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

***XQ***

# İtkin düşmüş şəxslərin taleyi mövzusunda beynəlxalq konfrans

**İyunun 30-da Bakıda, “Gülüstan” sarayında Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşkilatçılığı ilə İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiya ilə əməkdaşlıq çərçivəsində “İtkin düşmüş şəxslər məsələsinin həllində müasir yanaşmalar və əməkdaşlığın gücləndirilməsi” mövzusunda beynəlxalq konfrans keçirilib.**



Konfransa Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi, İşçi qrupunun rəhbəri Qəzənfər Əhmədov moderatorluq edib.

Tədbirdə çıxış edən Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini, general leytenant Şərafət Həsənov İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiya ilə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası arasında təmasların İkinci Qarabağ müharibəsindən əvvəlki illərə təsadüf etdiyini, sonradan bu təmasların inkişaf etdirilərək əməkdaşlıq mərhələsinə çatdırıldığını bildirib. Qeyd edib ki, 2022-ci ilin aprelində Katrin Bombergerin rəhbərliyi ilə qurumun nümayəndə heyətinin Azərbaycana səfəri zamanı aparılmış müzakirələrin yekunu olaraq Dövlət Komissiyası və ICMP arasında itkin düşmüş şəxslərə aid məzar yerlərinin ekshumasiyası və meyit qalıqlarının eyniləşdirilməsi sahəsində əməkdaşlığa dair Protokol imzalanıb. Həmin vaxtdan bəri əməkdaşlıq intensiv xarakter alıb. “Azərbaycanın aidiyyəti dövlət qurumlarının razılığı ilə 2023-cü ilin iyun ayında ICMP-nin Qiymətləndirmə missiyası Azərbaycana səfər edib və müvafiq hesabat hazırlayıb. Bu hesabat 2025-ci ilin mart ayında Bakı şəhərində təşkil olunmuş konfrans çərçivəsində Dövlət Komissiyasına təqdim edilib. Həmin tədbirdə də nümayəndə heyətinə ICMP-nin baş direktoru Katrin Bomberger rəhbərlik edib. Aparılmış müzakirələr və keçirilmiş görüşlər zamanı ICMP-nin nümayəndə heyəti tərəfindən qurumun axtarış, qazıntı, ekshumasiya və eyniləşdirmə sahəsindəki imkanları və uğurları, maddi-texniki bazası, kadr potensialı və işlədiyi yeni elmi metodikalar barədə ətraflı məlumat verilib, qurum tərəfindən hazırlanmış elektron məlumat bazasının Azərbaycana təqdim edilməsi və aidiyyəti dövlət qurumlarının mütəxəssislərinə müxtəlif istiqamətlər üzrə, o cümlədən məlumat bazasının idarə edilməsi müvafiq rəy və protokolların beynəlxalq standartlara uyğun tərtibi sahəsində təlimlərin keçirilməsinə hazır olduqları bildirilib. Respublikamıza səfərin, keçirilmiş görüşlərin və aparılmış müzakirələrin nəticəsi olaraq ICMP-nin itkin düşmüş şəxslər probleminin həllində, yeni texnologiyaların və metodologiyaların tətbiqi sahəsində ölkəmizə dəstək verəcəyi və əməkdaşlığın davam etdirilməsi razılaşdırılaraq 2025-ci il üzrə “İş planı təklifi” hazırlanıb və icra edilib”, - deyə Ş.Həsənov diqqətə çatdırıb.

Sonra Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının fəaliyyətinə dair təqdimat edilib.

Daha sonra çıxış edən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Arzu Nağıyev son illərdə həyata keçirilən tədbirlər, xüsusən də itkin-şəhidlərin şəxsiyyətinin eyniləşdirilərək dəfn mərasimlərinin təşkilinin bütün Azərbaycan vətəndaşlarında, o cümlədən itkin ailələrində böyük ümid hissi yaratdığını vurğulayıb.

Xarici işlər nazirinin müavini, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının üzvü Elnur Məmmədov çıxışında silahlı münaqişələr zamanı insanların itkin düşməsini yalnız ayrı-ayrı ailələrin deyil, bütövlükdə cəmiyyətlərin yaddaşında dərin iz buraxan faciə olduğunu vurğulayıb.

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, deputat Zahid Oruc çıxışında Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan hərbi əməliyyatlarda hər bir zabitin və əsgərin taleyinin real vaxt rejimində izlənildiyini, nizami ordu birləşmələrinin dəqiq plan üzrə hərəkət etdiyini, kəşfiyyat məlumatlarının gizli kanallarla əməliyyat qərargahlarına ötürüldüyünü və müasir raket-artilleriya sistemlərindən, pilotsuz uçuş aparatlarından istifadə olunmasının məsafəli döyüşləri mümkün etdiyini xatırladıb.

Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsinin rəisi, tibb xidməti general-mayoru Rüfət Əliyev çıxışında Ermənistanla Azərbaycan arasındakı münaqişədən uzun müddət keçdiyini və aşkarlanmış məzarlıqlardan götürülmüş sümük nümunələrinin xüsusilə ətraf mühit amilləri nəticəsində ciddi şəkildə deqradasiyaya məruz qaldığını qeyd edib. Bildirib ki, DNT-nin fraqmentasiyası və kimyəvi zədələnmələr genetik profillərin əldə olunmasına ciddi maneələr yaradır. Onun sözlərinə görə, mütəxəssislər tərəfindən gücləndirilmiş protokolların və digər metodların tətbiq edilməsi sayəsində məhkəmə-tibbi ekspertiza mərhələsində çətin genetik tapşırıqları yerinə yetirmək mümkün olub.

İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru Katrin Bomberger çıxışında təşkilat tərəfindən Azərbaycana göstərilən dəstəkdən danışıb. Bildirib ki, bununla bağlı ilk məsələ əməkdaşlıq, ikincisi isə itkin düşmüş şəxslər məsələsinin həlli üçün müasir mexanizmlərin inkişaf etdirilməsidir.

“Əməkdaşlıq məsələsinə gəldikdə, ilk növbədə, dövlət daxilində əməkdaşlığın olması son dərəcə vacibdir. Azərbaycan nümunəsində görürük ki, bu məsələ ilə məşğul olmaq üçün itkin düşmüş şəxslər üzrə Dövlət Komissiyası yaradılıb və burada bu istiqamətdə fəaliyyət göstərən çoxsaylı dövlət qurumları, nazirliklər təmsil olunur. Fikrimizcə, belə bir institutun mövcudluğu son dərəcə əhəmiyyətlidir”, - deyə K.Bomberger əlavə edib.

Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin direktoru, professor Ədalət Həsənov çıxışında Birinci Qarabağ müharibəsi ilə əlaqədar indiyə qədər Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyində ümumilikdə 934 şəxsə məxsus sümük qalıqları qəbul edildiyini, 327 şəxsin qalıqlarının eyniləşdirildiyini, 226 şəhidin meyitinin ailələrinə təhvil verildiyini deyib. Ədalət Həsənov, eyni zamanda, diqqətə çatdırıb ki, bu il iyulun 1-də 3, 3-də isə digər 3 şəhidin qalıqları ailələrinə təhvil veriləcək.

Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunun direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Quliyev çıxışında fiziki antropologiyanın çox vacib sahə olduğunu qeyd edib. O, Dövlət Komissiyanın xətti ilə çalışmağın gənclərimizin müəyyən biliklərə yiyələnmələrinə şərait yaratdığını deyib.

Milli Məclisin deputatı Rizvan Nəbiyev çıxışında uzun illər ərzində Azərbaycanın vətəndaş cəmiyyəti, insan hüquqları müdafiəçiləri, mina qurbanları, etnik təmizləmədən sağ çıxmış şəxslər və itkin düşmüş insanların ailələri beynəlxalq ictimaiyyətə sülhsevər və hüquqi əsaslara söykənən çağırışlarla müraciət etdiklərini qeyd edib.

“Qarabağ İtkin Ailələri” İctimai Birliyinin sədri Könül Behbudova çıxışında mövcud sahədə itkin ailələrinin təsis etdiyi ictimai birliklərin rolundan danışıb. Qeyd edib ki, nüfuzlu beynəlxalq təsisatlar, o cümlədən BMT-nin müvafiq təsisatları da bu tipli qeyri-hökumət təşkilatları ilə daimi məsləhətləşmələr aparır, onların rəyinə önəm verir.

Sonda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi, İşçi qrupun rəhbəri Qəzənfər Əhmədov beynəlxalq konfransda bağlanış nitqi ilə çıxış edərək deyib: “Dövlət Komissiyası müasir texnoloji həllərin tətbiqinə xüsusi diqqət yetirir və bu sahəyə davamlı investisiyalar ayırır. Texnologiyaların digər mühüm üstünlüyü onların xəritələşdirmə imkanlarıdır. Bir gün ərzində onlar 45 kvadratkilometrdən artıq ərazinin ətraflı xəritəsini hazırlaya bilirlər. Bu, praktik baxımdan Ağdam kimi geniş ərazinin 1 və ya 1 neçə ay ərzində sistemli şəkildə tədqiq olunması deməkdir. İnanırıq ki, bu müasir texnologiya gələcək humanitar axtarış əməliyyatlarının ayrılmaz tərkib hissəsinə çevriləcək. Bu texnologiya mütəxəssislərimizin təcrübə və peşəkarlığını tamamlayacaq, itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması istiqamətində daha səmərəli nəticələr əldə etməyimizə kömək edəcək”.

***XQ***

# Türkmənistana “Dostlug” töhfəsi



**Prezident Sərdar Berdiməhəmmədovun bu yaxınlarda Azərbaycana etdiyi dövlət səfəri çərçivəsində qardaş ölkə Türkmənistana “Dostlug” neft tankeri hədiyyə edib. Bu hadisə Xəzər dənizi sahillərində qonşuluqda yaşayan türkmən və Azərbaycan xalqları arasında əsrlər boyu davam edən dostluğun bu gün dövlətlərarası səviyyədə yeni məzmun kəsb etdiyinin növbəti rəmzi olub. Bu barədə Türkmənistan mediasında dərc olunmuş məqalədə bildirilir.**

“Bakı Gəmiqayırma zavodunda inşa edilmiş yeni yük gəmisi dərhal ilk səfərinə çıxaraq Türkmənbaşı Beynəlxalq Dəniz Limanına gəlib və burada onun təntənəli qarşılanma mərasimi keçirilib. Türkmənistan sahilində yerləşən müasir limanda lövbər salan tankeri şəhər administrasiyasının nümayəndələri, fəxri ağsaqqallar, dəniz limanının mütəxəssisləri, dənizçilik ixtisası üzrə təhsil alan gənclər və çoxsaylı şəhər sakinləri qarşılayıblar. Tankerin qarşılanması münasibətilə keçirilən təntənəli mərasimin proqramında mədəniyyət və incəsənət xadimlərinin musiqili çıxışları mühüm yer tutub.



Dəniz donanmasına daxil edilən və sarsılmaz türkmən–Azərbaycan dostluğu və qardaşlığının rəmzinə çevrilən “Dostlug” neft tankeri ölkəmizin dəniz ticarət donanmasının imkanlarını da genişləndirəcək. Gəminin uzunluğu 141, eni 16,9 metr, yükdaşıma qabiliyyəti isə 8 min tondur. Tanker Xəzər dənizi vasitəsilə karbohidrogenlərin daşınma həcminin artırılmasına xidmət edəcək. Bu isə öz növbəsində iki ölkə arasında qarşılıqlı ticarət dövriyyəsinin artmasına töhfə verəcək.

Tanker müasir gəmiçilik və dənizdə təhlükəsizlik sahəsində irəli sürülən tələblər nəzərə alınmaqla inşa edilib. Gəminin hərəkətinə və naviqasiyasına nəzarət qabaqcıl texnologiyalar vasitəsilə həyata keçirilir.

Mərasim iştirakçıları müasir gəminin texniki imkanları ilə tanış olub, ona türkmən və Azərbaycan xalqlarının firavanlığına və rifahına, iqtisadi-ticari əlaqələrin daha da möhkəmlənməsinə xidmət etməsini, dost və qardaş Xəzərin sularında uğurlu səfərlər və xoş yol arzulayıblar”, – deyə məqalədə bildirilir.

***XQ***

# Bakı Təşəbbüs Qrupu Yeni Kaledoniyanın müstəqillik tərəfdarlarını təbrik edib

**Bakı Təşəbbüs Qrupu Kanaki–Yeni Kaledoniyanın müstəqillik tərəfdarı qüvvələrini iyunun 28-də keçirilmiş əyalət seçkilərində qazandıqları nəticələr münasibətilə təbrik edib.**

Təbrik BTQ-nin Kanaki–Yeni Kaledoniyanın müstəqillik tərəfdarı qüvvələrinə dəstək bəyanatında yer alıb. Bəyanatda bildirilib ki, rəsmi nəticələr mövcud siyasi reallığı aydın şəkildə əks etdirir: müstəqillik tərəfdarı olan siyasi qüvvələr arxipelaqın mühafizəkar və loyalist qüvvələri üzərində həm strateji, həm də demokratik baxımdan mühüm qələbə qazanıb.

“Bakı Təşəbbüs Qrupu Kanaki–Yeni Kaledoniyanın müstəqillik tərəfdarı qüvvələri, eləcə də öz müqəddəratını təyinetmə hüququnun tanınması və müstəmləkədən azad olunma prosesinin başa çatdırılması uğrunda sülh yolu ilə mübarizə aparan bütün səslərlə həmrəyliyini bir daha təsdiqləyir”, - deyə bəyanatda vurğulanıb.

# Leyla Əliyevanın təşəbbüsü ilə Hövsanda çimərlik açılıb



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Suraxanı rayonunun Hövsan qəsəbəsində yaradılmış yeni nümunəvi ictimai çimərlik sakinlərin istifadəsinə verilib. Təxminən 5 hektar ərazini əhatə edən ödənişsiz istirahət məkanı IDEA İctimai Birliyi tərəfindən yaradılan sayca yeddinci nümunəvi ictimai çimərlikdir.**

IDEA İctimai Birliyindən bildirilib ki, sakinlərin rahat və təhlükəsiz istirahəti üçün çimərlik ərazilərinə Fövqəladə Hallar Nazirliyinin xilasetmə məntəqələri, kölgəliklər, soyunub-geyinmə və duş kabinələri, sanitar qovşaqlar, söhbətgahlar, şezlonqlar və zibil konteynerləri yerləşdirilib, oyun meydançaları qurulub və istifadə üçün tam hazır vəziyyətdədir.

Əlilliyi olan şəxslərə müyəssərliyin təmin edilməsi məqsədilə hərəkəti məhdud olan şəxslərin suya və çimərlikdəki məntəqələrə maneəsiz gedə bilməsi üçün xüsusi yollar və panduslar inşa edilib, çimərlik ərazisinə ən yaxın dayanacaq əlilliyi olan şəxslər üçün xüsusi nişanlama ilə ayrılıb.

Çimərlik ərazisinə giriş və yaradılan bütün imkanlar tamamilə ödənişsiz istifadə üçün nəzərdə tutulub. IDEA nümunəvi ictimai çimərlikləri cəmiyyətdə ekoloji və sosial məsuliyyətin təşviq edilməsinə yönəlib.

Qeyd edək ki, Leyla Əliyevanın təşəbbüsü ilə daha əvvəl paytaxtın Şıx, Goradil, Novxanı, Buzovna, Pirşağı və Sahil qəsəbələrində baxımsız sahilyanı ərazilər abadlaşdırılaraq nümunəvi ictimai çimərliklər yaradılıb. Hövsan qəsəbəsində istifadəyə verilən yeni çimərliklə onların sayı yeddiyə çatdırılıb.

***XQ***



# Azərbaycanda rəqəmsal keçid sürətli mərhələyə daxil olur

**Rəqəmsal inkişaf müasir dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bu sahə ölkənin uzunmüddətli sosial-iqtisadi inkişafına, rəqabət qabiliyyətinin artırılmasına və dayanıqlı iqtisadi artımın təmin edilməsinə birbaşa təsir göstərir.**




Süni intellekt texnologiyalarının tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsal transformasiya və müasir infrastrukturun formalaşdırılması artıq dövlətlərin gələcək inkişafını müəyyən edən əsas amillər sırasındadır. Məhz bu baxımdan iyunun 29-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasının keçirilməsi ölkənin rəqəmsal inkişaf strategiyasının inkişaf baxımından mühüm mərhələ hesab olunur.

İclasda Birinci vitse-prezident bildirib ki, cari ilin fevral ayında Prezident İlham Əliyevin sədrliyi ilə keçirilmiş müşavirədə verilən tapşırıqlara uyğun olaraq "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı" təsdiqlənib. Bu sənəd əsasında qarşıdakı üç il ərzində rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını əhatə edən yol xəritəsi müəyyənləşdirilib.

Qeyd olunub ki, Rəqəmsal İnkişaf Şurasının əsas vəzifəsi dövlət qurumlarının fəaliyyətini əlaqələndirmək, vahid yanaşmanı formalaşdırmaq və qəbul edilən qərarların vaxtında, səmərəli icrasını təmin etməkdir. Məqsəd yalnız yeni texnologiyaların tətbiqi deyil, həm də iqtisadi inkişafın sürətləndirilməsi, innovasiya ekosisteminin formalaşdırılması, investisiyaların cəlb edilməsi, startapların dəstəklənməsi və dövlət idarəçiliyinin daha səmərəli təşkili üçün əlverişli mühit yaratmaqdır.

Birinci vitse-prezident süni intellektin artıq gələcəyin deyil, bu günün əsas inkişaf amillərindən birinə çevrildiyini də vurğulayıb. Onun sözlərinə görə, bu texnologiya dövlətlərin təhlükəsizliyinin təmin edilməsində getdikcə daha mühüm rol oynayır. Dünyanın aparıcı ölkələrində süni intellekt gözləniləndən daha sürətlə inkişaf edir və bu proses həm yeni imkanlar, həm də yeni risklər yaradır. Buna görə də kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində mövcud və potensial təhdidlərə qarşı hazırlığın gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır.

Xatırladaq ki, Prezident İlham Əliyevin fevralın 27-də imzaladığı Sərəncamla təsdiqlənən Fəaliyyət Planı qlobal rəqabətin sürətlə artdığı və rəqəmsal texnologiyaların iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsinə çevrildiyi şəraitdə hazırlanıb. Sənəd Azərbaycanın rəqəmsal transformasiya prosesini sistemli şəkildə sürətləndirməyi hədəfləyir.

Təsadüfi deyil ki, son illərdə dövlət tərəfindən bu istiqamətdə mühüm hüquqi və texnoloji baza formalaşdırılıb. "Hökumət buludu"nun istifadəyə verilməsi, "SİMA" biometrik rəqəmsal imzasının geniş tətbiqi və rəqəmsal infrastrukturun inkişafı Azərbaycanın beynəlxalq reytinqlərdə də mövqeyini gücləndirib. Hazırda "SİMA"nın istifadəçilərinin sayı 4 milyonu ötür. Eyni zamanda Azərbaycan BMT-nin 2024-cü il üzrə Elektron Hökumətin İnkişafı İndeksində 9 pillə irəliləyərək 74-cü yerə yüksəlib və "çox yüksək inkişaf etmiş ölkələr" qrupuna daxil olub.

Bütün bunlar təsdiq edir ki, ölkədə rəqəmsal transformasiya artıq ayrı-ayrı layihələr deyil, vahid strateji proqram çərçivəsində həyata keçirilir. Məhz bu məqsədlə 2026–2028-ci illəri əhatə edən Fəaliyyət Planına rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemi və kibertəhlükəsizlik istiqamətləri üzrə ümumilikdə 58 təşəbbüs daxil edilib. Rəqəmsallaşma istiqamətində görülən işlər barədə məlumat verən rəqəmsal inkişaf və nəqliyyat naziri bildirib ki, artıq 40 dövlət qurumu üzrə Yol xəritələri hazırlanıb, onlardan 13-ü isə təsdiqlənib və ya təsdiq mərhələsindədir.

Bu prosesdə əsas elementlərdən biri Milli Məlumat Hövzəsidir. Platforma dövlət informasiya sistemləri və reyestrləri arasında məlumat mübadiləsini təmin edən vahid rəqəmsal infrastruktur rolunu oynayır. Sistem müxtəlif dövlət qurumlarının informasiya ehtiyatlarını təhlükəsiz və operativ şəkildə inteqrasiya etməklə məlumatların təkrar toplanmasının qarşısını alır və dövlət xidmətlərinin daha səmərəli göstərilməsinə şərait yaradır.

Rəqəmsal dövlət idarəçiliyinin mühüm alətlərindən biri olan "Mygov" platformasının inkişafı da bu istiqamətdə diqqətçəkən nəticələrdəndir. Son üç ay ərzində platformanın istifadəçilərinin sayı 2,7 milyondan 3,5 milyona yüksəlib ki, bu da rəqəmsal xidmətlərə artan marağın göstəricisidir. "Mygov" müxtəlif dövlət qurumlarının elektron xidmətlərini vahid platformada birləşdirərək vətəndaşlara dövlət xidmətlərinə sürətli, təhlükəsiz və rahat çıxış imkanı yaradır. İstifadəçilər rəqəmsal identifikasiya vasitəsilə şəxsi məlumatlarına baxa, elektron arayış və sənədlər əldə edə, eləcə də dövlət qurumları ilə onlayn formada qarşılıqlı əlaqə qura bilirlər.

Platformanın əsas üstünlüklərindən biri dövlət informasiya sistemlərinin inteqrasiyası hesabına eyni məlumatın müxtəlif qurumlara dəfələrlə təqdim olunması zərurətini aradan qaldırmasıdır. Bu isə xidmətlərin göstərilmə müddətini qısaldır, şəffaflığı artırır və dövlət idarəçiliyinin səmərəliliyini yüksəldir.

Lakin rəqəmsallaşmanın genişlənməsi yeni çağırışları da gündəmə gətirir. Rəqəmsal iqtisadiyyatın inkişafı, dövlət informasiya sistemlərinin sayının artması və süni intellekt texnologiyalarının sürətlə yayılması kibertəhlükəsizlik məsələsini dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirib. Buna görə də ölkədə rəqəmsal dayanıqlılığın gücləndirilməsi məqsədilə yeni institusional mexanizmlərin yaradılması istiqamətində ardıcıl addımlar atılır.

Bu sahədə həyata keçirilən mühüm təşəbbüslərdən biri Azərbaycan Dayanıqlılıq Klasterinin yaradılmasıdır. Texnoloji suverenliyin möhkəmləndirilməsini hədəfləyən klaster kibertəhlükəsizlik, informasiya texnologiyaları, rəqəmsal infrastruktur, süni intellekt və digər strateji texnologiyalar sahəsində fəaliyyət göstərən dövlət qurumlarını, özəl şirkətləri, startapları, elmi-tədqiqat müəssisələrini və akademik dairələri vahid əməkdaşlıq platformasında birləşdirəcək.

Həyata keçirilən islahatlar innovasiya ekosisteminin formalaşdırılması, rəqəmsal dövlət idarəçiliyinin təkmilləşdirilməsi, kibertəhlükəsizliyin gücləndirilməsi və texnoloji suverenliyin təmin olunması istiqamətlərini vahid strategiyada birləşdirir. Bu yanaşma Azərbaycanın qlobal rəqəmsal iqtisadiyyatda mövqeyinin möhkəmlənməsinə və uzunmüddətli dayanıqlı inkişafına xidmət edir.

***Musa BAĞIRLI***
***XQ***

### Ekspert rəyi



**Fərid KAZIMOV,**
**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi İctimai Şurasının üzvü**

Rəqəmsal keçidin sürətləndirilməsi, innovativ idarəetmə mexanizmlərinin tətbiqi və müasir texnologiyaların dövlət idarəçiliyinə inteqrasiyası istiqamətində Azərbaycanda həyata keçirilən islahatlar yeni mərhələyə qədəm qoyur. Bu məqsədlə iyunun 29-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirildi. Bu platforma Azərbaycanın qlobal rəqəmsal iqtisadiyyatda mövqeyinin möhkəmləndirilməsinə xidmət edir.

İnnovasiyaların inkişafı, kibertəhlükəsizlik və süni intellekt sahəsində həyata keçirilən tədbirlər dövlət, özəl sektor və təhsil müəssisələri səviyyəsində vahid strateji xətt üzrə qurulmalıdır. Süni intellekt yalnız tətbiq naminə deyil, onun iqtisadi və sosial faydası nəzərə alınaraq istifadə edilməlidir. Eyni yanaşma kibertəhlükəsizlik və digər texnoloji istiqamətlərə də şamil olunmalıdır. Məqsəd Azərbaycanın iqtisadi dayanıqlılığını, milli təhlükəsizliyini və davamlı inkişafını gücləndirməkdir.

Bu baxımdan effektivliyin ölçülməsi əsas meyarlardan biridir. Bunun üçün konkret metrikalar müəyyənləşdirilməli, məsələn, OKR (Objectives and Key Results) metodologiyası kimi yanaşmalardan istifadə edilməlidir. Texnologiyaların tətbiqində əsas prioritet real nəticələrin qiymətləndirilməsi olmalıdır.

Bununla yanaşı, fəaliyyət ayrı-ayrı qısamüddətli hədəflərə deyil, bütövlükdə sistemin inkişafına yönəlməlidir. Məqsəd yalnız müəyyən sayda startap yaratmaq yox, onların təbii şəkildə yaranıb inkişaf edə biləcəyi ekosistemi formalaşdırmaqdır. Eyni prinsip innovasiya məhsullarının ixracına da aid edilməlidir. Qarşıya konkret ixrac hədəfi qoymaq mümkün olsa da, əsas məqsəd həmin rəqəmə çatmaq deyil, dövlət və özəl sektorun əməkdaşlığı sayəsində şirkətlərin sürətlə böyüməsinə, innovativ məhsullarını xarici bazarlara çıxarmasına və ixrac imkanlarını genişləndirməsinə şərait yaratmaqdır.

Bu prosesi məhdudiyyətlər nəzəriyyəsi əsasında qurmaq mümkündür. Əvvəlcə ali məqsəd müəyyən edilməli, daha sonra isə həmin məqsədə çatmağa mane olan məhdudiyyətlər aradan qaldırılmalıdır.

Azərbaycanda artıq bir neçə ildir innovasiya məhsullarının və yüksək texnologiyalar sektorunun inkişafını stimullaşdırmaq məqsədilə vergi güzəştləri tətbiq olunur və Yüksək Texnologiyalar Parkının rezidentləri bu güzəştlərdən istifadə edirlər. Bu addımlar mühüm əhəmiyyət daşısa da, innovasiya ekosisteminin daha da inkişafı üçün əlavə təşviq mexanizmlərinin yaradılması istiqamətində sistemli iş davam etdirilməlidir.

Bu məqsədlə akselerasiya proqramları, startapların inkişafının təşviqi və ekosistemin bütün iştirakçıları üçün əlverişli mühitin formalaşdırılması nəzərdən keçirilir. Eyni zamanda, innovasiya ekosisteminin inkişafına töhfə verən subyektlər üçün vergi güzəştlərinin tətbiqi də müzakirə olunur.

Belə dövlətin innovasiya mühitini formalaşdırmaq üçün zəruri şəraiti yaratmağa çalışdığını göstərir. İT şirkətləri, texnopark rezidentləri və innovasiya ekosisteminin digər iştirakçılarına vergi güzəştlərinin tətbiqi mühüm təşviq mexanizmlərindən biri hesab olunur. Bu istiqamətdə müzakirələr artıq aktiv mərhələdə davam edir və yaxın gələcəkdə müsbət qərarların qəbul ediləcəyi gözlənilir.

# Dövlətin aqrar sığorta dəstəyi genişlənir

**Azərbaycanda dövlət dəstəyi ilə güzəştli şərtlərlə tətbiq edilən aqrar sığorta mexanizminin əhatə dairəsi daha da genişləndiriləcək. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, bu himayədarlıq Prezident İlham Əliyevin 2026-cı il mayın 25-də imzaladığı sərəncamla təsdiqlənmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulur.**

Sənəddə dövlət dəstəkli aqrar sığorta mexanizminin əhatə dairəsinin və əhatə etdiyi risklərin sırasının daha da genişləndirilməsi başlıca hədəf kimi müəyyənləşdirilib. Bu da aqrar sığortanın tətbiq olunduğu əkin sahələrinin 2025-ci ildəki 386 min hektardan 2030-cu ildə 1 milyon hektara, kənd təsərrüfatı heyvanlarının sayının isə 7 min başdan, 100 min başa çatdırılmağa imkan yaradacaq.

Hazırda Azərbaycanda aqrar sığorta mexanizmi, əsasən, bitkiçilik (əkinlər, meyvə bağları) və heyvandarlıq sahələrini əhatə edir. Sığortalanan əsas kənd təsərrüfatı bitkilərinə buğda, arpa, qarğıdalı, pambıq və şəkər çuğunduru, eləcə də üzüm, fındıq, çay, tütün, qarpız, yemiş, nektarin və albalı kimi məhsullar daxildir.




Heyvandarlıq üzrə aqrar sığorta isə kənd təsərrüfatı heyvanlarını təbii fəlakətlər, yoluxucu xəstəliklər, qəzalar və üçüncü şəxslərin hərəkətləri nəticəsində yarana bilən tələfatdan, oğurluqdan və məcburi kəsimdən qoruyur. Aqrar sığorta mexanizminin yaratdığı imkanlardan yararlanmaq istəyən fermerlər təsərrüfatlarında olan inək, camış, qoyun və keçilərin sözügedən hadisələrin hər hansı biri nəticəsində tələf olduqları təqdirdə dəymiş zərərə görə sığrta ödənişi alırlar.

Ümumilikdə, dövlətin sığorta haqqı üçün tətbiq etdiyi 50 faizlik dəstək sayəsində fermerlər öz əkin sahələrini və heyvandarlıq təsərrüfatlarını olduqca sərfəli şərtlərlə sığortalaya bilərlər. Qarşıdakı illərdə aqrar sığortanın əhatə dairəsinin də genişləndirilməsi gözlənilir. Bu məqsədlə aqrar sığorta mexanizmi çərçivəsində təminat verilən sığorta predmetlərinin və ziyanların bitkiçilik, heyvandarlıq və balıqçılıq üzrə genişləndirilməsi istiqamətində təkliflər hazırlanacaq.

Bundan əlavə, "Aqrar sığorta" informasiya sisteminin funksional imkanlarının genişləndirilməsi, müstəqil aqrar sığorta ekspertləri institutunun inkişaf etdirilməsi nəzərdə tutulur. Nəticədə, aqrar sığorta xidmətlərinin tam elektronlaşdırılması və sığorta ödənişlərinin operativliyi təmin ediləcək. Bu da fermerlərin sığortaya əlçatanlığını bir qədər də artıracaq.

Proqrama əsasən, aqrar sığorta haqlarının dövlət hesabına ödənilən hissəsinin subyektlərə, predmet və risklərə münasibətdə diferensiallaşdırılması nəzərdə tutulur. Bu məqsədlə dövlət dəstəyinin diferensiallaşdırılması üzrə beynəlxalq təcrübənin öyrənilməsi və aqrar sahədə diferensiallaşdırılmış sistemə keçidə başlanılması gözlənilir.

Atılacaq addımlar nəticəsində aqrar sığorta xidmətlərinin tam elektronlaşdırılması təmin ediləcək, fermerlərin sığortaya əlçatanlığı artacaq, sığorta ödənişlərinin operativliyi təmin ediləcək. Bundan başqa, aqrar sığorta haqlarının dövlət hesabına ödənilən hissəsinin subyektlərə, predmetlərə və risklərə münasibətdə diferensiallaşdırılması nəzərdə tutulur. Bu məqsədlə dövlət dəstəyinin diferensiallaşdırılması üzrə beynəlxalq təcrübənin öyrənilməsi və aqrar sahədə diferensiallaşdırılmış sistemə keçidə başlanılması gözlənilir.

Aqrar Sığorta Fondunun indiyədək həyata keçirdiyi tədbirlər nəticəsində fermerlərin aqrar sığortaya əlçatanlığı artırılıb. Hazırda istənilən fermer rəqəmsal imkanlardan istifadə etməklə, olduğu yeri tərk etmədən əkin sahəsini və ya təsərrüfatını sığortalaya, eləcə də "ASAN Pay" ödəniş sistemi vasitəsilə sığorta haqqını ödəyə bilər.

Fond fermer və təsərrüfatları dövlətin yaratdığı sərfəli imkanlardan, o cümlədən rəqəmsal əlçatanlıqdan istifadə etməyə və öz məhsullarını sığortalamağa çağırır. Aqrar sığorta məhsulları, əkinlərin və heyvanların sığortalanması şərtləri, eləcə də sığorta haqları barədə ətraflı məlumatı Aqrar Sığorta Fondunun rəsmi internet səhifəsindən, həmçinin 1651 Çağrı Mərkəzinə müraciət etməklə almaq mümkündür.

2026-cı ilin yanvar–may ayları ərzində Azərbaycanda aqrar sığorta xidmətləri vasitəsilə, ümumilikdə, 13 milyon 383 min manat sığorta haqqı yığılıb. Bu göstərici ilə "Aqrar Sığorta" ASC ölkə üzrə fəaliyyət göstərən sığorta şirkətləri arasında ilk beşliyə daxil olub.

Xatırladaq ki, Aqrar Sığorta Fondu və dövlət aqrar sığorta mexanizmi 2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 19 avqust 2019-cu il tarixli fərmanı ilə yaradılıb. Hazırda aqrar sığorta mexanizmi 41 növ bitki və bitkiçilik məhsullarını, iri və xırdabuynuzlu heyvanları, eləcə də balıqçılıq sahəsinə aid təsərrüfatları 30-dək riskdən qoruyur.

Fəaliyyətə başlayandan indiyədək Aqrar Sığorta Fondu tərəfindən fermer və təsərrüfatlara 23 milyon manat sığorta zərər ödənişi edilib. Bu məbləğin 19,5 milyon manatı əkin sahələrinə, 3,5 milyon manatı isə heyvandarlıq təsərrüfatlarına dəymiş zərərlər üzrə ödənilib. Proqrama əsasən, kənd təsərrüfatında iqlim və bazar risklərinin artması aqrar sığorta mexanizmlərinin genişləndirilməsini və risklərin idarə olunması sisteminin təkmilləşdirilməsini zəruri edir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Sabirabadda pambıqçılarla maarifləndirici görüş



**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Aqrar Təlim Mərkəzi ölkənin müxtəlif bölgələrində maarifləndirici təlimlər və sahə görüşləri keçirir. Bölgələrin torpaq-iqlim şəraiti və kənd təsərrüfatı üzrə ixtisaslaşması nəzərə alınaraq təşkil edilən növbəti sahə görüşü Sabirabad rayonunun Bulaqlı kəndində "Pambıqçılıqda məhsuldarlığın artırılması və inteqrir mübarizə üsulları" mövzusuna həsr olunub.**

Görüşün əsas məqsədi pambıq istehsalçılarını məhsuldarlığın artırılması yolları, bitkilərin sağlam inkişafının təmin edilməsi, zərərverici və xəstəliklərə qarşı müasir, effektiv və ekoloji cəhətdən təhlükəsiz mübarizə üsullarının tətbiqi barədə məlumatlandırmaq, eləcə də qabaqcıl aqrotexniki təcrübələrin və innovativ yanaşmaların fermerlər arasında geniş yayılmasına dəstək göstərməkdir.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planında nəzərdə tutulan inteqrir bitki mühafizə tədbirlərindən istifadənin genişləndirilməsi, eləcə də informasiya-məsləhət xidmətləri və innovasiyaların yayımı sisteminin inkişaf etdirilməsi tədbirlərinin icrası çərçivəsində təşkil olunan görüşdə pambıqçılıqda məhsuldarlığın artırılmasına təsir edən əsas amillər barədə ətraflı məlumat verilib.

Təqdimat zamanı düzgün aqrotexniki tədbirlərin vaxtında və səmərəli tətbiqi, bitkinin inkişaf mərhələlərinə uyğun qulluq işlərinin aparılması, qidalanma və suvarma rejiminin düzgün təşkili, eləcə də yüksək və keyfiyyətli məhsul əldə etməyin effektiv üsulları iştirakçıların diqqətinə çatdırılıb, praktik tövsiyələr verilib.

Daha sonra Aqrar Xidmətlər Agentliyinin Laboratoriya, Ekspertiza və Sertifikatlaşdırma Mərkəzinin əməkdaşları pambıq əkinlərinə ciddi ziyan vuran pambıq sovkasına qarşı mübarizədə tətbiq olunan bioloji üsullar barədə məlumat veriblər. Bununla yanaşı, qurumun bioloji agentlərin istehsalı laboratoriyasında yetişdirilmiş trixoqrammaların pambıq sahəsinə buraxılması nümayiş etdirilib və onların sahədə tətbiqi izah olunub.

***XQ***

# Zəmilərdən 1,6 milyon tondan çox taxıl yığılıb

**Bu günədək ölkə üzrə payızlıq taxıl sahələrinin 48,7 faizində biçin başa çatıb. Bu barədə Kənd Təsərrüfatı Nazirliyi yanında taxıl biçini ilə əlaqədar yaradılmış mərkəzi qərargahdan bildirilib.**



Qərargahın operativ məlumatına əsasən, mövsüm ərzində 462 min 153 hektar sahədə biçin aparılıb, həmin sahələrdən 1 milyon 618 min 893 ton məhsul yığılıb. Hazırda taxıl üzrə hektarın orta məhsuldarlığı 35 sentner təşkil edir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,2 sentner çoxdur.

İndiyədək mexanizatorlar 122 min 78 hektar buğda, 340 min 74 hektar arpa sahəsi biçiblər. Bu sahələrdən 485 min 844 ton buğda, 1 milyon 133 min 49 ton arpa yığılıb. Buğda sahələrinin 26,6 faizində, arpanın isə 69,4 faizində biçin yekunlaşıb. Orta məhsuldarlıq buğda üzrə 39,8 sentner, arpa üzrə isə 33,3 sentner təşkil edir.

Artıq Ucar rayonunda biçin tam yekunlaşıb, Masallı, Yevlax, Neftçala, Kürdəmir, Göyçay, Biləsuvar, Bərdə, Ağdaş rayonları üzrə taxıl sahələrinin 90 faizi biçilib. Hazırda biçin prosesində 1585 kombayn iştirak edir. Bunlardan 594-ü "Aqroservis" ASC-nin, 991-i isə fiziki və hüquqi şəxslərin mülkiyyətində olan texnikalardır. Operativ məlumata görə, hazırda ən fəal biçin prosesi Şəki (131 kombayn), Cəlilabad (125 kombayn), Ağsu (102 kombayn), Goranboy (60 kombayn), Sabirabad (58 kombayn), Biləsuvar (57 kombayn), Kürdəmir (56 kombayn), Hacıqabul (55 kombayn), Saatlı (49 kombayn) və Füzuli (46 kombayn) rayonlarında aparılır.

Ölkə üzrə biçin prosesinin optimal müddətdə başa çatacağı proqnozlaşdırılır.

***XQ***

*Aqrar proqramın hədələri*

**Beyləqan rayonunda kənd təsərrüfatı həm istehsal həcmlərinin artması, həm də idarəetmə və texnoloji yeniliklərin tətbiqi baxımından mühüm inkişaf mərhələsinə qədəm qoyub. Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizovun respublika müşavirəsində səsləndirdiyi göstəricilər onu deməyə əsas verir ki, aqrar sektorda müşahidə olunan müsbət dinamika yalnız statistik artımla məhdudlaşmır, eyni zamanda, dərin struktur dəyişiklikləri ilə müşayiət olunur. Təhlillər Beyləqanda taxılçılıq, pambıqçılıq, heyvandarlıq və su idarəçiliyi istiqamətlərində paralel inkişaf modelinin formalaşdığını göstərir.**

# Beyləqanda torpağın yeni dövranı

## *Əməkdaşımız ezamiyyətdən qayıdıb*



### Strateji hədəflər

Bu inkişaf ölkədə kənd təsərrüfatının modernləşdirilməsinə yönəlmiş dövlət siyasəti ilə sıx bağlıdır. “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı” çərçivəsində intensiv bağçılığın genişləndirilməsi, buğda və pambıq məhsuldarlığının artırılması, müasir suvarma sistemlərinin tətbiqi, aqropark və istixana təsərrüfatlarının inkişafı, intensiv heyvandarlıq komplekslərinin yaradılması əsas prioritetlər kimi müəyyən edilib. Eyni zamanda, institusional islahatlar, qanunvericilik bazasının təkmilləşdirilməsi, subsidiya mexanizmlərinin yenilənməsi, texnika təminatına güzəştlərin artırılması və rəqəmsal idarəetmənin genişləndirilməsi də proqramın əsas istiqamətlərindəndir. Bu yanaşmalar Beyləqanda da ardıcıl şəkildə tətbiq olunur.

### Taxılçılıq

Dövlət Proqramının əsas məqsədlərindən biri buğda və pambıq istehsalının artırılması, məhsuldarlığın yüksəldilməsi və əkin sahələrinin daha səmərəli idarə olunmasıdır. Beyləqanda ümumi əkin sahəsi 48 min 847 hektar təşkil edir ki, bunun da 15 min 311 hektarı taxılçılığın payına düşür. Bu göstərici rayonun ölkənin ərzaq təhlükəsizliyi sistemində mühüm mövqeyə malik olduğunu göstərir. 2025-ci ildə 9 min 601 hektar sahədə buğda, 5 min 710 hektar sahədə isə arpa becərilib. Mövsümün yekununda 56 min 736 ton taxıl istehsal olunub. Hər hektardan orta hesabla 37 sentner məhsul əldə edilməsi respublika üzrə orta göstəricilərdən yüksək nəticə sayılsa da, Dövlət Proqramında qarşıya qoyulan 50 sentner/hektar məhsuldarlıq hədəfi rayon üçün hələ də əsas inkişaf prioritetlərindən biri olaraq qalır. Bu, mövcud potensialın tam reallaşdırılması üçün aqrotexniki tədbirlərin, müasir texnologiyaların və innovativ idarəetmə yanaşmalarının tətbiqini zəruri edir.



Məhsuldarlığın yüksəldilməsi isə yalnız maliyyə dəstəyi və subsidiya mexanizmləri ilə məhdudlaşmır. Yüksək reproduksiyalı toxumlardan istifadə edilib, torpaq analizləri aparılıb, səpin müddətləri düzgün müəyyənləşdirilib. Vaxtında suvarma, gübrələmə və fitosanitar tədbirlərin həyata keçirilməsi məhsuldarlığı artırıb.

Taxılçılıq üzrə perspektiv göstəricilər də rayonun bu sahədə yüksək inkişaf potensialına malik olduğunu göstərir. Belə ki, 2026-cı ildə 16 min 606 hektar sahədə taxıl əkilib. Bu göstərici istehsal potensialının qorunub saxlanılması ilə yanaşı, əkin dövriyyəsinin daha planlı və elmi əsaslarla idarə olunmasına keçidin davam etdiyini göstərir. Artıq rayonun taxılçıları arpa biçininə başlayıblar. 357 hektar sahədə biçin aparılıb, 1071 ton məhsul əldə edilib. Orta məhsuldarlıq hər hektara 30 sentner təşkil edir. Biçin prosesinə isə 16 kombayn cəlb olunub.

### Pambıqçılıq



Beyləqanın aqrar ixtisaslaşmasında pambıqçılıq xüsusi yer tutur və rayon iqtisadiyyatının aparıcı istiqamətlərindən biridir. 2025-ci ildə 8 min 898,3 hektar sahədə pambıq əkilib və nəticədə 37 min 541 ton məhsul əldə olunub. Hər hektardan orta hesabla 42,2 sentner məhsul götürülməsi intensiv texnologiyaların tətbiqinin, aqrotexniki tədbirlərin düzgün təşkilinin və müqavilə əsaslı istehsal modelinin səmərəliliyini nümayiş etdirir. Ən diqqətçəkən nəticələrdən biri isə Beyləqanın pambıq məhsuldarlığına görə ölkə üzrə birinci yerə yüksəlməsidir. 2026-cı ildə isə, təxminən, 9 min hektar sahədə pambıq əkilməsi sektorda əldə olunan inkişaf tempinin qorunacağını göstərir.

Cari mövsümdə tarlalarda işlərin vaxtında, itkisiz və optimal müddətdə tamamlanması üçün bütün resurslar səfərbər olunub, yığım və becərmə proseslərində mexanizasiya səviyyəsi maksimum həddə çatdırılıb.

Aqrotexniki modernləşmənin ən mühüm göstəricilərindən biri də pambıq yığımının, demək olar ki, tam mexanikləşdirilmiş şəkildə həyata keçirilməsidir. Hazırda Beyləqan sahələrində pambığın 100 faizə yaxın hissəsi müasir pambıqyığan maşınlar vasitəsilə toplanır. Bu texnoloji üstünlük həm vaxt itkisini minimuma endirir, həm də məhsul keyfiyyətinin yüksək səviyyədə qorunmasına imkan verir. Yığım kampaniyası dövründə tarlalara 350-dən artıq müxtəlif təyinatlı texnika və aqreqat cəlb olunması nəzərdə tutulur.

Məhsulun sürətli toplanması üçün ABŞ istehsalı olan, yüksək məhsuldarlığa malik “John Deere” və “Case IH” markalı pambıqyığan kombayn səfərbər ediləcək. Eyni zamanda, cərgəaralarının yumşaldılması, sahələrarası kultivasiya və yığımdan əvvəl defolyasiya (yarpaqların tökdürülməsi) proseslərinin icrası üçün 100-dən çox universal traktor işə cəlb olunub. Toplanmış məhsulun sahələrdən pambıq qəbulu məntəqələrinə və emal müəssisələrinə operativ, təhlükəsiz daşınması məqsədilə isə yüzlərlə xüsusi traktor qoşqusu fermerlərin istifadəsinə verilib.

İnanırıq ki, güclü texniki baza və müasir aqrotexniki yanaşmalar Beyləqanın ölkə üzrə lider mövqeyinin qorunmasına töhfə verəcək. Dövlət dəstəyi ilə özəl aqroservislərin birgə səmərəli fəaliyyəti isə kənd təsərrüfatında mexanizasiya səviyyəsini gələcəkdə daha da artıracaq.

### Heyvandarlıq



Dövlət Proqramının mühüm istiqamətlərindən biri də heyvandarlıqdır. Xüsusilə iribuynuzlu heyvandarlıq sektorunda süd və mal əti istehsalının artırılması, cins heyvanların sürüdə payının yüksəldilməsi, idxaldan asılılığın azaldılması və özünütəminetmə səviyyəsinin artırılması əsas hədəflər kimi müəyyən olunub. Bu hədəflərə çatmaq üçün südlük və ətlik klasterlərin yaradılması, klaster daxilində müxtəlif tutuma malik yeni təsərrüfatın formalaşdırılması və bu təsərrüfatların cins damazlıq heyvanlarla təmin edilməsinin dəstəklənməsi nəzərdə tutulur.

Beyləqanda da bu istiqamətdə görülən işlər nəticəsini verir. Çünki rayonun aqrar strukturunda heyvandarlıq sektoru taxılçılıq və pambıqçılıqla yanaşı, iqtisadi dayanıqlılığın formalaşmasında mühüm rol oynayır. Son illərin statistik göstəriciləri bu sahədə sabit və ardıcıl inkişaf meylinin formalaşdığını təsdiqləyir. 2025-ci ildə rayonda 8 min 65 ton ət, 40 min 71 ton süd və 603 ton yun istehsal olunub. Bu nəticələr istehsal həcmlərinin artması ilə yanaşı, təsərrüfatların struktur baxımından daha səmərəli təşkil olunduğunu göstərir. Xüsusilə damazlıq işlərinin genişləndirilməsi və heyvanların genetik potensialının yaxşılaşdırılması istehsal göstəricilərinin yüksəlməsində həlledici rol oynayıb.

Onu da qeyd edək ki, rayonda həyata keçirilən süni mayalanma proqramları sektorun inkişafında keyfiyyətcə yeni mərhələyə keçidi təmin edən əsas mexanizmlərdən biridir. Bu yolla heyvanların genetik potensialı yaxşılaşdırılır, uzunmüddətli dövrdə həm məhsuldarlığın artırılmasına, həm də heyvandarlıq təsərrüfatlarının iqtisadi səmərəliliyinin yüksəldilməsinə şəbəb olur. Məsələn, 4 min 607 baş iribuynuzlu heyvanın süni mayalanmaya cəlb olunması bu sahədə aparılan işlərin geniş miqyas aldığını göstərir. 2 min 772 baş yüksək məhsuldarlıq potensialına malik buzovun əldə edilməsi isə proqramın praktiki effektivliyini təsdiqləyən mühüm göstəricidir. Bu nəticə yalnız kəmiyyət artımı deyil, eyni zamanda, keyfiyyət dəyişiminin də baş verdiyini göstərir.

Beləliklə, süni mayalanma proqramlarının tətbiqi heyvandarlıqda məhsuldarlığın artırılması ilə yanaşı, kənd təsərrüfatının ümumi modernləşmə prosesinə də mühüm töhfə verir və sektoru daha rəqabətqabiliyyətli istehsal modelinə yaxınlaşdırır.

2026-cı ilin ilk beş ayına dair nəticələr də sektorda müsbət dinamikanın davam etdiyini təsdiqləyir. Bu dövrdə ət və süd istehsalında artım qeydə alınması heyvandarlığın rayon iqtisadiyyatında strateji mövqeyini qoruduğunu göstərir. Bununla yanaşı, xırdabuynuzlu heyvanların sayında azalma müşahidə olunur. Bu istehsal strukturunda baş verən dəyişikliklər, bazar tələbinin transformasiyası və daha yüksək məhsuldarlığa malik təsərrüfat modellərinə mərhələli keçid prosesi ilə izah olunur. Mövcud tendensiya ümumilikdə sektorun daha intensiv və səmərəli istehsal modelinə doğru yönəldiyini göstərir.

### Quşçuluq





Beyləqanda quşçuluq sektoru da aqrar istehsalın dinamik inkişaf edən sahələrindən biridir. 2025-ci ildə 1596 ton quş əti və 26 milyon 825 min ədəd yumurta istehsal olunub. 2026-cı ilin ilk 5 ayında isə 788 ton quş əti və 12 milyon 741 min ədəd yumurta istehsalı bu sahədə sabit artım tempinin qorunduğunu göstərir. Xüsusilə iri təsərrüfat subyektlərinin fəaliyyətinin genişlənməsi sektorda sənayeləşmə meylinin gücləndiyini təsdiqləyir. “Beyləqan-Broyler” və “Kəbirli-Broyler” kimi müəssisələr regionda quşçuluğun istehsal potensialının formalaşmasında və bazar tələbinin qarşılanmasında mühüm rol oynayır.

Heyvandarlıq və quşçuluq sahələrinin inkişafı yalnız istehsal həcmlərinin artırılması ilə məhdudlaşmır, eyni zamanda, ölkənin ərzaq təhlükəsizliyi strategiyasının əsas komponentlərindən biri kimi çıxış edir. Qarşıya qoyulan əsas hədəflərdən biri ət, süd və quş əti məhsulları üzrə özünütəminat səviyyəsinin maksimum dərəcədə yüksəldilməsidir. Bu məqsədə nail olunması daxili bazarın yerli məhsullarla təminatını gücləndirir, idxaldan asılılığı azaldır və aqrar sektorun iqtisadi dayanıqlılığını möhkəmləndirir.

Beləliklə, aparılan təhlil göstərir ki, Beyləqanda kənd təsərrüfatı tədricən ənənəvi istehsal modelindən müasir, texnologiya və məlumat əsaslı idarəetmə sisteminə keçid edir. Taxılçılıq, pambıqçılıq, heyvandarlıq və quşçuluqda artım müşahidə olunur. Eyni zamanda müasir suvarma sistemlərinin tətbiqi, su idarəçiliyinin yaxşılaşdırılması, seleksiya işlərinin genişlənməsi, rəqəmsal texnologiyaların istifadəsi və texniki təminatın gücləndirilməsi sektorun inkişafını dəstəkləyən əsas amillərdir.

### Suvarma sistemləri



Aqrar inkişafın əsas istiqamətlərindən biri suvarma sistemlərinin modernləşdirilməsi və su resurslarından daha səmərəli istifadədir. İqlim dəyişiklikləri, yağıntıların azalması və suya tələbatın artması fonunda su ehtiyatlarının effektiv idarə olunması strateji əhəmiyyət kəsb edir. Bu səbəbdən dövlət proqramlarında müasir suvarma texnologiyalarının tətbiqi prioritet istiqamətlərdən biri kimi müəyyən edilib.

Hazırda su təminatı üzrə ciddi problemlər müşahidə olunmasa da, suvarma infrastrukturunun yenilənməsi istiqamətində ardıcıl layihələr həyata keçirilir. Qarabağ suvarma kanalının yenidən qurulması nəticəsində 115 min hektaradək ərazinin su təminatının yaxşılaşdırılması, su balansının optimallaşdırılması və istehsalın dayanıqlılığı gücləndirilir. Eyni zamanda, “Yeni Xanqızı” və “Köhnə Xanqızı” kanallarında aparılan yenidənqurma işləri su itkisini azaltmaqla ondan istifadənin səmərəliliyini artırıb.

Suvarma infrastrukturunun modernləşdirilməsi çərçivəsində ümumilikdə 9 791 hektar sahənin su təminatının yaxşılaşdırılması məqsədilə Beyləqan rayonunu da əhatə edən Boztəpə kanalında (uzunluğu 45 km, sərfi 8 $m^3$/san) yenidənqurma işləri artıq başa çatdırılıb. Bundan əlavə, Beyləqan rayonu ərazisində təxminən 10 min hektara yaxın torpaq sahəsinin su təminatının yaxşılaşdırılması üçün “Köhnə Xanqızı” kanalının yenidən qurulması üzrə texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədləri hazırlanıb, müvafiq ekspertiza rəyləri alınıb və tikinti-quraşdırma işlərinə başlanılması nəzərdə tutulur. Bu layihələr regionda su itkilərinin azaldılması, suvarma sistemlərinin dayanıqlılığının gücləndirilməsi və ümumi aqrar səmərəliliyin artırılması baxımından strateji əhəmiyyət daşıyır.

### Texniki təminat



Aqrar sektorun rəqabət qabiliyyətinin yüksəldilməsində həlledici amillərdən biri kənd təsərrüfatı texnikası ilə təminat səviyyəsidir. Müasir aqrar istehsal artıq yalnız torpaq ehtiyatları və iqlim şəraiti ilə deyil, həm də yüksək məhsuldarlığa malik texniki baza və onun səmərəli idarə olunması ilə xarakterizə olunur.

Beyləqan rayonunda bu sahəyə xüsusi diqqət yetirilib, texnikanın vaxtında yığıma hazır vəziyyətə gətirilməsi və fermerlərin müasir texnikaya çıxış imkanlarının genişləndirilməsi təmin olunub. Bu məqsədlə dövlət tərəfindən lizinq mexanizmlərinin tətbiqi, güzəştli kreditlərin verilməsi, subsidiyalaşdırılmış texnika satışı və regional texnika xidmət mərkəzlərinin yaradılması kimi kompleks tədbirlər həyata keçirilib. Bu yanaşma xüsusilə kiçik və orta fermer təsərrüfatlarının texniki imkanlarını gücləndirərək onların iri istehsalçılarla rəqabət aparmasına şərait yaradır. Görülən tədbirlər nəticəsində rayonda köhnə və fiziki aşınmaya məruz qalmış texnikaların istifadəsi minimum səviyyəyə enib.

Bununla yanaşı, texnikanın yalnız əldə olunması deyil, onun səmərəli istismarı və servis xidmətlərinin düzgün təşkili də diqqət mərkəzində saxlanılıb. Rayonda texniki nasazlıqların operativ şəkildə aradan qaldırılması, ehtiyat hissələrinin əlçatanlığının təmin edilməsi və peşəkar operator hazırlığının təşkili istiqamətində sistemli işlər görülüb.

Nəticələr göstərir ki, rayonda təkcə istehsal həcmi artmır, həm də məhsuldarlıq yüksəlir, resurslardan daha səmərəli istifadə olunur və idarəetmə təkmilləşir. Qarşıdakı əsas məqsəd bu inkişafı qorumaq və istehsal artımını daha yüksək məhsuldarlıq və əlavə dəyər yaradan fəaliyyətlərlə gücləndirməkdir. Mövcud potensial, dövlət proqramları və yeni idarəetmə yanaşmaları Beyləqanın aqrar inkişaf imkanlarını daha da genişləndirir. Bu proses davamlı olarsa, Beyləqan təkcə kənd təsərrüfatı istehsalı ilə deyil, həm də müasir texnologiyaların və səmərəli resurs idarəçiliyinin tətbiq olunduğu nümunəvi aqrar rayona çevriləcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**Beyləqan**

*Təqdimat*

# "Heydər Əliyevin dövlətçilik və diplomatiya dərsləri"






**Müstəqil Azərbaycanın dövlətçilik tarixinin ən mürəkkəb, eyni zamanda ən taleyüklü mərhələlərinin öyrənilməsində yalnız rəsmi sənədlər deyil, hadisələrin canlı şahidlərinin qələmə aldıqları xatirələr də əhəmiyyət daşıyır. Bu baxımdan uzun illər Azərbaycan milli mətbuatında və informasiya siyasətinin formalaşdırılmasında mühüm xidmətləri olan Aslan Aslanovun "Heydər Əliyevin dövlətçilik və diplomatiya dərsləri. I kitab" adlı yeni nəşri həm tarixi yaddaşın qorunmasına, həm də dövlətçilik ənənələrinin gələcək nəsillərə çatdırılmasına dəyərli töhfədir.**

Kitabın təqdimat mərasimi ölkənin ictimai-siyasi, elmi və medianın tanınmış nümayəndələrini bir araya gətirdi. Tədbirdə səsləndirilən fikirlər göstərdi ki, söhbət yalnız yeni bir kitabın təqdimatından deyil, müstəqil Azərbaycanın siyasi tarixinin mühüm bir dövrünü əhatə edən qiymətli salnamənin ictimaiyyətə təqdim olunmasından gedir.

Aslan Aslanov ömrünün böyük hissəsini Azərbaycan jurnalistikasının inkişafına həsr etmiş peşəkar qələm sahiblərindəndir. O, 1993–2003-cü illərdə AZƏRTAC-ın müxbiri kimi ulu öndər Heydər Əliyevin keçirdiyi dövlət tədbirlərinin, rəsmi görüşlərin, beynəlxalq danışıqların, xarici səfərlərin və mühüm siyasi proseslərin bilavasitə iştirakçısı və müşahidəçisi olub. Müəllif həmin illəri təsadüfən "Heydər Əliyev universiteti" adlandırmır. Çünki dövlət idarəçiliyinin, diplomatiyanın, siyasi uzaqgörənliyin və peşəkar informasiya siyasətinin incəliklərini məhz həmin məktəbdə öyrənib.

Yeni nəşr müəllifin on il ərzində hazırladığı rəsmi informasiyaları, şəxsi müşahidələrini və xatirələrini vahid məcrada birləşdirib. Kitabın səhifələrində təkcə hadisələrin xronologiyası deyil, onların mahiyyəti, qəbul edilən qərarların arxasında duran siyasi məntiq, dövlət maraqlarının qorunması naminə həyata keçirilən diplomatik fəaliyyət və Heydər Əliyevin idarəçilik fəlsəfəsi dolğun şəkildə işıqlandırılıb. Kitabda 1993–1995-ci illərdə Azərbaycanın üzləşdiyi mürəkkəb ictimai-siyasi vəziyyət, dövlətçiliyin qorunması istiqamətində həyata keçirilən qətiyyətli addımlar, ölkənin beynəlxalq münasibətlər sistemində layiqli yer tutması naminə görülən işlər sənədlər və müəllif müşahidələri əsasında təqdim edilir. Bu xüsusiyyət kitabı təkcə publisistik əsər deyil, həm də qiymətli tarixi mənbəyə çevirir.

Təqdimat mərasimində çıxış edən Milli Məclis sədrinin müavini Rafael Hüseynov kitabın adındakı "dərslər" sözünün xüsusi məna yükü daşıdığını vurğuladı. Onun fikrincə, Heydər Əliyev təkcə görkəmli siyasi lider deyil, bütöv bir dövlətçilik məktəbinin banisidir. Həmin məktəbin dərslərini yaxından izləyən və mənimsəyən insanlar həyatlarının ən qiymətli təcrübəsini qazanıblar. Rafael Hüseynov qeyd etdi ki, böyük şəxsiyyət haqqında yazmaq yalnız faktları sadalamaq deyil, həm də həmin şəxsiyyətin böyüklüyünü dərk etməyi tələb edir. Aslan Aslanov isə bu missiyanın öhdəsindən hadisələrin canlı şahidi kimi uğurla gəlib.

İctimai-siyasi xadim Əli Həsənov Heydər Əliyevlə bağlı xatirələrini danışdı. Bildirdi ki, Ulu öndərin rəhbərliyi altında işləmək onun üçün qürurvericidir. İşlədiyi dövrdə böyük bir idarəçilik məktəbi keçib.

AMEA-nın Tarix və Etnologiya İnstitutunun Qərbi Azərbaycan tarixi şöbəsinin müdiri Cəbi Bəhramov da kitabı müasir tarixşünaslıq baxımından yüksək qiymətləndirdi. Onun sözlərinə görə, müəllif yalnız şahidi olduğu hadisələri qələmə alıb və buna görə də nəşrdə yer alan faktlar tarixi həqiqətlərin öyrənilməsi üçün etibarlı mənbədir. Alim bildirdi ki, kitabın hər səhifəsində Azərbaycanın müasir dövlətçilik tarixinə dair qiymətli sənədlər, müşahidələr və faktlar toplanıb. Milli Məclisin deputatı Hikmət Babaoğlu isə qeyd etdi ki, Heydər Əliyevin hakimiyyətə gəlməsi xalqımızın əlahidə sosial sifarişi kimi aktuallaşdı. Aslan Aslanovun "Heydər Əliyevin dövlətçilik və diplomatiya dərsləri" adlı kitabı da dövlətçilik tariximizin kritik dövründə baş verən mürəkkəb ictimai-siyasi proseslərə həsr olunub.

Təqdimat mərasimində müəllif Aslan Aslanov da çıxış edərək bildirdi ki, bu kitabı yazmaqla ulu öndər Heydər Əliyev qarşısında öz mənəvi və tarixi borcunu yerinə yetirməyə çalışıb. O vurğuladı ki, müstəqil Azərbaycanın rəsmi dövlət xəbərlərinin formalaşması, dövlət başçısının fəaliyyətinin peşəkar şəkildə işıqlandırılması prinsiplərinin yaradılması məhz Heydər Əliyevin adı ilə bağlıdır. Dövlət səfərlərinin, ikitərəfli görüşlərin, beynəlxalq tədbirlərin informasiya təminatı sahəsində formalaşdırılan bu peşə standartları sonrakı dövrdə Azərbaycan mediasının fəaliyyət istiqamətlərini müəyyənləşdirən əsas meyarlara çevrilib.

Tədbirdə çıxış edənlər digər şəxslər qeyd etdilər ki, "Heydər Əliyevin dövlətçilik və diplomatiya dərsləri" yalnız keçmişə nəzər salan xatirələr kitabı deyil. Bu əsər müasir Azərbaycanın dövlətçilik təfəkkürünün necə formalaşdığını göstərən, siyasi liderlik, milli maraqlara sədaqət, diplomatik məharət və peşəkar jurnalistikanın vəhdətini əks etdirən dəyərli salnamədir.

Tarix yalnız onu yaşayanların deyil, onu gələcək nəsillərə doğru və obyektiv şəkildə çatdıranların da xidmətləri sayəsində yaşayır. Aslan Aslanovun yeni kitabı məhz bu missiyanı yerinə yetirərək oxucunu müstəqil Azərbaycanın ən mühüm dövlətçilik mərhələlərinin canlı atmosferinə aparır, Heydər Əliyev siyasi irsinin mahiyyətini faktlar və şahid müşahidələri fonunda təqdim edir. Bu baxımdan nəşr təkcə bugünkü oxucu üçün deyil, gələcəyin tarixçiləri, tədqiqatçıları və jurnalistləri üçün də etibarlı mənbə və qiymətli vəsait kimi uzun illər aktuallığını qoruyacaq.

*P.ƏFƏNDİ*
*XQ*

# Savadlı müəllim – yüksək bilik

## *Təhsildə sertifikatlaşdırmanın hədəfi budur*





**Təhsil Nazirliyinin təşkilatçılığı ilə ADA Universitetində "Sertifikatlaşdırma: səriştəli müəllim – keyfiyyətli təhsil" mövzusunda toplantı keçirildi.**

Elm və təhsil naziri Emin Əmrullayev toplantıda bildirdi ki, son 5 il ərzində keçirilən sertifikatlaşdırma imtahanlarında ümumilikdə 104 435 müəllim iştirak edib. Onlardan 58 faizi 30–50 bal aralığında nəticə göstərərək uğur qazanıb. Yalnız yüksək bal toplayan müəllimlərin deyil, sertifikatlaşdırmadan keçmiş bütün müəllimlərin əməkhaqqısı artırılır. Sadəcə, bu artım diferensial şəkildə həyata keçirilir. Bir qisim müəllimin maaşı 10 faiz, digər qisminin isə 35 faiz artırılır.

Bildirildi ki, sertifikatlaşdırma nəticələri təhsil sistemində real bacarıq göstəricilərini əks etdirir və 30 baldan aşağı nəticə göstərən müəllimlərin təhsil verdiyi şagirdlərin də nəticələrinin zəif olduğu müşahidə olunur. Bu səbəbdən keyfiyyətin artırılması istiqamətində müvafiq addımların atılması zəruridir.

Emin Əmrullayev vurğuladı ki, ölkənin ümumtəhsil müəssisələrində aparılan son yoxlamalar ibtidai və orta təhsil pilləsində ciddi çatışmazlıqların olduğunu aşkar edib. Yoxlamalar zamanı bəzi siniflərdə şagirdlərin 50-70 faizinin dövlət tərəfindən müəyyən edilmiş minimal təhsil standartlarına belə cavab vermədiyi məlum olub. Yeniyetmələrin və azyaşlıların təməl bilik və bacarıqlara yiyələnə bilməməsi birtərəfli problem deyil, bu uğursuzluğun arxasında bir neçə ciddi fundamental səbəb dayanır.

Emin Əmrullayev müəllimlərin işə qəbulunun mərkəzləşdirilməsindən danışarkən söylədi ki, bu proses artıq 2012-ci ildən tətbiq edilir və daha yaxşı müəllim seçməkdən çox, prosesi şəffaflaşdırmaq və rüşvətlə mübarizə aparmaq məqsədilə atılıb. Rəsmi məlumatlara əsasən son 10 ildə mərkəzləşdirilmiş qaydada işə qəbul olunan müəllimlərin fənn üzrə bilik səviyyəsi əvvəlki dövrlərdə işə qəbul olunanlarla müqayisədə 2,5 dəfə yüksəkdir.

Hazırda təhsilin keyfiyyətinin yüksəldilməsi və pedaqoji kadrların sosial rifahının yaxşılaşdırılması məqsədilə mərhələli şəkildə 20 min tamştatlı müəllim vəzifəsinin yaradılması nəzərdə tutulur. Tamştatlı müəllim statusu alan şəxslər gələcəkdə növbəti sertifikatlaşdırma proseslərindən azad ediləcəklər.

Bununla yanaşı, islahatların növbəti mərhələsində sertifikatlaşdırma imtahanlarında uğurlu nəticə göstərən müəllimlər tamştatlı fəaliyyətlə bərabər, həm də maaş əlavəsi tətbiq olunan saathesabı müəllim statusunda işlərini davam etdirə biləcəklər. İmtahanlarda müvafiq keçid balını toplaya bilməyərək uğursuz nəticə göstərən təhsil işçilərinin fəaliyyəti isə yenidən dəyərləndiriləcək. Həmin şəxslərin köməkçi müəllim kimi fəaliyyət göstərməsi təmin olunacaq və ya mövcud qanunvericiliyə uyğun olaraq onlarla bağlanmış əmək müqaviləsinə xitam veriləcək.

**Görüşdən sonra bu sınaqlardan uğurla çıxmış pedaqoqların təəssüratlarını öyrəndik. Sertifikatlaşdırma sınaqlarında maksimal nəticə göstərən Qusar rayon Caqarqışlaq kənd tam orta məktəbinin informatika müəllimi Sevinc Məsimova imtahanda 60 bal toplayıb:**



– Texnologiyaların sürətlə inkişaf etdiyi bir dövrdə kənd məktəbində şagirdlərə informatika fənnini tədris etmək həm böyük məsuliyyət, həm də fərəhdir. İnanıram ki, qazandığımız bu nailiyyətlər təhsilimizin sabahına açılan ən parlaq pəncərədir. Bir müəllim üçün ən böyük mükafat özünə olan inamın artması və şagirdlərinin qarşısına daha böyük qürurla çıxmaqdır.

**Qəbələ şəhər Nicat Payayev adına 4 nömrəli tam orta məktəbin texnologiya müəllimi Könül Qəribova sertifikatlaşdırma imtahanının ilk mərhələsində 56 bal toplayıb:**



– İmtahanın sualları olduqca düşündürücü idi. Qarşıda hələ müsahibə mərhələsi də var. Lakin bir həqiqətə inanıram ki, hər gün dərsinə məsuliyyətlə, hazırlıqlı gedən müəllim üçün bu sınaqlarda uğur qazanmaq heç də çətin deyil.

**Bakıdakı 286 nömrəli tam orta məktəbinin fiziki tərbiyə müəllimi Ayxan Məmmədov isə 57 bal toplayıb:**

– Müəllimlik fəaliyyəti davamlı imtahandır. Ona görə də sertifikatlaşdırma prosesini həm də pedaqoq üçün öz potensialını görmək, zəif və güclü tərəflərini müəyyən etmək üçün bir fürsət kimi görürəm.

*Fidan ƏLİYEVA*
*XQ*

*Həmkarımızın yubileyi*

# Moskvada yaşayan söz savaşçımız



**Moskvada yaşayan azərbaycanlı şair-publisist, Qarabağ davası başlayandan bu ölkədə düşmən qüvvələrlə mübariz söz savaşçılığı edən Əliş Əvəzin 70 yaşı tamam olur. Ömrünün 40 ildən çoxunu Rusiya paytaxtında keçirən soydaşımızın yaradıcılıq bioqrafiyası daim doğma Vətənlə bağlı olub.**

Onunla ilk dəfə 10 il əvvəl Azərbaycan Mətbuat Şurasının "Tanıyaq, tanıdaq" layihəsi çərçivəsində görüşdə tanış olmuşduq. O zaman tələbə yoldaşları, dostları Əliş Əvəzin Vətənimizi xaricdə layiqincə təmsil edən ziyalı kimi diaspor fəaliyyətindən, ədəbi-publisistik yaradıcılığından ətraflı söhbət açılmış, uğurları diqqət mərkəzində olmuşdu.

Əliş Əvəz oğlu Qasımov 1956-cı il iyulun 1-də qədim Bərdə torpağında, Tərtər çayının sahilində dünyaya göz açıb. Qayğısız uşaqlığı Piyadalar kəndində və Kəlbəcər yaylaqlarında keçib. Aranlı-dağlı Qarabağın gözəlliklərini yeniyetməlik illərindən nəzmə çəkib.

Azərbaycan Dövlət Universitetinə (indiki BDU) daxil olan Əliş Əvəz yuxarı kurslarda təhsilini Moskva Dövlət Universitetinin jurnalistika fakültəsində davam etdirib. Təyinatla qayıtdığı Bakıda müvafiq iş alması düyünə düşdüyündən məzunu olduğu ali məktəbə qayıdıb. Moskvada ona iş tapılıb, uzun illər Rusiyanın müxtəlif mətbuat orqanlarında çalışıb. Hazırda Rusiya Federasiyası Dövlət Tarix Muzeyinin əməkdaşıdır.

Onun rus dilində ilk mətbu yazıları "Şimal gəncləri" (1983), "Komsomolskaya pravda" (1984) qəzetlərində işıq üzü görüb. Həmyerlimiz daha sonralar yazdığı "Oksford ensiklopediyaçısına cavab", "Qarabağ haqqında həqiqət", "İnsanlıq borcu, şərəf və vicdan haqqında", "Xocalı soyqırımı – sivilizasiya mifinin ifşası", "Milli məsələ Rusiyanin baş küçəsidir" kimi məqalələrində, Rusiya Federasiyası Dövlət Dumasının deputatları ilə müsahibələrində xalqımızın maraqlarına uyğun həqiqət çarçılığı edib.

Bakıda 20 Yanvar faciəsi törədilən vaxt Əliş Əvəz Moskvada azərbaycanlıların etiraz nümayişində, faciənin miqyasını əks etdirən vərəqələrin dərc olunub yayılmasında fəallıq göstərib, daha sonra Xocalı soyqırımı ilə bağlı Rusiya mətbuatında kəskin məqalələri çıxıb.

Dostu Vasif Məmmədovun dediyinə görə, Əliş Əvəz Xocalı faciəsindən dərhal sonra Moskvadan birbaşa cəbhə xəttinə gedib və könüllü vuruşmaq istədiyini bildirib. Jurnalist olduğunu bilən könüllülər taborunun komandiri "Sən qələminlə vuruş!" deyərək onu geri qaytarıb. O vaxtdan qələmi ilə savaşa qalxıb Əliş Əvəz.

Soydaşımız Rusiyada Azərbaycan dilli mətbuatın təşəkkülündə mühüm xidmətlər göstərib. Yeni əsrin əvvəllərində Moskvada "Azərbaycanın səsi", "Azərbaycan diasporu", "Asudə vaxt", "AzerRos", "Azərbaycan konqresi" adlı nəşrlərin yaranmasında və pərvərişində yaxından iştirak edib. Ümumrusiya "Diaspora inform" qəzetinin təsisçisi və baş redaktoru olub. "Azərbaycanın səsi" qəzetinin direktoru və redaktoru, "AzerRos" qəzetinin şef-redaktoru və Azərbaycan variantının baş redaktoru kimi çalışıb. O, eyni zamanda, Almaniyanın Dortmund şəhərində Güney azərbaycanlıları diasporunun bərpa etdiyi "21 Azər" jurnalının Moskva təmsilçisi vəzifəsini yerinə yetirib, jurnala maraqlı məqalələr yazıb.

Əliş Əvəz 2000-ci ildən Moskvada fəaliyyət göstərmiş, əsasını mərhum Rafiq Sarıvəllinin qoyduğu "Şəhriyar" ədəbi-ictimai cəmiyyəti idarə heyətinin üzvü və ədəbi əlaqələr üzrə katibi olub. O, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər birliklərinin, eləcə də Beynəlxalq Jurnalistlər Federasiyasının, Beynəlxalq Yazıçılar və Publisistlər Assosiasiyasının üzvüdür. Şair-publisist kimi Rusiya Kosmonavtlar Federasiyasının "Kərim Kərimov medalı (2007), Rusiya YB-nin Vladimir Mayakovski ordeni (2011) ilə təltif olunub.

Yaradıcılığını qoşa qanad kimi jurnalistika və poeziya sahəsində davam etdirən Əliş Əvəzin "Qayıdın" adlı ilk şeiri hələ 1981-ci ildə Bərdə rayon qəzetində oxuculara təqdim edilib. Onun poetik fəhmi tədricən daha da yetkinləşib. "Ana Tərtər" (Moskvada Azərbaycan dilində çıxmış ilk şeirlər toplusu), "Dünyanın iki qapısı" şeirlər və poemalar kitabının müəllifidir. Onun poetik yaradıcılığı barədə Rafiq Sarıvəlli, Ağa Laçınlı, Kamil Vəli Nərimanoğlu, Əbdül Hüseynov, Əflatun Amaşov, Hüquq Yaquboğlu, Əşrəf Hüseynli, Vasif Məmmədov, Ramin Məmmədov, Şükufə İsmayılova və başqaları məqalələr yazıb dərc etdiriblər.

Moskvada yaşayıb yaradan tanınmış yazarlardan Çingiz Hüseynov və Abuzər Bağırovun kitablarında da Əliş Əvəzin ədədi yaradıcılığından söz açılıb. Onun poeziyasına xas olan humanizm, vətənsevərlik, bəşərilik, lirizm, fəlsəfi-mistik qavram ("İlahiyyələr" silsiləsi, "Qərib yuxular" poeması) ətraflı təhlil edilib.

Taleyinə qürbətdə yaşamaq sınaqları düşən şair orada nə qədər uğura nail olsa da, Vətən həsrətini həmişə qəlbində gəzdirir:

*Bu nə mənzil, nə qismət?*
*Bu nə yazı, nə kəsmət?*
*Səhrayam suya həsrət,*
*İlğımlar mənim ahım...*

Amma o Tanrının qismətinə şükranlıq etməyi də unutmur:

*Yolsuzluğa üz tutub*
*Getdim yenə...*
*Əl açdım sonsuz göylərə:*
*Tanrım, məsləhət sənindir,*
*Əzablar qaildir mənə!*

Qərib şairin Moskvada keçirilən yubileylərində Tofiq Məlikli, Nəsib Nəbioğlu, Sultan Mərzili və başqa qələmdaşları onun fəaliyyətini, yaradıcılığını hər zaman ürəklə tərifləyib, ən xoş sözlər söyləyiblər. Elə şairin Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr etdiyi himni bu doğmalıq duyğularından qaynaqlanır.

Sonda qələm dostumuz Əliş Əvəzə yubileyi münasibətilə təbriklərimizi çatdırır və onun ömrün müdriklik zirvəsi haqqında yazdığı şeirini oxuculara təqdim edirik.

*Əli NƏCƏFXANLI*
*XQ*

## 70 YAŞIM

**Onsuz da yaşamaq olmur doyunca,**
**Nə yaxşı ki, yaşı yetmişəm indi.**
**Yol gəlmişəm ötən illər boyunca,**
**Deyəsən, sərhədə yetmişəm indi.**

**Gündüzümlə gecəm, sanki, ötüşür,**
**Son haçandır bilmir ömür özü də.**
**Yollar sona yetir, meyvə yetişir,**
**Təsadüf deyilmiş yetmiş sözü də.**

**Bu dünya evinə o gün gələndə**
**Çoxu çox görsəm də, azı götürdüm.**
**Tamahkar nəfslərdən iblis güləndə**
**Könlümü qələmə, yazıya verdim.**

**Bilmirəm harada gəlib saxladım,**
**Sürüb karvanımı hara gətirdim.**
**Əfsus, azca güldüm, bolca ağladım,**
**Doğmalar itirdim, dostlar itirdim.**

**Hanı məğrur atam, mehriban anam -**
**Məni bu dünyaya gətirən mələk?!**
**İstərəm yad edəm, bir sözün, anam:**
**"Görüm taxtın yansın, a qanlı fələk!"**

**Yaşamaq şirinmiş, istəyə bir bax:**
**Yüzü də, mini də kaş ötə biləm.**
**Axır adlanan son məkana ancaq**
**Əzizlər yaşaya, mən özüm gələm.**

**Xəyallarda neçə dağlar aşıram,**
**Gedib-gedib bəzən uşaqlaşıram.**
**Daha gedənlərə yaxınlaşıram,**
**Daha qalanlardan uzaqlaşıram.**

*Əliş ƏVƏZ*

# Yer adları tarixin silinməz möhürüdür

**Elm və Təhsil Nazirliyi Coğrafiya İnstitutunun əməkdaşları Gəncə–Daşkəsən iqtisadi rayonunda yer adlarının mənşəyinin öyrənilməsi ilə bağlı növbəti tədqiqat aparıblar.**



İnstitutun geosiyasət və iqtisadi coğrafiya laboratoriyasının əməkdaşı dosent Natiq Babayev, Data və analitika ofisinin baş mütəxəssisi Nazim Gəraylı Gəncə və Naftalan şəhərlərində, Daşkəsən, Goranboy, Samux, və Göygöl rayonlarında tarixin ayr-ayrı məskənlərə vurduğu möhür olan, həmin yerlərin əzəli yurd yerlərimiz olduğunu təsdiqləyən coğrafi adların mənşəyi mövzusunda növbəti araşdırmanı uğurla yerinə yetiriblər.

İnstitutdan XQ-yə bildirilib ki, ekspedisiya müddətində Gəncə şəhəri və Samux rayonunun müxtəlif yaşayış məntəqələrində sahə müşahidələri aparılıb, yerli əhali nümayəndələri, ziyalılar və yaşlı sakinlərlə çoxsaylı görüşlər keçirilib. Mütəxəssislər ərazidəki coğrafi adların yaranma tarixi, semantik xüsusiyyətləri, xalq yaddaşında qorunub saxlanılan etimoloji izahları, eləcə də zamanla baş vermiş ad dəyişiklikləri barədə zəngin məlumat toplayıblar.

Tədqiqat çərçivəsində oykonimlər (yaşayış məntəqələrinin adları), hidronimlər (su obyektlərinin adları), oronimlər (relyef formalarının adları), mikrotoponimlər və digər coğrafi ad qrupları üzrə geniş məlumat bazası formalaşdırılıb. Əvvəlki tədqiqatlarda qeydə alınmayan bir sıra yerli coğrafi adlar müəyyən edilərək ilkin elmi dövriyyəyə daxil edilib, onların koordinatları dəqiqləşdirilib və xəritələşdirmə üçün zəruri məlumatlar toplanıb.

Əldə edilmiş materiallar materiallar müxtəlif tarixi mənbələr, arxiv sənədləri, elmi nəşrlər və kartoqrafik materiallarla müqayisəli şəkildə təhlil olunur, sistemləşdirilərək elektron formatda emal edilir və vahid rəqəmsal toponimik məlumat bazasının formalaşdırılması istiqamətində işlər görülür. Toponimlərin məkan paylanmasının təhlili, yayılma areallarının müəyyənləşdirilməsi və gələcək analitik tədqiqatlar üçün zəruri baza da hazırlanır.

*XQ*

# Azərbaycanda Türk Dünyası Həftəsi

## *“Birinci Türkoloji Qurultay: Yüz ilin elmi və mədəni irsi”*





**Bakıda keçirilən “Birinci Türkoloji Qurultay: Yüz ilin elmi və mədəni irsi” mövzusunda beynəlxalq konqres iyunun 30-da işini panel müzakirələrlə davam etdirib.**

Məclisin ikinci günündə iştirakçılar əvvəlcə Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin yerləşdiyi tarixi İsmailiyyə binası ilə tanış olublar. Bildirilib ki, Venesiya memarlıq üslubunda inşa edilən bina 1908-ci ildə tikilməyə başlanıb, 1913-cü ildə istifadəyə verilib. Tarixən burada Müsəlman Xeyriyyə Cəmiyyətinin iclasları, ziyalıların və müxtəlif ictimai təşkilatların toplantıları keçirilib.

### “Türk dünyası və beynəlxalq elmi əməkdaşlıq”

***Daha sonra “Türk dünyası və beynəlxalq elmi əməkdaşlıq” mövzusunda panel iclası işinə başlayıb.***

Açılışda çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunan “Türk Dünyası Həftəsi”nin açılış mərasimində 26 ölkədən 300-dən çox nümayəndə iştirak edib.

Panelə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli moderatorluq edib.

Türkiyə Elmlər Akademiyasının prezidenti Muzaffer Şeker çıxışında rəhbərlik etdiyi qurumun Birinci Türkoloji Qurultayın elmi irsinin qorunmasını özünə vəzifə hesab etdiyini bildirib. Onun sözlərinə görə, 1926-cı ildə Bakıda keçirilən Türkoloji Qurultayın türk xalqları və dövlətləri arasında formalaşdırdığı birlik ruhu bu gün də yaşayır və həmin irsin gələcək nəsillərə ötürülməsi vacibdir. Muzaffer Şeker müasir dövrdə dillərin qarşılaşdığı çağırışlara da toxunaraq qeyd edib ki, süni intellekt texnologiyalarının sürətli inkişafı dillərə ciddi təsir göstərir və müəyyən mənada onları bir-birinə yaxınlaşdırır. O vurğulayıb ki, türkoloqlar bu proseslərin doğura biləcəyi risklərin qarşısını almaq üçün qabaqlayıcı addımlar atmalıdırlar.

Paneldə çıxış edən Albaniyanın Tirana Universitetinin Tarix və arxeologiya fakültəsinin müəllimi Gezim Hoxha ölkəsinin tarix boyu müxtəlif sivilizasiyaların qovuşduğu məkan olduğunu deyib. O diqqətə çatdırıb ki, Albaniyanın zəngin mədəni irsi müxtəlif tarixi dövrlərin qarşılıqlı təsiri nəticəsində formalaşıb və bu irsin mühüm hissəsini Osmanlı dövrü təşkil edir.

Arxeoloq kimi apardığı tədqiqatlara istinad edən Gezim Hoxha bildirib ki, Albaniyada Osmanlı, yunan, Roma, Bizans, orta əsr Albaniya və Avropa mədəni irsinin izləri eyni coğrafiyada yanaşı mövcuddur. Onun sözlərinə görə, bu müxtəlif tarixi qatlar bir-birini inkar etmir, əksinə, ölkənin zəngin mədəni kimliyini tamamlayır.



Gezim Hoxha diqqətə çatdırıb ki, Albaniyada çoxsaylı Osmanlı dövrünə aid məscidlər, körpülər, bazarlar və ənənəvi şəhərsalma nümunələri qorunub saxlanılıb. Bundan başqa, həmin irs dil, memarlıq, sənətkarlıq, kulinariya ənənələri və xüsusilə Bəktaşi təriqətinin mənəvi irsi vasitəsilə bu gün də yaşamaqdadır. O vurğulayıb ki, Osmanlı dövrü Albaniya tarixinin ayrılmaz hissəsi kimi qiymətləndirilməlidir. Onun fikrincə, müxtəlif mədəni təbəqələrin yanaşı öyrənilməsi tarixin daha obyektiv araşdırılmasına, mədəni müxtəlifliyə hörmətin güclənməsinə və xalqlar arasında dialoqun inkişafına xidmət edir.

Qazaxıstan Prezidentinin müşaviri, tanınmış qazax yazıçısı Malik Otarbayev isə çıxışında Birinci Türkoloji Qurultayın 100 illiyinin məhz onun keçirildiyi tarixi binada qeyd olunmasının xüsusi rəmzi məna daşıdığını bildirib. O qeyd edib ki, yüz il əvvəl Türk dünyasının görkəmli alim və ziyalılarının məhz bu məkanda toplaşaraq ortaq gələcəyi müzakirə etməsi bugünkü iştirakçılarda həm qürur, həm də məsuliyyət hissi yaradır.

Malik Otarbayev vurğulayıb ki, Qazaxıstandan Birinci Türkoloji Qurultayda iştirak etmiş görkəmli alim və ziyalıların irsi bu gün də Türk dünyasının ortaq elmi və mədəni sərvəti kimi yaşayır.

Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov çıxışında Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd olunmasını bütün Türk dünyası üçün əlamətdar hadisə kimi dəyərləndirib. O bildirib ki, hər bir xalq öz milli kimliyini, dilini və mədəni irsini qorumaqla yanaşı, ortaq türk dəyərlərinin yaşadılması istiqamətində də birgə fəaliyyət göstərməlidir.

Nazirin sözlərinə görə, beynəlxalq konqreslər, elmi forumlar, mədəni layihələr, kitablar və filmlər türk xalqlarını bir-birinə daha da yaxınlaşdırır. O əlavə edib ki, Özbəkistanda da ortaq tarixi və mədəni irsin təbliği, eləcə də beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində ardıcıl layihələr həyata keçirilir.

Birinci panel sessiyanın sonunda Birinci Türkoloji Qurultayın 100 illik yubileyi münasibətilə təsis edilmiş xatirə döş nişanları təqdim olunub.

Panel müzakirələrdə Türk dünyasında elmi əməkdaşlığın genişləndirilməsi, ortaq elmi tədqiqatların təşviqi, dil, tarix və mədəni irsin qorunması, beynəlxalq akademik əlaqələrin inkişafı, eləcə də türkoloji elmin aktual istiqamətləri və gələcək əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

### “Türk tarixinə baxış və ideoloji yanaşmalar”

***Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Türk Dünyası Həftəsi” çərçivəsində “Türk tarixinə baxış və ideoloji yanaşmalar” mövzusunda panel iclası keçirilib.***

Panelə Milli Məclisin deputatı, filologiya elmləri doktoru Elnarə Akimova moderatorluq edib.

Müzakirələrdə türk tarixinin müxtəlif dövrlərinə elmi yanaşmalar, tarixşünaslıqda ideoloji baxışların rolu, ortaq tarixi yaddaşın formalaşması və Türk dünyasının elmi əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Paneldə Fateh Sultan Mehmet Vəqfi Universitetinin professoru Ahmet Taşağıl, Humboldt Universitetinin professoru Eva-Maria Aux, Osaka Universitetinin Humanitar Elmlər Tədqiqat İnstitutunun




professoru Takasi Osava, Qafqaz Tarixi Mərkəzinin direktoru, dosent Rizvan Hüseynov, Türkiyə Qafqaz Universitetinin professoru Hacalı Necefoğlu və Özbəkistan Elmlər Akademiyasının Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutunun professoru Cabbor Eşonqulov çıxış ediblər.

İclasda türk naxışlarının ortaq mədəni yaddaşdakı rolu diqqətə çatdırılıb, həmçinin tarixdə “Türk” adını ilk dəfə rəsmi dövlət adı kimi istifadə edən Göytürk imperiyasının Azərbaycan türkləri də daxil olmaqla əksər müasir türk xalqlarının formalaşmasında əsaslı rol oynadığı qeyd olunub.

Bildirilib ki, türk naxışları yalnız estetik bəzək elementi deyil, xalqın minilliklər boyu formalaşmış dünyagörüşünü, mənəvi dəyərlərini və həyat fəlsəfəsini özündə yaşadan mühüm mədəni irsdir.

Diqqətə çatdırılıb ki, türkün ən böyük “kitablarından” biri məhz xalçalarda, kilimlərdə, memarlıq abidələrində və digər tətbiqi sənət nümunələrində qorunub saxlanılan naxışlardır. Naxış türk milləti üçün sadəcə estetik ifadə vasitəsi deyil. O, minilliklərin süzgəcindən keçərək günümüzə gəlib çatan ideoloji və simvolik kodlar sistemidir. Naxışlar türkün həndəsə dili ilə yazılmış yaddaşıdır.

Qeyd olunub ki, türk naxışlarının simvolik sistemi Göy Tanrı inancından başlayaraq İslam dövrünə qədər uzanan uzun mənəvi inkişaf yolunu əks etdirir. Xalçalarda yer alan həyat ağacı motivi kainatın sonsuzluğunu, nəsillərin davamlılığını və həyatın dövranını simvolizə edir.

Çıxışçılar türk xalqlarının ortaq tarixi irsinin araşdırılması, elmi tədqiqatların genişləndirilməsi, tarixi faktlara obyektiv yanaşmanın əhəmiyyəti və bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi ilə bağlı fikirlərini bölüşüblər.

Panel iclasının sonunda konqres iştirakçıları ilə xatirə şəkli çəkdirilib.

### 100 il əvvəlin salnaməsi

Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Türk Dünyası Həftəsi” çərçivəsində Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən nəşr edilmiş “Birinci Türkoloji Qurultay” kitabının təqdimatı keçirilib.

Yeni nəşr Azərbaycan Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov, həmçinin tanınmış alimlər – professor Mahirə Hüseynova və filologiya elmləri doktoru Aysel Qəriblinin müəllifi olduqları bir monoqrafiyadır.

Mərasimdə Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova bildirib ki, kitabda Birinci Türkoloji Qurultayın tarixi missiyası hərtərəfli araşdırılıb. Əsərdə qurultayda müzakirə olunan əlifba, dil, terminologiya, etnoqrafiya, orfoqrafiya, ana dilinin tədrisi, regionşünaslıq və ədəbiyyat məsələlərinə xüsusi diqqət yetirilib: “Bu fundamental əsər cari il mayın 22-də Almatıda Milli Kitabxanada keçirilmiş beynəlxalq təqdimat mərasimində elmi ictimaiyyətə təqdim olunub. Hesab edirəm ki, bu nəşr təkcə tarixi faktlar toplusu deyil, həm də ortaq tariximizin, milli kimliyimizin və ümumtürk həmrəyliyinin ideoloji əsaslarını əks etdirən mühüm elmi mənbədir”.

Qazaxıstan Prezidentinin müşaviri Malik Otarbayevin sözlərinə görə, ötən yüz il ərzində çoxsaylı böyük fəlakətlər və faciələr baş versə də, türkologiya sahəsində tədqiqatlar heç vaxt zəifləməyib və dayanmayıb: “Kitabın qazax və rus dillərində nəşr olunmuş nüsxələri Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə də təqdim edilib. O, bu əsərin əhəmiyyətini xüsusi vurğulayaraq bizə belə bir tapşırıq verdi: “Qurultayın 100 illiyinə həsr olunmuş, Bakıda keçirilən bu möhtəşəm və yüksəksəviyyəli “Türk Dünyası Həftəsi”nə getməli və həmçinin mənim mesajımı da orada çatdırmalısınız”.

Qeyd edək ki, kitabda 1926-cı ildə Bakıda keçirilmiş qurultayın tarixi missiyası, onun türk xalqlarının mədəni və elmi inkişafındakı müstəsna rolu, eləcə də etnoqrafiya, orfoqrafiya, terminologiya, əlifba, dil və ədəbiyyat məsələləri dərin elmi təhlil əsasında təqdim olunub.

### Şuşada TDT-nin dini qurum rəhbərlərinin görüşü

***İyunun 30-da Şuşada keçirilən Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dini məsələlər üzrə dövlət qurumları rəhbərlərinin I görüşü çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev, Türkiyə Diyanət İşləri İdarəsinin sədri Safi Arpaquş, Özbəkistanın Dini Məsələlər Komitəsinin sədri Sodik Toşboyev, Qırğız Respublikası Prezidenti yanında Dini Məsələlər və Millətlərarası Münasibətlər üzrə Milli Agentliyin sədri Talantbek Taşibekov və Qazaxıstanın mədəniyyət və informasiya nazirinin müavini Rüstəm Əli ilə görüşüb.***

Görüşlərdə TDT çərçivəsində birgə fəaliyyətin perspektivləri, ortaq mənəvi dəyərlərin qorunması, dini sahədə koordinasiyanın gücləndirilməsi, dini radikalizm və ekstremizmlə mübarizə, eləcə də müvafiq dövlət qurumları arasında təcrübə mübadiləsinin əhəmiyyəti müzakirə olunub. Eyni zamanda, təşkilata üzv ölkələrdə



dövlət-din münasibətlərinin təkmilləşdirilməsi və müasir dövrün çağırışlarına uyğun institusional əlaqə mexanizmlərinin formalaşdırılması ətrafında geniş fikir mübadiləsi aparılıb.

Danışıqlar zamanı qardaş və tərəfdaş ölkələrin aidiyyəti dövlət qurumları arasında formalaşmış səmərəli əməkdaşlıq modelinin, müntəzəm təmasların və birgə layihələrin Türk dünyasında mənəvi birliyin daha da möhkəmləndirilməsinə mühüm töhfə verdiyi xüsusi vurğulanıb. Həmçinin Şuşada keçirilən Birinci görüşün davamlı dialoqun inkişafı və gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılıb. Bildirilib ki, bu format üzv dövlətlər arasında qarşılıqlı etimadın daha da güclənməsinə xidmət edir.

Nümayəndə heyətlərinin rəhbərləri tədbirin yüksək səviyyədə təşkilinə yaradılan şəraitə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Qonaqlar toplantının TDT çərçivəsində institusional əlaqələrin yeni mərhələyə yüksəlməsi üçün mühüm platforma olduğunu, Azərbaycanın irəli sürdüyü təşəbbüslərin çoxtərəfli əməkdaşlığı yeni məzmunla zənginləşdirdiyini və imzalanmış Kommünikenin bu prosesə güclü təkan verəcəyini vurğulayıblar.

***XQ***

Dünya futbolu – 2026

# Bir gecədə 2 sensassiya

## *Kim deyirdi ki, 2026-cı il Dünya çempionatı darıxdırıcı keçir?*

**2026-cı il futbol üzrə Dünya çempionatının startından fərqli olaraq 1/16 final mərhələsi gözlənilməz sürprizlər və sensassiyalarla tarixə düşməkdədir. 29 və 30 iyunda keçirilən matçlarda Braziliya millisi fədakarlıqları ilə azarkeşləri heyran qoyan Yaponiya üzərində 2:1 hesablı çox çətin bir qələbə qazandı. Dünya çempionatlarının beşqat qalibləri yalnız oyuna əlavə edilmiş vaxtda Martinellinin qolu ilə 1/16 finala vəsiqəni təmin edə bildilər. İyunun 30-da gecə saat 01:00-da və səhər saat 06:00-da baş tutan Almaniya–Paraqvay və Mərakeş–Hollandiya matçları isə, sözün əsl mənasında, bu mundialın sensassiyasına çevrildi.**



Doğrusu, işdən yorğun gəldiyim üçün Almaniya–Paraqvay matçını axıra qədər izləmək fikrində deyildim. Amma matç başlayandan bir neçə dəqiqə sonra Paraqvay millisinin əzmkar və qətiyyətli oyununun, alman maşınının isə "hansısa böhran" səbəbindən əvvəlki gücü ilə işləmədiyini müşahidə etdikdən sonra matçı axıra qədər izləməyə qərar verdim. Qatı futbol azarkeşi olaraq, sözün əsl mənasında, bu oyundan zövq aldım.

Futbol mütəxəssislərinin böyük əksəriyyəti kimi mən də o fikirdəyəm ki, Almaniya millisi qrupda elə də xoş təsir bağışlamadı, amma pley-off mərhələsinə birinci yerdən erkən daxil olmaları hər hansı tənqidi fikirlərin qarşısını alırdı. Yəni əsas problem həll olunubsa, Yulian Naqelsmannı qınamağın yeri yox idi. Ehtimal edilirdi ki, zamanla alman maşını özünün əzəli formasına yaxınlaşacaqdı.

Buna baxmayaraq, üçüncü turda Almaniya millisinin baş məşqçisi komanda oyun sistemini yaxşılaşdırmaq üçün rotasiyadan imtina etdi və çox təəccüblü görünsə də, Ekvador millisinə qarşı matçda meydana ilk oyundakı heyəti çıxardı. Amma almanlar uduzdular və hamı bunu motivasiyanın olmaması ilə əlaqələndirdi. Lakin Almaniyanın məşqçi heyəti həlledici bir siqnalı nəzərdən qaçırdı və bu da özünü Paraqvayla oyunda göstərdi.

Naqelsmannın Paraqvay üçün ən böyük sürprizi Musialanın start heyətində olmaması idi. O, Havertz, Virtz və Sane ilə birlikdə qrup oyunlarında start heyətində meydana çıxmışdı. Lakin 1/16 finalda alman mütəxəssis möhtəşəm Undava şans verərək Musialanı ehtiyat oyunçular skamyasında oturtdu.

Deniz əvvəlki oyunlarda ikinci hissədə meydana çıxdıqdan sonra Kürasao və Fil Dişi Sahili millilərinin qapısına qol vurmuşdu. 6-cı dəqiqədə Paraqvaya da qol vura bilərdi. Amma argentinalı mütəxəssis Qustavo Alfaro bu dəfə də meydana "avtobus" çıxarmışdı. Amma alman maşınına qarşı bu "avtobus" bir qədər yenidən "yığılmışdı": Qomes cəzalı, Alderete isə zədəli idi. Maydana və Velaskes də ehtiyat oyunçular skamyasında




yer almışdılar. 4 dəyişiklikdən 3-ü müdafiə xəttində idi.

Negelsmannın birinci hissədə erkən qol ümidi olan Undav ilk dəqiqələrdə belə bir fürsədi əldən verdi və Almaniya millisi bunun ilk hissənin ən yaxşı şansı olacağından heç şübhələnmədi də. Çünki bundan sonra Paraqvay rəqib komandanın yenidən cərimə meydançasına asanlıqla girməsinə əsla imkan vermədi. Qustavo Alfaronun müdafiə səddi 2026-cı il Dünya çümpionatının ən keçilməz müdafiə "maşınlarından" biri hesab olunurdu və o meydanda idi. Topla üz-üzə 11 paraqvaylı yer almışdı, onların topa sahib olma faizi 21 olsa da, kim düşünərdi ki, hətta bu statistika belə, onlara hesabı açmaq üçün kifayət edəcək?!

Əslində, Noyer ikinci dəqiqədə Alonsonun parlaq zərbəsindən sonra qol buraxa bilərdi. Lakin bundan sonra Almaniya topa sahibolmanı tam ələ keçirdi, bütün komanda rəqibə aid hissədə oynamağa başladı və paraqvaylıları meydanın mərkəzində saxladı. Ərazi baxımından da, oyun baxımından da tam üstünlük Naqelsmanın yetirmələrində idi. Amma 45 dəqiqə ərzində bu üstünlüyü bir qola çevirmək şansı belə qazana bilmədilər. Hətta qapıya bir zərbə də vurulmadı!

Paraqvaydan fərqli olaraq, intriqanı ideal şəkildə gərginləşdirən və bir saat əvvəl gözləri yumulan hər kəsin yuxusunu qaçıran Naqelsmannın komandasının topa tam nəzarəti heç bir nəticə vermirdi. Bunun əksinə olaraq, birinci hissənin 42-ci dəqiqəsində Qustavo Alfaronun yetirmələrinin vurduğu ideal kornerə təkrar-təkrar baxmağa dəyərdi: Noyer topu yumruqları ilə uzaqlaşdırandan sonra, Bobadillanın onu ustalıqla ram edib Almaniyanın əks-hücumunu necə pozduğunu, Qalarzanın qapı önünə unikal ötürməsini Ensisoyanın başı ilə Manuelin qoruduğu qapının toruna necə qovuşdurduğunu təkrar izləmək necə zövq verməyə bilərdi? Əsl zərgər dəqiqliyi idi! Əslində, bu qol, ələ düşən fürsətdən maksimum yararlanmağın ən parlaq nümunələrindən biri idi.

Əgər əvvəllər qol vurmaq belə Almaniyaya inanılmaz dərəcədə çətin bir iş kimi görünürdüsə, indi onlar iki qol vurmalı idilər və bu, həqiqətən də əsəbləri zorlamaya bilməzdi. Hətta liderlər və ən təcrübəli oyunçular belə təzyiq altında idilər. Üstəlik, əgər Noyer Kimmixin kobud ötürməsindən sonra topu ələ keçirən rəqibin zərbəsini dəf etməsəydi, Paraqvay 1/16 finala erkən yüksələ bilərdi.

Bu vaxta qədər Almaniya hələ də Paraqvay millisinin qapısına bir dənə də olsun zərbə endirə bilməmişdi. İlk belə zərbə yalnız 54-cü dəqiqədə vuruldu və əsəbləri bir qədər



sakitləşdirdi. Ən təəccüblüsü isə bunun nə qədər asan olması idi: Virtz cinahdan ötürmə etdi, Havertz başla qapıya vurdu və top uzaq küncdən çərçivəni tapdı.

Təbii ki, Paraqvay millisinin əsas diqqəti Almaniya komandasının çox yavaş, steril və sadəcə darıxdırıcı hücumlarından müdafiəyə yönəlmişdi. Görünür, onlar özləri də Braziliya tipli geri dönüş yarada biləcəklərinə və əlavə vaxtdan yayınacaqlarına inanmırdılar və elə belə də oldu.

Belə futbolun daha 30 dəqiqə uzanmasının hər iki tərəf üçün işgəncəyə çevrildiyi aydın görünürdü. Almaniya hücumda heç nə edə bilmədi demək doğru olmazd. Çünki onlar qol vurdular, lakin VAR qapıçıya hücum səbəbindən bunu hesaba almadı. Paraqvay da müqavimət göstərdi, amma komanda artıq zehni olaraq penaltilər seriyasına hazırlaşdı - sanki Orlando Gilin necə performans göstərəcəyini bilirdilər!

Penaltilər seriyasında Gil, həqiqətən, heyrətamiz oyun nümayiş etdirərək ona bəslənən ümidləri doğrultdu. O, əvvəlcə Havertsin, sonra isə Voltemadın zərbəsini dəf edərək komandasını irəli çıxardı. Lakin futbol Tanrısı sanki Almaniyanın futbol tarixindəki xidmətinə ehtiram əlaməti olaraq, ona daha bir şans verdi. Əvvəlcə Snabriya topu çərçivədən kənara vurub, Paraqvayın 2 top üstünlüyünü 1-ə endirdi. Sonra Manuel Noyer əvvəlki ustalığını xatırlayıb, bilavasitə penaltilər seriyasında iştirak üçün meydana çıxmış Balbuenanın zərbəsini dəf etdi.

Manuelin bu seyvi Almaniyanın kambek etməsi üçün əla bir şans kimi görünsə də, alman müdafiəçi Ta 11 metrlik nöqtədən topu qapı dirəyinin üstündən vurdu. Fantastik penaltilər seriyası Kanalenin qolu, Paraqvayın qələbəsi və pley-offun ilk sensasiyası ilə başa çatdı: Almaniya evə qayıdır!

Bu, bütün alman azarkeşləri üçün tam bir şok olsa da, Fransa komandası üçün əla xəbər idi: dörddəbir finala çıxmaq üçün onlar indi yalnız İsveç və Paraqvayı keçməlidirlər. Düzünü desək, hətta belə bir Almaniya komandası ilə də, Didye Deşamın canavarları ciddi favorit olardılar.

Tarixdə ilk dəfə olaraq dördqat dünya çempionu Almaniya Dünya çempionatında penaltilər seriyasında uduzdu. Bundan əvvəl onlar 1982-ci il Dünya çempionatında penaltilər seriyasında cəmi 1 top qaçırmışdılar, 2026-cı il mundialında isə 3 penalti qaçırdılar. Beləliklə, Almaniyanın 1962-ci ildən bəri pley-offun ilk mərhələsində uduzduğu ilk dəfə idi. O zaman pley-off 1/4 final mərhələsindən başlayırdı.

Paraqvay isə 16 ildən sonra ilk dəfə 1/16 pley-off mərhələsinə yüksəldi. 2010-cu ildə komanda qrup mərhələsini keçərək 1/4 finala qədər yüksəlmişdi və bu, Paraqvay millisinin Dünya çempionatının pley-off mərhələsində yeganə yüksək nailiyyəti idi.

Əlbəttə, cəmi 1 ay əvvəl Paraqvay 2026-cı il Dünya çempionatının favoritlərinə yaxın da deyildi, amma indi Cənubi amerikalıların titul qazanmaq şanslarını qiymətləndirməyə başlayıblar. İndi Paraqvay 1/8 finalda qarşılaşacağı Fransa-İsveç matçının qalibi gözləyir. Bu qarşılaşma isə iyulun 1-i Bakı vaxtı ilə saat 01:00-da baş tutub.

Mundialı belə erkən tərk etməkdən məyus olan baş məşqçi Yulian Naqelsmann "ESPN"ə verdiyi açıqlamada deyib: "Pley-off mərhələsinin ilk turunda kənarlaşdırılırsansa bu, Almaniya futbolu üçün məqbul sayıla bilməz. Biz ardıcıl üçüncü dəfə Dünya çempionatından kənarlaşdırıldıq, ona görə də artıq yüksək səviyyəli komanda hesab edilmirik. Məyus oldum".

Millinin kapitanı Coşua Kimmix də komandasının turnir boyu zəif çıxış etdiyini və nəticəyə layiq olduğunu bildirib. O, Almaniyanın turnirin favoritlərindən biri statusuna uyğun gəlmədiyini etiraf edib.

Amma iyunun 30-u gecə sensasiya Almaniyanın mundialı tərk etməsilə bitmədi və Dünya çempionatının daha bir sürprizi tarixə düşdü. Bu Hollandiya - Mərakeş matçından sonra baş verdi. 2026-cı il Dünya çempionatının pley-off mərhələsi başlamazdan əvvəl belə, Hollandiya - Mərakeş matçı ən maraqlı və gözlənilməz oyunlardan biri hesab olunurdu. Komandaların əsas vaxtda və əlavə vaxtda qalibi müəyyən edə bilməməsi elə də təəccüblü deyildi. Çünki Mərakeş millisinin hələ ötən mundialda necə oyun sərgilədiyinin şahidi olmuşduq. 2022-ci il Dünya çempionatında ilk dəfə olaraq Afrika-ərəb ölkələri tarixində 4-cü yerə yüksələn mərakeşlilər, həmin mundialda keçirdikləri 7 qarşılaşmada 3 qələbə, 2 heç-heçə və 2 məğlubiyyətlə tarix yazmışdılar. Turnirin ilk oyunundan bu nəticəni təkrarlamaq və bəlkə də yeniləmək barədə düşündükləri də aydın hiss olunur.

Beləliklə, Hollandiya - Mərakeş matçının ilk yarısı çox təhlükəli anlarla yadda qaldı. Ronald Kumanın yetirmələri qapıya hətta bir dəfə də olsun zərbə endirə bilmədilər. Lakin oyunda hesabı açan məhz onlar oldu. 72-ci dəqiqədə Krisensio Sammervil bu Dünya çempionatının ən gözəl ötürmələrindən birini etdi və topu Kodi Qakpoya çatdırdı. "Liverpul"un hücumçusu heç bir səhvə yol vermədi və hesabı açdı–1:0.

Vaxt gedir, mərakeşliləri mundialı tərk etmələrindən cəmi 6 dəqiqə ayırırdı. Hakim əsas vaxta məhz bu qədər əlavə etdi. Lakin dördüncü hakim bu vaxtı göstərən lövhəni aşağı salmağa belə macal tapmamış İssa Diop topu qapıya göndərdi və Afrika komandasını xilas etdi. Beləliklə, əlavə vaxt başladı.

Yarım saat ərzində hər iki komandaya qapıya yalnız bir zərbə endirə bildilər. Bu da uğurlu alınmadı, ona görə də qalib, Almaniya–Paraqvay matçında olduğu kimi, penaltilər seriyasında müəyyənləşdi. Əslində elə bu penaltilər seriyası da, gözlənilməz bir seriya oldu: oyunçular yalnız iki cəhddən bir qol vura bildilər.

Həlledici zərbə, müəyyən mənada, yenə Sammervillin zərbəsi oldu. Yassine Bunu onu sanki sehirlədi, hətta tullanışla deyil, çevik addımlarla küncə doğru irəlilədi və sonra topu götürdü. İsmael Saibari buna çox soyuqqanlı tərzdə cavab verdi və Hollandiyanı, Amaniya millisinin ardınca evə göndərən qolu vurdu. Mərakeş isə yəqin ki, indi 1/8 finalda Kanada ilə qarşılaşmaya hazırlaşır.

Beləliklə, Hollandiya Dünya çempionatlarında artıq ardıcıl üç dəfə penaltilərdəki uğursuzluq üzündən mundialdan kənarda qalaraq unikal bir rekord qırdı: 2014 və 2022-ci illərdə onlar eyni şəkildə Argentinaya məğlub olmuşdular. İndi də Mərakeşə.

Hollandiya millsinin kapitanı van Deyk məyusluğunu gizlətməyərək jurnalistlərə deyib: "Futbolçu üçün ən pis an. İndi təhlil etmək çətindir. Matç gərgin keçdi. Təəssüf ki, biz məğlub olduq. Bir müddət hər şey yaxşı gedirdi. Əlbəttə ki, daha yaxşı oynaya bilərdik, amma indi mülahizə yürütmək faydasızdır. Penaltiləri çox məşq etdik, amma yenə də uduzduq. İndi uşaqlarla birlikdə olmaq üçün mümkün qədər tez soyunma otağına qayıtmaq istəyirəm. Mənim yeganə fikrim budur".

**P.S.** *İyunun 30-u və iyulun 1-də Dünya çempionatının 1/16 finalının daha 3 qarşılaşması keçirilib. Dünən Bakı vaxtı ilə saat 21:00-da başlayan Fil Dişi Sahili – Norveç qarşılaşması skandinaviyalıların 2-1 hesablı qələbəsi ilə başa çatıb. İyulun 1-i gecə saat 01:00-da Fransa - İsveç, 05:00-da isə Meksika – Ekvador milli komandalarının qarşılaşması başa tutub. Bu vaxtlara qədər qəzet artıq çapa getdiyindən nəticələr və oyunların icmalını növbəti sayımızda dərc edəcəyik.*

***İlqar RÜSTƏMOV***
***XQ***

# Növbəti səhifə: ABŞ – Bosniya və Herseqovina

**Meydanın bir tərəfində "doğma divarlar" arasında oynayan XXlll Dünya çempionatının 3 təşkilatçı ölkəsindən biri, digər tərəfində isə paytaxtı Bakı ilə qardaşlaşmış Sarayevo şəhəri olan Bosniya və Herseqovina Respublikası. Əgər bu qardaşlığın tarixinin hələ 1970-ci illərin ikinci yarısından hesablandığını da xatırlasaq, bosniyalılara azarkeşlik etməyimiz səbəbsiz deyil. Görüş Bakı vaxtı ilə iyulun 1-dən 2-nə keçən gecə San Fransisko şəhərində oynanılacaq.**




1980-ci ilin payızında 1 gün Sarayevo şəhərinin qonağı olmuşdum. Bir qrup sovet idman jurnalisti Moskvadan təyyarə ilə o vaxt hələ Yuqoslaviya Sosialist Federativ Respublikası adlanan, Bosniya və Herseqovinanın da tərkibinə daxil olduğu ölkənin paytaxtı Belqrada gəldikdən sonra oradan avtobusla basketbol üzrə Avropa çempionatının keçiriləcəyi Banya Luka şəhərinə gedərkən yolüstü Sarayevo ilə tanış olmaq imkanı qazanmışdıq.

Onda bizi müşayiət edən bələdçi xanım hazırda müstəqil ölkə Bosniya və Herseqovinanın paytaxtı haqqında danışarkən onun adının "saray" sözündən götürüldüyünü, "Sarayevo" sözünün mənasının "Saray və onu əhatə edən ərazi" olduğunu bildirmişdi.

Sarayevo ilə vidalaşıb, basketbol ustalarının görüşlərini izləyəcəyimiz Banya Luka şəhərinə gəldikdə isə xoş bir təsadüf baş verdi. Çempionata gəlmiş jurnalistlər yarışın mətbuat mərkəzində qeydiyyatdan keçərkən bir nəfər bizə yaxınlaşıb, "Burada Bakıdan olan kimsə varmı?" deyə soruşdu. Mən özümü təqdim etdikdən sonra Hüseyn Huciç ad-soyadlı həmin şəxs bir neçə ay əvvəl Sarayevo şəhərinin nümayəndə heyəti tərkibində Bakıda olduğunu söylədi, qardaş şəhərlər arasındakı əlaqələrdən danışdı. Eləcə də, özünün 1984-cü ildə Sarayevoda keçiriləcək XlV Qış Olimpiya Oyunlarına Hazırlıq üzrə Təşkilat Komitəsinin üzvü olduğunu bildirdi. Biz bir-birimizdən qardaşlıq hisslərinin yaratdığı xoş duyğularla ayrıldıq.

Təxminən 1980-ci ildən metronun "Əhmədli" stansiyası ilə "Bakı" kinoteatrı arasında yerləşən küçələrdən birinin Sarayevo adı daşıdığını da qeyd edib, keçək qarşıdakı ABŞ-Bosniya və Herseqovina oyununa.

Maraqlıdır, qrup sınaqlarında hər iki komanda heç bir oyunda meydanı qol vurmadan tərk etməmişdir. Paraqvaya 4:1, Avstraliyaya 2;0 hesabı ilə qalib gəlib, Türkiyəyə uduzan (2:3) amerikalılar hücumda kifayət qədər yüksək məhsuldarlıq göstərmişlər. Onlar 8 qolun sevincini yaşamışlar. Bosniya və Herseqovina millisi isə startda Kanada ilə heç-heçədən (1:1), İsveçrə ilə qarşılaşmada məğlubiyyətdən (1:4) sonra Qətər komandası üzərində çox mühüm qələbə qazanıb (3:0) adını 1/16 final mərhələsi iştirakçılarının siyahısına yazdırmağı bacarmışdır.

Bizim vaxtla bu gün gecəyarısı tərəflərdən biri Dünya çempionatı–2026-da daha bir səddi uğurla keçməsinə ürəkdən sevinəcək, digəri isə turnirlə vidalaşmağa məcbur olacaq. Oyun ərəfəsində komandaların imkanlarını qiymətləndirərkən meydan sahibləri sanki bir qədər üstün görünürlər. ABŞ futbolçuları qrup mərhələsində görüşlərinin nəticələrinin də təsdiq etdiyi kimi, hakimin start işarəsindən dərhal sonra rəqibə güclü təzyiq göstərib, xoşbəxtliyi onun qapısında axtarmağa başlayırlar. Üstəlik də, "doğma divarlar" amili də onların xeyrinədir.

Bununla belə, futbolda hər şey olur deyimi də meydana təsadüfən çıxmayıb. Onu ilk dəfə hər kim deyibsə, dəqiq düşünülmüş fikir söyləyib. Təkcə bir nümunə göstərək: çempionat başlayanadək superkompüterlərin qrupdan çıxmaq imkanlarını cəmi 1 faiz kimi qiymətləndirdiyi, indi isə bütün dünyada adı son dərəcə böyük hörmətlə çəkilən Kabo Verde komandası başda 40 yaşlı qapıçısı Vozinyo olmaqla Argentina kimi nəhəng rəqiblə 1/16 final oyununa hazırlaşır. Səbirsizliklə gözlənilən görüşdə Messi-Vozinyo rəqabəti isə xüsusilə diqqət mərkəzində olacaq.

Kabo Verde komandası ən böyük futbolun ən kiçik qəhrəmanı kimi artıq öz sanballı sözünü demişdir. Deməli, bir daha təsdiq olunub: Futbolda hər şey olur və ya həyat kimi, futbol da gözlənilməz hadisələrlə doludur.

Hər iki komandanın ifasında məzmunlu, yaddaqalan oyuna şahidlik etmək arzusu ilə.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# Sumoçularımızın Şotlandiya uğuru



**İyunun 26 - 28-də Şotlandiyanın Stirlinq şəhərində keçirilən sumo üzrə Avropa çempionatında Yapon Döyüş Növləri və Mədəniyyəti Assosiasiyası və sumo idman növü üzrə milli yığma komandanın üzvləri olan idmançılarımızdan Cavid Yusifov (115 kq) qızıl, Əmrah Şəfiyev (85 kq və mütləq çəki) iki bürünc medal əldə ediblər. Millimiz komanda yarışında da bürünc medala layiq görülüb.**

Qeyd edək ki, bu il sumo üzrə Dünya çempionatı ilk dəfə olaraq 17-18 oktyabr tarixlərində Bakı şəhərində keçiriləcək.

# Dünya kubokunda 29 medal

**Azərbaycan millisi Tatarıstanda keçirilən kəmər güləşi üzrə Dünya kuboku və Dünya çempionatında 29 medal qazanıb.**

Azərbaycan Milli İdman Növləri Assosiasiyasından (AMİNA) verilən məlumata görə, idmançılar kəmər güləşi koreş (klassik), kəmər güləşi koreş (çimərlik), kəmər güləşi Qırğız kuroş (sərbəst) üzrə dünya çempionatları, eləcə də belboğlı kuraş (özbək güləşi) üzrə Dünya kubokunda mübarizə aparıblar.

Yarışlarda dünyanın 32 ölkəsindən 350-dən çox idmançı müxtəlif çəki dərəcələrində medallar uğrunda qüvvələrini sınayıb. Yığma üzvləri 4 qızıl, 13 gümüş və 12 bürünc medal əldə ediblər.

Bundan əlavə, Azərbaycan millisi kəmər




güləşi koreş (klassik) üzrə dünya çempionatında komanda hesabında ikinci olub.

Qeyd edək ki, yarışlar iyunun 25–29-da keçirilib.

# Bakıda Olimpiya Günü



**Bakıda Milli Olimpiya Komitəsinin (MOK) təşkilatçılığı ilə Olimpiya Gününə həsr olunmuş toplantıda MOK rəsmiləri, Azərbaycan idmanının tanınmış simaları və digər qonaqlar iştirak ediblər.**

Mərasimdə 1952–1992-ci illərdə Olimpiya Oyunlarında medallar qazanmış Azərbaycan idmançıları haqqında geniş məlumat verilib.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə və Azərbaycanın ilk olimpiya çempionu, veteran cüdoçu Nazim Hüseynov görülən işlərdən danışıblar.

Çıxışlardan sonra kəndirdartma, qaçış üzrə yarışlar keçirilib. Sonda qaliblər medal və diplomlarla mükafatlandırılıblar.

***Qabil YUSİFOĞLU***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 113 (31082) 1 iyul 2026-cı il, çərşənbə

## Yeni oftalmoloji dərs vəsaiti




**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin elmi-məlumat, təşkilati-metodik bölməsinin rəhbəri, Azərbaycan Oftalmoloqlar Cəmiyyəti sədrinin müavini, tibb üzrə elmlər doktoru Yazgül Abdiyevanın müəllifi olduğu "Konyunktivitlərin klinikası, diferensial diaqnostikası və müalicəsində müasir yanaşma" adlı dərs vəsaitinin təqdimatı keçirilib.**



Bu münasibətlə XQ-yə verilən xəbərdə bildirilir ki, təqdimat mərasimində Azərbaycan Tibb Universitetinin oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinur, kafedranın əməkdaşları, rezidentlər və oftalmologiya sahəsində çalışan mütəxəssislər iştirak ediblər.

Qeyd edək ki, kitabın elmi rəyçiləri akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Elmar Qasımov və Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının professoru, tibb elmləri doktoru Nigar Qurbanovadır.

Təqdimat zamanı çıxış edənlər nəşrin əsas məqsədi, konyunktivitlərin müasir klinik yanaşmalar əsasında diaqnostikası və müalicəsinə dair elmi-praktik biliklərin sistemləşdirilməsi, tələbələr, rezidentlər və həkim-oftalmoloqlar üçün faydalı mənbənin yaradılması olduğunu vurğulayıblar. Tədbir çərçivəsində iştirakçılara kitab hədiyyə olunub, geniş müzakirələr və sual-cavab sessiyası keçirilib.

Tədbirin gedişində Aysel Qəlbinur, Hafiz Qəhrəmanov, Aybəniz Abdullayeva, Vəfa Nəsirova, Rəhman Allahverdiyev, Solmaz Əliyeva və digər həmkarlar yeni nəşr münasibətilə müəllifi təbrik edərək öz fikirlərini bölüşüblər.

Nəşrin müəllifi Yazgül Abdiyeva çıxışında bildirib: "Bu dərs vəsaitinin əsas məqsədi konyunktivitlərin müasir klinik yanaşmalar əsasında diaqnostikası və müalicəsi ilə bağlı elmi-praktik bilikləri sistemləşdirərək tələbələrə, rezidentlərə və həkim-oftalmoloqlara faydalı mənbə təqdim etməkdir. Təqdimat mərasiminin keçirilməsi üçün şərait yaratdığına və elmi müzakirələrə verdiyi dəstəyə görə professor Paşa Qəlbinura və bütün həmkarlarıma təşəkkür edirəm".

*Zərifə BƏŞİRQIZI*
*XQ*

"Dəmiryolservis" MMC

*"Texnika və nəqliyyat vasitələri üçün texniki xidmət və ehtiyat hissələrinin satın alınması" məqsədilə AZCON-un idarəetməsinə verilmiş dövlət müəssisələri, dövlət payı olan təsərrüfat cəmiyyətləri və publik hüquqi şəxslər tərəfindən məhsulların (malların, işlərin və xidmətlərin) vahid satın alınması qaydalarına əsasən*

AÇIQ TENDER ELAN EDIR

Tenderdə iştirak etmək istəyən təchizatçılar p.babayev@ady.az elektron poçt ünvanına iştirak niyyəti ilə bağlı müraciət edərək tenderlə bağlı tam məlumatları, uyğunluq göstəricilərinə dair sənədləri, həmçinin mallar və xidmətlər barədə məlumatları əldə edə bilərlər.

Bu əsasda müraciət məktubunu təqdim etmiş və iştirak haqqının ödənilməsi barədə bank sənədini (ödəniş qəbzini) təqdim edən təchizatçılar tərəfindən uyğunluq sənədləri, tender təklifi və tender təklifinin təminatı imzalanmış və möhürlənmiş zərfdə 22 iyul 2026-cı il saat 12.00-dək təqdim edilməlidir.

Tender təklifləri 22 iyul 2026-cı il saat 14.00-da Bakı şəhəri, Sabunçu rayonu, Yavər Əliyev küçəsi 26 nömrəli ünvanda yerləşən "Dəmiyolservis" MMC-nin inzibati binasında açılacaqdır.

Göstərilən vaxtdan gec təqdim olunan təkliflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə nömrəsi: +994 (12) 425-10-41.
Mobil nömrə: 055-949-66-94.
E-mail: p.babayev@ady.az

*Ulu yurdlarımız*

# Düşüncə ovqatı, könül sovqatı

**Qışın sükutunda çiçəkli yaz intizarı, ilk bahar həsrəti vardı. Qar ulduz dənəcikləri kimi yerə tökülürdü. Köçəri quşların boş qalmış çör-çöp yuvalarını qar örtməyə başlayırdı. Mor bənövşələr baharın yolunu gözləyəndə atam məni dədə-babadan qalma yurd yerlərimizə apardı. Məni atdan düşürdü. Sonra da atın yüyənini çəkib yedəklədi. Yurd yerlərini qarış-qarış gəzərək gözdən itdi. Əlini ağzına aparıb üzü qayalara sarı var səsi ilə kimisə çağırdı:**

- Eh-hey!!!

Qayalar atama cavab qaytaranda elə məğrur göründü ki...

Atam qayıdanadək, könlümdən istilik alsın deyə, qarın soyuğunda ürəyimin hərarətini kol dibindəki boynubükük bənövşələrə verdim.

Həmin gün güneylər yenicə yaşıllaşırdı. Günəşin şəfəqləri qarlı zirvələrlə pıçıldaşırdı. Günəşli qar şəfəqdən al rəng alıb buludlara yanıq verirdi. Ulu təbiətin o anının özünəməxsus gözəlliyi və mənası vardı.

Günlər yaz günəşində əriyən qar kimi əriyib getdi. Ana təbiətin axar-baxarı başladı. Şehli quzeylərdə ağacların yarpaqları puçurda yuvalandı. Yaz həsrətli güneylərin, dağ yamaclarının gözləri yol çəkirdi. Atam qayıdanadək bir anlıq qəriblik, tənhalıq hissi keçirdim. Tənhalıqdan kəpənək kimi üşüyürdüm. Atam yanımda olanda o yerlərin gözəlliyini və tarixçəsini daha yaxşı anlayırdım. O, yurd yerlərimizin səmtini-səddini, sərhəddini çox gözəl anladırdı.

Hər tərəf gözlərimin önündə idi; yollar, zirvəli dağlar, dağların sinəsinə sığınan kəndimiz, hətta binələrdəki qara damlar, Kor Dünnünün tək evi. Sanki gördüklərimə dünyanın güzgüsündən baxırdım. Hər şey açıq-aydın görünürdü. Şirin bir nağıl kimi məsafə uzandıqca uzanırdı.

Göz açıb-yumunca atam at belində gəldi. Qucağında da körpə cüyür quzusu. Atam məni də qucağına alıb ata mindirdi. Bala cüyürlə elə mehrləşdik ki, nə məndən çəkinirdi, nə atımızdan, nə də atamdan. Cüyür balasının məxmər kimi ipək tüklərini sığallamaqdan zövq alırdım. Çöllərin bu dilbər balası köksümə sığınmışdı. Anasından aralı düşmüş bala cüyürü tapanda atamın insafı, Tanrının rəhmi dilə gəlmişdi.

Ceyran yerişli atımızın yəhəri xallı-xalçalı naxışlarla, yüyəni gümüşü işləmələrlə bəzədilmişdi. At belində, atamın qucağında, bala cüyürlə özümü xoşbəxt hiss edirdim. Dağdan arana qayıdanda atam balaca cüyürü aparıb öz yuvasına buraxdı. Oğrun-oğrun mənə baxan körpə cüyürün ilahi duruluğundan ayrıla bilmirdim.

Atam o dağların qucağında at belində, qoşalülə tüfəngi ilə ovçuluqda şöhrət qazanmışdı. Amma heçvaxt ceyrana, cüyürə güllə atmamışdı. O, çöllər gözəlinin öz təbii mühitində kökünün kəsilməsinin yox, əksinə, artıb çoxalmasının tərəfdarı idi. Deyirdilər ki, Ərastan kişi nə qədər ki, sağdır, Təhməzqulu ağanın yurd yerlərinə qatır gəlsə, dırnaq salar, quş gəlsə, qanad. İndi o yerlərdə ceyran-cüyürlərin yanıb şölələnən ala gözlərini, qaranquşların gəlişini, durnaların gedişini bir zamanla mənim gördüyüm kimi görən varmı, bilmirəm?! Gözəlliyin kökünü kəsmək heç insafdan deyil.

Ulu yurd yerlərinə, atamın atyarmaz çiyələkli, yemlikli biçənəklərinə şirin bir uşaq sevinci ilə gedərdim. O biçənəklərin çiyələkləri şəkərdən də şirin idi. Anadillərin nəğməsi öz yerində. Hələ də biçinçilərin nəğməsi, kərənti səsi qulaqlarımdan getməyib. Neçə illərdi o yerlərə getmirəm. Xəyalən atamın ruhu ilə danışıram. Acılı-şirinli xatirələri kitab kimi vərəqləyəndə özümü tamam unuduram. Yurd yerlərimiz mənə o qədər həsrətli duyğular yaşadıb ki:

*Sürülər yelləndi yaylaq boyunca,*
*Qıymadılar baxam gözüm doyunca,*
*Nə yemlik qalıbdı, nə də ki yonca,*
*Atamın atyarmaz qoruğu hanı?*

*Bu dərd atam boyda qordu, qalıbdı,*
*Sızıltımız indi xordu, qalıbdı,*
*Burda lələ köçüb, yurdu qalıbdı,*
*Bu yerin bal dadan moruğu hanı?*



*Ağacdan dolçası bulaqda qalıb,*
*O yanıqlı neyi qulaqda qalıb,*
*Sırıqlı da qalıb, dolaq da qalıb,*
*Görəsən, quşburnu çarığı hanı?*

*Bir səhər dolanıb dağı, gedibdi,*
*Gözünün qarası, ağı gedibdi,*
*Dilində bayatı, ağı gedibdi,*
*Deyib ki, o "kişiqırığı" hanı?*

Ailəmizdə on iki bacı-qardaşın kiçiyi-sonbeşiyi idim. Üzərimdə qayğı böyük idi. Amma məsum bir uşaq duruluğuma, kişi tövrümə, əlimi belimə qoyub, ciddi görkəm almağıma görə, atam mənə "kişiqırığı" deyirdi. Yaşım az olmağına az idi. Atamın məni kişi kimi görməyə böyük ümidi vardı.

Görəsən, atam məni - bapbalaca bir uşağı at belində qucağına alıb dağlara, ulu yurd yerlərinə nə üçün aparırdı? Bunları düşünəndə beynimdə fikirlər haçalanırdı. Qışın soyuğunda canımı atımızın nəfəsi ilə isindirməyinin nə hikməti varmış? Əlbəttə, bunu təkcə canıma soyuq dəyməsin deyə düşünmək sadəlövhlük olardı. Atımızın və atamın nəfəsindən xoşum gəlirdi. Günlərlə o xoş hissiyyatın təsirindən çıxa bilmirdim. Əllərimi qoşalayıb ağzıma aparırdım. Eh-hey!!!... deyib, atam kimi qayalara sarı qaçırdım. Qayalar səsimə səs verirdi. Atımızın nəfəsi, qayaların səsi ruhuma bir gümrahlıq gətirirdi. Ruhu gümrah olanın canına təbib nə lazım?..

İndi yaş ötüb, köç gedib. Yurd yerlərimizdə ocaq daşlarının gözləri qarala-qarala qalıb. Köçəri quşlar da yuvalarını boş qoyub getmir. Durnalar köç edəndə halallıq nişanı kimi, lələk salır, nəğmə oxuyur. Ona görə bir müddət səsləri qulaqlarımızdan getmir.

Doğulub boya-başa çatdığımız ata yurdumuz duyğu-düşüncə ovqatlıdır. Könül sovqatlıdır. Xəyalən o yerlərə qayıdanda düşüncələrimiz yumaq kimi çözələnir, sözlər də durnalar kimi qatara düzülür, ürəyimiz dönə-dönə dolub-boşalır.

Bir gün Borçalıya gedən yollarda quru sərhədlərimiz açılar, biz də sevda yolunun yolçuları kimi, köçəri quşlar kimi öz yurd-yuvalarımıza dönərik. Başımızı anamız torpağın dizinə, üzümüzü qayaların üzünə, canımızı ata ocağının oduna-köznə qoyarıq. Ya qismət!

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

## "TECHPRO DC" QSC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

*manatla*

| Aktivlər | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | |
| Əsas vəsaitlər | 363 369,92 | 234 662,60 |
| Qeyri-maddi aktivlər | 40 637,34 | 45 152,60 |
| **Cəmi uzunmüddətli aktivlər** | **404 007,26** | **279 815,20** |
| **Qısamüddətli aktivlər** | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 5 322 736,44 | 7 709 803,39 |
| Mal-material ehtiyatları | 13 249 307,21 | 11 998 399,37 |
| Ticarət debitor borcları | 21 486 742,36 | 16 491 903,32 |
| Digər aktivlər | 2 114 894,37 | 0,00 |
| **Cəmi qısamüddətli aktivlər** | **42 173 680,38** | **36 200 106,08** |
| **Cəmi aktivlər** | **42 577 687,63** | **36 479 921,28** |
| **Kapital və öhdəliklər** | | |
| **Kapital** | | |
| Nizamnamə kapitalı | 2 000,00 | 2 000,00 |
| Hesabat dövrünün xalis mənfəəti | 2 051 203,58 | 3 784 756,02 |
| Bölüşdürülməmiş mənfəət | 2 651 672,17 | 1 497 482,52 |
| **Cəmi kapital** | **4 704 875,76** | **5 284 238,54** |
| **Öhdəliklər** | | |
| **Qısamüddətli öhdəliklər** | | |
| Ticarət kreditor borcları | 15 307 870,13 | 12 475 934,47 |
| Bank kreditləri | 16 805 930,86 | 15 068 583,86 |
| Digər öhdəliklər | 5 759 010,89 | 3 651 164,41 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **37 872 811,88** | **31 195 682,74** |
| **Cəmi öhdəliklər** | **37 872 811,88** | **31 195 682,74** |
| **Cəmi kapital və öhdəliklər** | **42 577 687,64** | **36 479 921,28** |

**MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT**

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Satışdan gəlirlər | 94 405 143,38 | 87 417 697,09 |
| Satışların maya dəyəri | (84 820 597,75) | (68 990 118,18) |
| **Ümumi mənfəət** | **9 584 545,63** | **18 427 578,91** |
| Əməliyyat və digər inzibati xərclər | (6 983 619,37) | (13 675 807,13) |
| **Əməliyyat mənfəəti** | **2 600 926,26** | **4 751 771,78** |
| Məzənnə fərqindən gəlir | 25 074,35 | 0,00 |
| Məzənnə fərqindən zərər | (61 996,13) | (24 366,75) |
| Digər gəlirlər | 0,00 | 3 540,00 |
| **Vergidən əvvəl mənfəət** | **2 564 004,48** | **4 730 945,03** |
| Mənfəət vergisi | (512 800,90) | (946 189,01) |
| **Cəmi il üzrə xalis mənfəət** | **2 051 203,58** | **3 784 756,02** |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**Rəy**

Biz, "TECHPRO DC" QSC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə mənfəət, zərər və digər ümumi gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas uçot siyasətinin və digər izahedici məlumatlardan ibarət olan maliyyə hesabatlarının auditini aparmışıq.

**Bizim rəyimizcə, maliyyə hesabatları cəmiyyətin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyətini, həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS-lərə) uyğun olaraq düzgün əks etdirir.**

**Rəyin bildirilməsi üçün əsaslar**

Audit Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparılmışdır. Audit zamanı müstəqillik və peşə etikası prinsiplərinə riayət edilmiş, əldə olunan audit sübutlarının auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq olduğu müəyyənləşdirilmişdir.

**Audit zamanı qiymətləndirilmiş əsas sahələr**

Audit çərçivəsində aşağıdakı əsas istiqamətlər qiymətləndirilmişdir:

- gəlirlərin tanınması;
- mal-material ehtiyatlarının uçotu;
- bank kreditləri və faiz xərcləri;
- satılan malların maya dəyəri;
- alınmış avansların uçotu;
- debitor borclarının qiymətləndirilməsi;
- əsas vəsaitlərin amortizasiyası;
- daxili nəzarət sisteminin effektivliyi.

**Həyata keçirilmiş audit prosedurlarının nəticəsinə əsasən müəyyən edilmişdir ki, cəmiyyətin maliyyə hesabatları MHBS-lərin tələblərinə uyğun hazırlanmış və təqdim edilmişdir. Audit zamanı maliyyə hesabatlarına təsir göstərə biləcək əhəmiyyətli uyğunsuzluq aşkar edilməmişdir.**

**"Smart Audit" MMC, Lisenziya № AT/115**
**Auditorun qeydiyyat nömrəsi: SA/205**
**25 iyun 2026-cı il**

**HAVA**

## Yağış axşam kəsiləcək...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Atmosfer təzyiqi 760 millimetr civə sütunu, nisbi rütubət isə gecə 65-70, gündüz 40-45 faiz təşkil edəcək.**



Havanın temperaturu gecə 18-21, gündüz 26-31 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, gecə yağıntıların bəzi yerlərdə güclənəcəyi ehtimalı var. Axşama doğru əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman müşahidə ediləcək. Mülayim şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 17-21, gündüz 28-33, dağlarda gecə 8-13, gündüz 17-22, bəzi yerlərdə 24-28 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

"Avtomotoservis" ASC səhmdarlarının nəzərinə!

31 iyul 2026-cı il saat 12.00-da **"Avtomotoservis"** ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın keçirilmə ünvanı: Bakı şəhəri, Ə.Rəcəbli küçəsi, 1963-cü məhəllə, ASC-nin inzibati binası, 3-cü mərtəbə.

Əlaqə telefonları:
4656439 (əlavə 13); 0555150074.

**Yığıncağın gündəliyi:**

**1.** Səhmdar cəmiyyətinin idarəetmə orqanının 2025-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatı.

**2.** ASC-nin maliyyə durumu və dividendlərin bölgüsü.

**3.** Cəmiyyətin balansında olan inventarların təşviq və təsdiq edilməsi.

**4.** Cəmiyyətin müşahidə şurasının yaradılması, sədrin təyin edilməsi və üzvlərinin seçilməsi.

**5.** Cəmiyyətin baş direktorunun seçilməsi.

**6.** Cəmiyyətin audit komitəsinin yaradılması, sədrin təyin edilməsi və üzvlərinin seçilməsi.

**7.** Cari məsələlər.

Səhmdarların şəxsiyyətlərini təsdiq edən sənəd vacibdir. Səhmdarların nümayəndələri müəyyən olunmuş qaydada təsdiq edilmiş vəkalətnamə və şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər. Həmçinin vəkalətnamə ilə nümayəndə göndərən Səhmdardan özünün şəxsiyyət vəsiqəsinin surətini və dividendlərin ödənilməsinin təmin olunması üçün bank hesablarını təqdim etməyini xahiş edirik.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Kinossenarist, Əməkdar mədəniyyət işçisi Rəfiqə Məsud Oqtay Şahbazova və Pərviz Şahbazova əzizləri

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Xanlar Vəliyev ailəsi ilə birlikdə Oqtay Şahbazova və Pərviz Şahbazova əzizləri

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan şəhərindən İlqar Abbasov Oqtay Şahbazova və Pərviz Şahbazova əzizləri

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***✓ Atayev Kamran Soltan oğluna məxsus "HYUNDAİ TUCSON" markalı avtomobilin 77 HD 743 dövlət qeydiyyat nişanı (nömrə nişanı) itdiyi üçün etibarsız sayılır.***

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2415
SİFARİŞ 815
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00